Yetkinlik yaşına çatmayan şəxs barəsində tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi ilə cinayət işinin başlanmasının rədd edilməsi imkanlarından söhbət düşmüşkən, qeyd etmək lazımdır ki, xarici dövlətlərin müasir hüquq təcrübəsində və hətta bizim milli hüquq ədəbiyyatında da tərbiyəvi xarakterli məcburi tədbirlərin sistemini daha da genişləndirmək və bunun hesabına yetkinlik yaşına çatmayan şəxslərə cəzaya alternativ olan, lakin özünün tərbiyəvi təsirini göstərə bilən tədbirlərin tətbiqini təmin etmək tendensiyasının artımı müşahidə edilir. Belə ki, Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlar barəsində təyin edilə bilən cəzalara alternativ cinayət-hüquqi xarakterli tədbirlər «tərbiyəvi xarakterli məcburi tədbirlər» adlanır. Bu tədbirlərin leqal anlayışları, sistemi və tətbiq edilməsi xüsusiyyətləri CM-in 87 və 88-ci maddələri ilə müəyyən edilir. Bununla belə, hesab edilir ki, müasir dövrdə həmin tədbirlərin dairəsinin genişləndirilməsi mümkündür. Məsələn, MDB-də qəbul edilmə tarixinə görə (3 iyul 2014-cü il) ən yeni olan Qazaxıstan Respublikasının CM-in 84-cü maddəsində reallaşdırılmış tərbiyəvi təsir tədbirləri modelindən çıxış edərək, güman etmək olar ki, Azərbaycan Respublikasının CM-in 88-ci maddəsində təsbit edilmiş tərbiyəvi xarakterli məcburi tədbirlərin sayını yeni tədbir növü hesabına artırmaq olar. Bu tədbir – «yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması» tədbiridir.

Üzrxahlıq hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmamamış şəxsin öz əməlinin mənfi nəticələrini dərk etməsinin, bundan peşman olmasının göstəricisi olmaqla yanaşı, onun əməlindən zərər çəkmiş şəxs üçün də effektiv mənəvi reabilitasiya vasitəsidir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» 29 dekabr 1998-ci il tarixli Qanunun 7-ci maddəsinə əsasən, təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları onların səhvi və ya sui-istifadəsi nəticəsində həbsdə saxlanılmış, yaxud təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxsdən yazılı surətdə üzr istəməlidir. Göründüyü kimi, üzr istəmə, yaxud başqa sözlə, üzrxahlıq Azərbaycan Respublikasında realizə edilən hüquq siyasəti kontekstində pozulmuş hüququn reabilitasiya vasitələrindən biri kimi nəzərdən keçirilir. Yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması məzmunca ilk baxışdan ona oxşar digər tərbiyəvi xarakterli məcburi tədbirlərdən fərqlənir. Tərbiyəvi xarakterli məcburi tədbir növü kimi xəbərdarlıqdan fərqli olaraq, üzrxahlıq yetkinlik yaşına çatmayan şəxsin üzərinə aktiv hərəkət etmək öhdəliyi qoyur. Birinci halda, yetkinlik yaşına çatmayan şəxsin törətdiyi əməlin nəticəsində vurulmuş ziyan və qanunda nəzərdə tutulmuş cinayətlərin təkrar törədilməsinin nəticələri yetkinlik yaşına çatmayan şəxsə səlahiyyətli subyekt tərəfindən izah edilir və yetkinlik yaşına çatmayan şəxs burada passiv dinləyici kimi çıxış edirsə, yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması zamanı yetkinlik yaşına çatmayan şəxsin özündən müəyyən aktivlik tələb olunur, bu zaman o, zərər çəkmiş şəxsdən üzr istəməli, öz hərəkətindən peşmançılığını, təkrarən belə hərəkətlər etməyəcəyini və s. bildirməli olur. Eləcə də, üzrxahlıq vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsindən də fərqlidir, çünki əgər vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsinin tətbiqi yetkinlik yaşına çatmayanın əmlak vəziyyəti və əmək vərdişləri ilə şərtlənirsə, üzrxahlıq prinsipcə, bütün yetkinlik yaşına çatmayanlara tətbiq edilə bilər [3]

Üzrxahlıq etmək bizim milli, dini və mental xüsusiyyətlərimizə də tamamilə uyğun gəlir. Xətaya düçar olmuş şəxsin üzr istəməsi və eləcə də qarşı tərəfin üzrü qəbul etməsi hər ikisi üçün dəyərlidir. Həm üzr istəmək, həm də üzrü qəbul etmək ilə əlaqədar hətta müqəddəs Quranda da tövsiyələr edilmişdir. Çünki bu rəftar həmin şəxsə təkamül və dürüstlük yoluna qayıtması üçün fürsət

və zəmin yaradır. Bu addım üzrü qəbul edən şəxs üçün onun insani keyfiyyətlərinin sınağı olaraq qəbul edilə bilər. İnsanın bu rəftarı onun əxlaqi keyfiyyət olan əfv və güzəşt etmək xüsusiyyətinə malik olduğunu göstərməklə yanaşı, dərkinin yüksəkliyindən xəbər verir. Odur ki, CM-in 88-ci maddəsində təsbit edilmiş tərbiyəvi xarakterli məcburi tədbirlərin sayının «yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması» növündə tədbirin hesabına genişləndirilməsi təklifinə həm cinayət-hüquq siyasətinin humanistləşdirilməsi və təkmilləşdirilməsi kontekstindən, həm də yetkinlik yaşına çatmayan şəxslər barəsində tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi ilə cinayət işinin başlanmasının rədd edilməsi imkanlarının artırılması, bununla da, yetkinlik yaşına çatmayanların işləri üzrə polis və prokurorluq orqanlarına işə rəsmi şəkildə baxmadan müvafiq qərar qəbul etmək səlahiyyətlərinin verilməli olması kimi beynəlxalq standartın (Pekin qaydalarının 11-ci maddəsi) təmin edilməsi imkanlarının artırılması kontekstindən olduqca müsbət yanaşırıq.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Abbasova F.M. Cinayət prosesi. Xüsusi hissə. Yenidən işlənmiş 2-ci nəşr. Dərslik. Bakı: Bakı Universiteti, 2016, 456 s.
2. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı: Qanun, 2008, 768 s.
3. İsmayılov Ü.D. Yetkinlik yaşına çatmayanlara cəza təyin edilməsi problemləri. Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 2016, 23 s.
4. Qəfərov M.S. Cinayət mühakimə icraatının şəxslərə görə differensiasiya edilməsinin bəzi məsələləri // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. Humanitar elmlər seriyası, 2013, № 38, s.118-132.
5. Məmmədova L.İ. Azərbaycan Respublikasının cinayət prosesində ayrı-ayrı kateqoriya şəxslər barəsində icraatın xüsusiyyətləri. Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 2016, 26 s.
6. Məmmədova L.İ. Yetkinlik yaşına çatmayanlar barəsində cinayət təqibinin başlanması məsələsinin alternativ həlli haqqında / Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri. II Beynəlxalq elmi konfrans materialları. Bakı, 23-24 oktyabr 2014-cü il, s. 307-311.
7. Mövsümov C.H. Sovet cinayət prosesi. Bakı: Maarif, 1989, 312 s.
8. Качур А.Н. Эффективность уголовно-процессуальной формы: проблемы и перспективы / Актуальные проблемы права и правоприменительной деятельности на современном этапе. Материалы Всероссийской научно-практической конференции. Краснодар, 23-24 сентября 2010 г., с. 214-217.
9. Куленкова М.П. Некоторые актуальные вопросы единства и дифференциации уголовно-процессуальной формы // Российский криминологический взгляд, 2011, № 2, с. 379-381.
10. Мищенко Е.В. Дифференциация и унификация уголовно-процессуальных форм производств по отдельным категориям уголовных дел. Монография. Москва: Юрлитинформ, 2014, 256 с.
11. СамитоваЛ.И. Проблема единства и дифференциации уголовно-процессуальной формы в законодательстве, теории и практике российского уголовного судопроизводства // Черные дыры в российском законодательстве, 2008, № 6, с. 140-142.

**Джанполад Али оглу Даанов**

## О ПРАВИЛЕ ОБЯЗАТЕЛЬНОГО ПРОВЕДЕНИЯ ПРЕДВАРИТЕЛЬНОГО СЛЕДСТВИЯ ПО ПРЕСТУПЛЕНИЯМ НЕСОВЕРШЕННОЛЕТНИХ

**Резюме**

Статья 430 Уголовно-процессуального кодекса Азербайджанской Республики была наименована как «Обязательность проведения предварительного следствия». Согласно данной статье, досудебное производство по преступлениям, совершенным несовершеннолетними, ведется только в виде предварительного следствия. Автор предпринял попытку проанализировать данную статье через призму норм уголовного законодательства страны и действующих международных стандартов в сфере детской уголовной юстиции.

**Janpolad Ali Daanov**

## ON THE MANDATORY PRELIMINARY INVESTIGATION OF JUVENILE OFFENCES

**Summary**

Article 430 of the Criminal Procedure Code of the Republic of Azerbaijan was referred to as "Compulsory preliminary investigation." According to this article, pre-trial proceedings for crimes committed by minors are conducted only in the form of a preliminary investigation. The author attempted to analyse this article from the perspective of the country 's criminal legislation and the international standards in force in the field of children 's criminal justice.

**MİDHƏD QƏFƏROV**
**Azərbaycan Respublikası Dövlət Gömrük Akademiyası,**
**h.ü.e.d, professor**

**HİKMƏT EYVAZOV**
**Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının**
**Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin rəisi,**
**polis polkovniki, h.ü f. d., dosent**

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT PROSESİNDƏ CİNAYƏT TƏQİBİ İLƏ BAĞLI MÜLAHİZƏLƏR

**Açar sözlər**: cinayət prosesi, kriminalistika, cinayət təqibi, prokuror, müstəntiq, həbs.

**Ключевые слова**: уголовное процесс, криминалистика, уголовное преследование, прокурор, следователь, арест.

**Keywords:** criminal procedure, criminalistics, criminal prosecution, prosecutor, investigator, arrest.

Müasir cinayət prosesi və kriminalistika elmində cinayət təqibinin anlayışı, mahiyyəti, sosial təyinatı, növləri, formaları və onun mərhələləri, cinayət təqibi zamanı tətbiq edilən taktiki üsul və vasitələr və s. əsas nəzəri və praktik əhəmiyyət kəsb edən məsələlər kimi daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Cəmiyyət üçün dialektik inkişaf prosesinin xas olması bu istiqamətdə tədqiqatları zəruri edir və onun aktuallığını şərtləndirir. Azərbaycan Respublikasında 2000-ci ildən sonrakı dövr ərzində Cinayət-Prosessual Məcəlləyə edilmiş kifayət qədər əlavə və dəyişikliklər, ayrı-ayrı prosessual institutların məzmununu zənginləşdirmişdir. Bəzi institutların isə ümumiyyətlə, Cinayət-Prosessual Məcəllədən çıxarılması ilə nəticələnmiş və yaxud da bütövlükdə bu vaxtadək məlum olmayan bir sıra yeni institutların təsbit edilməsi ilə bağlı olmuşdur. Məsələn, hüquqi şəxslər barəsində cinayət hüquqi tədbirlərin tətbiq edilməsi, cinayət hüquqi və prosessual tənzimləmədə indiyədək nə Azərbaycan respublikasının cinayət hüququna, nə də cinayət-prosessual hüquqa məlum deyildi. Cinayət mühakimə icraatı sahəsində aparılan islahatlar respublikamızda aparılan demokratik məhkəmə hüquq islahatlarının tərkib hissəsidir və onlar bu islahatlardan ayrı təsəvvür edilə bilməz. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan ardıcıl mütərəqqi islahatlar, hüquqi islahatların kompleks istiqamətdə aparılmasına dəlalət edir. Heç şübhəsiz ki, bu tədbirlər çox yaxın gələcəkdə cəmiyyətin demokratikləşməsi və insan hüquqlarının aliliyinin öz müsbət nəticələrini verəcəkdir. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (1,maddə 37) cinayətkarlığa qarşı mübarizə cinayət hadisəsinin müəyyən edilməsi, cinayətin açılması, cinayət törətmş şəxsin aşkara çıxarılması və s. cinayət təqibi orqanlarının bilavasitə vəzifəsi kimi təsbit edilmiş və cinayət təqibi orqanlarının, təhqiqat, istintaq və prokurorluq orqanlarının üzərinə vəzifə öhdəliyi kimi (eks officio) qoyulmuşdur. Qanunvericilikdə cinayət təqibi üzrə fəaliyyət və bu fəaliyyəti həyata keçirən orqanlar anlayışlarından istifadə edilir. Cinayət təqibi cinayət prosesinin hərəkətvereci qüvvəsidir və bu fikir həm prosessualistlər, həm də kriminalistika elmi sahəsində bütün tədqiqatçılar tərəfindən qəbul edilir. Təbii ki, cinayət təqibi yoxdursa,

ondan nə müdafiəyə, nə də işin həll edilməsi üzrə fəaliyyətə ehtiyac yoxdur. Fikrimizi məntiqi ardıcıllıqla davam etdirsək,deməli, nə hüquqi tənzimləməyə,nə prosessual və kriminalistik tədqiqatlara zərurət qalmır. Cinayət təqibi üzrə fəaliyyət vardır, hüquqla tənzimlənir, bu fəaliyyət cinayət prosesində digər funkiyaların da həyata keçirilməsini şərtləndirir. Digər funksiyaların həyata keçirilməsinin səmərəliliyi bilavasitə bu fəaliyyətin əsaslı və qanunauyğun aparılmasından asılı olur. Başqa sözlə, ədalət mühakiməsinin səmərəliliyi məhkəməyədək icraatın səmərəliliyi ilə qırılmaz surətdə bağlıdır. Hesab edirik ki, cinayət təqibi problemləri, işin hərtərəfli, tam və obyektiv araşdırılması, müdafiə və işin həll edilməsi kontekstində kompleks şəkildə nəzərdən keçirilməlidir, başqa cür yanaşma, məsələnin birtərəfli araşdırılmasına, əldə edilmiş nəticələrin isə təcrübə üçün əhəmiyyətinin azalmasına gətirib çıxaracaqdır. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 8-ci maddəsi cinayət mühakimə icraatı qarşısında duran vəzifələr sistemini ümumi şəkildə müəyyən edir. Təbii ki, bu vəzifələr ayrı-ayrı mərhələlərdə konkretləşdirilir və qanunvericilik bu vəzifələrin konkret cinayət işləri üzrə hər bir mərhələdə yerinə yetirilməsi üzrə qaydaları müəyyən edir. Bu mexanizmin qurulmasında ictimai və şəxsi mənafelərin tarazlığına nail olunması qanunvercilik fəaliyyətinin əsas prinsipi kimi çıxış edir və yalnız belə olduqda cinayət mühakimə icraatının təyinatına nail olmaq olar. Cinayət təqibi cinayət mühakimə icraatı strukturunun əsasını təşkil edir. Bundan başqa, cinayət təqibi cinayət mühakimə icraatında yardımçı, yaxud köməkçi fəaliyyət deyil, məhz həmin icraatın hərəkətverici qüvvəsidir. Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilir ki, dövlətin və zərərçəkmiş şəxsin cinayətin törədilməsində təqsiri olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və onların cəzalandırılması haqqında tələbi, məhz bu fəaliyyət vasitəsilə gerçəkləşdirilir və bunun həyata keçirilməsi müstəsna səciyyə əldə edir (2, səh.31).

Cinayət mühakimə icraatının təyinatları kontekstində cinayət təqibinə müəyyənedici rol verilir. Bu da danılmazdır ki, cinayəti törətmiş bir şəxsin aşkar olunması, konkret təqsirkarın müəyyən edilməsi, ifşa olunması və cinayət məsuliyyətinə cəlb edilməsi, habelə cinayətin törədilməsi nəticəsində vurulmuş zərərin ödənilməsi prosedurları lazımi səviyyədə yerinə yetirilmədən cinayətdən zərərçəkmiş şəxslərin müdafiəsi qeyri-mümkündür. Eyni zamanda, cinayət təqibinin qanunvericiliklə reqlamentləşdirilməsi cinayət mühakimə icraatı sferasına cəlb edilmiş şəxsiyyətin hüquq və azadlıqlarının prioritetinə, hər bir cinayətin tezliklə açılmasına və istintaqının vaxtında aparılmasına dövlətin maraqlarına əsaslanmalıdır. Cinayət təqibinə cinayət-prosessual qanunvericiliyi tərəfindən müdafiə funksiyasının əksi olan funksiya, habelə ittiham tərəfinin cinayətin törədilməsində şübhə edilən və ittiham olunan şəxsin ifşa olunmasına yönələn prosessual fəaliyyəti kimi baxılır. Bu gün «cinayət təqibi» anlayışının normativ tərifinin olmasına baxmayaraq, onun mahiyyəti və məzmunu yenə də çoxsaylı diskussiyaların, elmi hüquq ədəbiyyatında fasiləsiz mübahisələrin predmeti olaraq qalmaqdadır. Qanunvericilikdə cinayət təqibi - cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təyin edilməsi məqsədilə həyata keçirilən cinayət-prosessual fəaliyyət kimi anlayış verilir (CPM, m.7.0.4). Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyasında qeyd edilir ki, cinayət prosesinin tərkib hissəsi olan cinayət təqibi konkret şəxslə bağlı həyata keçirilən prosessual fəaliyyətdir və həmin şəxsin cinayət törətməkdə ifşa olunmasına və ona layiqli cəza təyin edilməsinin təmin olunmasına yönəlmişdir (3, səh.25).

Qeyd etmək lazımdır ki, cinayət təqibinə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 7.0.4-cü maddəsində, xarici ölkələrin cinayət prosessual qanunvericiliklərində verilən və eləcə də nəzəriyyədə formulə edilən anlayışlar arasında fərqlilik mövcuddur. Bu məsələdə müəyyənliyə nail olmadıqda, labüd olaraq bir növ kriminalistik tədqiqatlar üçün əsas rolu oynayan cinayət – prosessual fəaliyyətin taktiki üsul və vasitələrinin işlənib hazırlanmasında da natamamlıq müşahidə olunacaqdır. Odur ki, cinayət təqibi an-

layışına konseptual aspektdə yanaşmaq və aydınlıq yaratmaq vacibdir. Hesab edirik ki, cinayət təqibinə cinayət-prosessual fəaliyyət kimi, cinayət-prosessual institut kimi (cinayət təqibi - cinayət-prosessual fəaliyyəti tənzimləyən normaların sistemi kimi), cinayət təqibi prosessual funksiya kimi müxtəlif aspektlərdən xarakterizə oluna bilər. Lakin hansı yöndən yanaşma tətbiq edilməsindən asılı olmayaraq ilk olaraq belə bir sual yaranır.Cinayət təqibi nədir? Onun məzmun elementlərinə nələr daxildir? Bu sualların cavabı təkcə prosessual deyil, krimanilistik tədqiqatlar üçün də bir növ açar rolu oynayır. Rusiya Cinayət-Prosessual Məcəlləsinin 5-ci maddəsi - cinayət təqibinə, konkret şübhəli və təqsirləndirilən şəxsin cinayət törətməkdə ifşa olunmasına yönələn fəaliyyət kimi anlayış verir və cinayət-prosessual qanunvericiliklərində də şübhə formasında, ittiham formasında, cinayət təqibinin həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyirlər.

Çox da dərinə getmədən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 7.0.4-cü maddəsində cinayət təqibinə verilən anlayışla Rusiya Cinayət-Prosessual Məcəlləsində cinayət təqibinə verilən anlayışdan fərqlərini görmək çətin deyil. Bu məsələdə nəzəriyədə də alimlər arasında çoxfikirlilik hökm sürməkdədir. Hüquq ədəbiyyatında göstərilirdi ki, cinayət təqibi həmişə konkret şəxsin – şübhə edilən şəxsin və ya müqəssirin ifşa edilməsinə yönəldilmişdir. Bu yanaşma vaxtilə keçən əsrin ortalarında M.S.Stroqoviç tərəfindən işlənib hazırlanmış cinayət təqibi konsepsiyasına əsaslanır. Müəllif qeyd edirdi ki, cinayət təqibi anlayışının özü bu fəaliyyətin ittihamedici xarakterdə olduğunu göstərir. Onun mövqeyi belə idi ki, cinayəti törətməkdə ancaq cinayət prosesində müəyyən prosessual vəziyyətdə olan şəxsi - müttəhimi (təqsirləndirilən şəxsi) ittiham etmək olar. Təhqiqat orqanı və ya müstəntiq tərəfindən aparılan və ümumiyyətlə, cinayət hadisəsinin mövcud olub-olmamasını müəyyən etməyə yönələn ilkin hərəkətləri cinayət təqibi hesab etmək olmaz (4,səh.194).

Bir sıra müəlliflər isə belə hesab edirlər ki, şübhə edilən şəxsin olmadığı zaman istintaq və təhqiqat orqanları sübutların toplanması ilə məşğul olur. Bunlar elə sübutlardır ki, onların gələcəkdə cinayətin konkret olaraq hansı şəxs tərəfindən müəyyən olunmasını mümkün edə bilərlər. Buna görə də şübhə edilən şəxsin meydana çıxmasına qədər, yaxud təqsirləndirilən şəxsin aşkar edilməsinədək ittiham fəaliyyətinə hazırlıq, növbəti cinayət təqibi üçün zəruri şəraitin yaradılması haqqında danışmaq olar (5, səh.123).

Eləcə də, hüquq ədəbiyyatında belə bir fikir də göstərilir ki, şübhə edilən şəxsin və ya təqsirləndirilən şəxsin meydana çıxmasına qədər təhqiqatçının, müstəntiqin, prokurorun prosessual fəaliyyəti sanki predmetsiz, «qeyri-funksional» fəaliyyətdir (6, səh.30).

Cinayət təqibinin belə izahı əleyhinə çıxış edən müəlliflər,belə bir arqumentə əsaslanırlar ki, sübut edilməli olan halların müəyyən edilməsi son nəticəyə – cinayət törətmiş şəxsin aşkar edilməsinə nail olmağın vasitəsidir. Bu həmin şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi məqsədinə xidmət edir. Bu mərhələdə aparılan istintaqa cinayət törətmiş naməlum şəxsin təqib olunması kimi baxmaq olar, məqsəd isə onu aşkar və ifşa etməkdən ibarətdir (7, səh.20). Gözlə görünməmiş cinayətlərin törədildiyi zaman faktiki cinayət təqibinin həyata keçirilməsi mümkünlüyünü nəzərdən keçirən müəlliflər isə belə bir nəticəyə gəlir ki, cinayət təqibi – konkret insanın ifşa edilməsi ilə bağlı heç də həmişə ünvanlı prosessual fəaliyyət kimi təzahür etmir (8, səh.23).

Göstərilənlərin o möqeyi ilə razılaşırıq ki, cinayət təqibinə cinayətin açılmasına və təqsirkarların ifşa edilməsinə qədər məlum olan ictimai təhlükəli əməl üzrə «izlər»lə tədricən və məqsədəyönlü hərəkət kimi yanaşılarsa, cinayət təqibi - cinayətin «izləri»nin, məhkəmə sübutlarının aşkar olunmasına, toplanmasına və yoxlanmasına yönələn istintaq hərəkətlərinin ayrılmaz tərkib hissəsidir.

Bu halda cinayət təqibi müstəsna dərəcədə konkret şəxs əleyhinə və ya cinayətin törədilməsində şübhə edilən şəxsin ifşa olunmasına yönələn fəaliyyəti - ittihamedici fəaliyyətdən ibarət hesab etmək olmaz.

Hüquq ədəbiyyatında cinayət təqibinə cinayət haqqında hər bir ərizə və ya məlumat üzrə cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulan

tədbirlərin qəbul olunmasından ibarət olan fəaliyyət kimi yanaşma da vardır. Qeyd edilir ki, cinayət təqibi cnayətin izlərinin aşkar olunması, onun törədilməsində təqsiri olan şəxslərin müəyyən və ifşa edilməsi, həmin şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi məqsədi ilə həyata keçirilən fəaliyyətdir (9,səh.58). Belə yanaşma qanunvericilklərdə formulə edilən normativ anlayışlarla da şərtlənir. Ümumiyyətlə, cinayət təqibi konsepsiayasına nəzər saldıqda görürük ki, cinayət təqibinin dar və geniş mənada, başqa sözlə, şəxsləşdirilmiş və şəxsləşdirilməmiş və yaxud vasitəli və ya vasitəsiz konsepsiyası formalaşmışdır. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7-ci maddəsində məhz cinayət təqibinin geniş mənada konsepsiyasına (və yaxud şəxsləşdirilməmiş və yaxud vasitəsiz) cinayət təqibi konsepsiyasına əsaslanmışdır. Deməli, cinayət təqibinə verilən geniş və yaxud şəxsləşdirilməmiş anlayış da əsas götürülməli və bu kontekstdə də kriminilastik elmi təklif və tövsiyələr işlənməklə cinayət prosesessual fəaliyyətin səmərəli həyata keçirilməsinə öz töhfəsini verməlidir. Konkret şəxsə ittiham irəli sürmək üçün hansı cinayətin törədilməsi və onun Cinayət Məcəlləsinin hansı maddəsinin təsiri altına düşməsi müəyyən edilməlidir.Şəxsləşdirilməmiş cinayət təqibinin məqsədi şəxsləşdirilmiş cinayət təqibinə keçidin təmin edilməsidir.

İkinci diqqəti cəlb edən məsələ cinayət təqibinin elementləri ilə bağlıdır. Ədəbiyyatda mübahisə doğuran məsələlərdən biri də cinayət-prosesessual məcburiyyət tədbirlərinin cinayət təqibinin müstəqil elementi hesab edilməsi ilə bağlıdır. Hələ vaxtilə A.M.Larin qeyd edirdi ki, "qətimkan tədbirlərinin tətbiqinin cinayət təqibinə aid edilməsi mübahisəli görünür, qətimkan tədbirlərini eyni səviyyədə həm müstəntiq, həm də məhkəmə tətbiq edir. Məhkəmə üçün cinayət təqibi funksiyası xas deyildir."( 10).

Cinayət-prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi cinayət prosesində məqsəd deyildir və ola da bilməz. Cinayət təqibi orqanları cinayət-prosessual məcburiyyət tədbirləri tətbiq etmək məqsədilə fəaliyyət göstərmirlər. Bu tədbirlər cinayətlərin qarşısının alınması, cinayət-prosessual fəaliyyətin normal gedişinin təmin edilməsi və s. üçün qanunvericilikdə nəzərdə tutulmuş prosessual vasitələrdir. Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilir ki, prosessual məcburiyyət tədbiri tətbiq edilməsi haqda qərar və ya tutulma protokolu ilk sənəddir ki, tutulma və ya ittiham elan edilənədək qətimkan tədbiri seçilmiş şəxsin, hansı cinayətin törədilməsi haqda ilkin nəticə formulə edilir və ona bu barədə ilkin (hətta ehtimal olsa da) məlumat verilir. Qətimkan tədbirinin seçilməsi haqda qərar və ya tutulma haqqında protokol bu hissədə təqsirləndirilən şəxs qismində cəlb etmə haqda qərarla analoji əhəmiyyətlidir. Cinayət təqibinin başlanması aktına xidmət edir və müdafiə hüququnun yaranmasını şərtləndirir. Tutulma və ya qətimkan tədbirinin seçiməsi anından şübhəli şəxs müdafiə hüququnu realizə etmək – izahat vermək, vəsatət vermək, şikayət vermək və s. hüququndan istifadə edir. Fikrimizcə, Cinayət-Prosessual Məcəllənin 7.0.4-ci maddəsində - cinayət təqibinin zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədi ilə həyata keçirilən fəaliyyət kimi deyil, "zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi ilə təmin edilən (həyata keçirilən)" fəaliyyət kimi, təsbit edilməsi daha düzgün hesab edilməlidir.

Digər məsələ, məhkəməyədək icraatda ibtidai istintaq zamanı həbs növündə qətimkan tədbirlərinin ləğv edilməsi və ya dəyişdirilməsi ilə bağlı məsələdir. CPM-in 175.3 -cü maddəsinə əsasən məhkəmənin həbs, ev dustaqlığı və ya girov qismində seçdiyi qətimkan tədbiri yalnız məhkəmə tərəfindən dəyişdirilə və ya ləğv oluna bilər. Bu Məcəllənin 157.8-ci və 163.6-cı maddələrində nəzərdə tutulmuş hallarda müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəmə tərəfindən seçilmiş həbs qətimkan tədbirinin tətbiqinə yalnız aşağıdakı hallarda xitam verə bilər:

- təqsirləndirilən şəxsin ağır xəstəliyi ilə əlaqədar həbsdə saxlanılmasının qeyri- mümkünlüyü barədə tibbi rəy olduqda;
- təqsirləndirilən şəxsin əməlinin böyük ictimai təhlükə törətməyən cinayət kimi tövsif edilməsi barədə qərar çıxarıldıqda.

Göründüyü kimi, məhkəməyədək icraat zamanı tətbiq edilmiş həbs qismində qətimkan tədbiri-

nə zərurət aradan qalxdıqda qanun tələb edir ki, yalnız üç halda - iki hal CPM-in 157.8-ci maddəsində nəzərdə tutulub və bir halda cinayət işinə xitam verilməsi zamanı, başqa qalan hallarda mütləq, bu tədbir məhkəmə tərəfindən ləğv edilməlidir. Məhkəmə nəzarəti institutu məhkəməyədək icraatın qanuniliyinin təmin edilməsi və insan və vətəndaşın konstitusion hüquq və azadlıqlarının əsassız məhdudlaşdırılmasının qarşısını almağa yönəlmiş bir mexanizmdir, bu institut belə zərurətdən irəli gəlmişdir.Məhkəmə nəzarətinin predmetinə konsitusion hüquq və azadlıqlara müdaxilə ilə bağlı tədbirlər daxil edilmişdir. Yəni, məqsəd ondan ibarət idi ki, məhkəməyədək icraatda cinayət təqibi orqanları tərəfindən insanların hüquq və azadlıqlıqlarının qeyri-qanuni və əsassız müdaxilə hallarına yol verilməsin və məhkəmə baxışı keyfiyyətli cinayət işi mateialları ilə təmin edilsin. Məhkəməyədək icraatda həbs qətimkan tədbirinin zəruriliyi müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatında əsaslandırılır və məhkəmə tərəfindən seçilir. Fikrimizcə, həbs qətimkan tədbirinə zərurət aradan qalxdıqda həbs qismində qətimkan tədbirinin ləğv edilməsi səlahiyyəti müstəntiqə və (və ya) ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilməlidir. Bu bir tərəfdən məhkəmənin təcrübədə iş yükünün azalmasına, istintaq orqanlarının əlavə yükdən azad edilməsinə səbəb olacaq, müstəntiqlə təqsirləndirilən şəxs arasında psixoloji kontaktın qurulmasına şərait yaradacaq, digər tərəfdən də Cinayət-Prosessual Məcəllənin 14-cü maddəsində təsbit edilən azadlıq hüququnun "dərhal azad edilməlidir"- tələbinin daha səmərəli və vaxtında təmin edilməsinə xidmət edəcəkdir. Təcrübədə iş vaxtının sonunda həbsdən azad edilmə haqda təqdimatın verilməsi halında çox vaxt faktiki olaraq təqsirləndirilən şəxsin istintaq təcridxanasından məhkəməyə gətirilməsi qeyri-mümkün olur və faktiki olaraq dərhal azad edilmək hüququ istər-istəməz pozulmuş olur. Düzdür, bu vəziyyət videokonfrans vasitəsilə həyata keçirilə bilər, lakin biz digər arqumentləri daha əsaslı hesab edirik.

Qismən bununla bağlı olan digər məsələ ümumiyyətlə, Cinayət-Prosessual Məcəllədə cinayət prosesinə verilən anlayışdır. Fikrimizcə, bu anlayış da cinayət prosesinin məzmununu tam ifadə etmir. Biz, doktrinal kontekstdə Cinayət-Prosessual Məcəllədə anlayış verilməsindən deyil, sadəcə burada ən azından çəkişmə xarakterli cinayət prosesində cinayət-prosessual fəaliyyət istiqamətlərinin tam ifadə olunmaması qənaətindəyik. Qanunvericilikdə cinayət prosesinə leqal anlayış kimi cinayət təqibi üzrə həyata keçirilən prosessual hərəkətlərin və qəbul edilən prosessual qərarların məcmusu kimi anlayış verilir. (CPM, m. 7.0.3). Lakin məlumdur ki, cinayət prosesində təkcə cinayət təqibi deyil, ondan müdafiə və işin həll edilməsi üzrə də fəaliyyət həyata keçirilir, prosessual hərəkətlər və qərarlar qəbul edilir. Bu mənada cinayət prosesinə - ( CPM-in 7-ci maddəsinin kontekstində) cinayət təqibi, ondan müdafiə və işin həll edilməsi üzrə həyata keçirilən prosessual hərəkətlərin və qəbul edilən qərarların məcmusu kimi anlayış verilməsi, fikrimizcə, məqbul hesab edilməlidir. Bu fikrimiz Cinayət-Prosessual Məcəllənin cinayət-prosessual qanunvericiliyinin təyinatından bəhs edən 1-ci maddəsinin müddəaları ilə də təsdiq edilir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı,2021.
2. Крюков В.Ф. Уголовное преследование и прокуратура // Российская юстиция. – 2007, № 3, с.31.
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası: Ön söz / C.H.Mövsümovun, B.C.Kərimovun və Ə.H.Hüseynovun redaktəsi ilə. Bakı, «Digesta», 2007.
4. Строгович М.С. Курс советского уголовного процесса. М., 1968.
5. Тушев А.А. Прокурор в уголовном процессе РФ. СПб., 2005.
6. Ковтун Н.Н. Сущность и содержание функции уголовного преследования в уголовном

процессе России // Российский судья, 2004, № 6, с.30.
7. Лазарева В.А. Судебная власть и ее реализация в уголовном процессе. Самара, 1999.
8. Будников В.Л. Корпоративность досудебного уголовного производства // Адвокатская практика. М., 2007.
9. Кругликов А.П. Что возбуждать: уголовное дело или уголовное преследование? // Российская юстиция. 2012, № 1, с.58.
10. Ларин А.М. Расследование по уголовному делу. Планирование, организация. М.: Юридическая литература, 1970. 224 с.

**Мидхад Гафаров**
**Хикмат Эйвазов**

## Обсуждения об уголовном преследовании в уголовном процессе Азербайджанской Республики

### Аннотация

В данной статье исследуются некоторые теоретические и практические вопросы уголовного преследования в уголовном процессе. Авторы приходят к такому выводу, что уголовное преследование можно исследовать как уголовно-процессуальную деятельность, как уголовно-процессуальный институт и как уголовно-процессуальную функцию. Однозначно, на основе общепринятой позиции, мотивируется то положение, что уголовное преследование является движущей силой уголовного процесса. На основе анализа законодательства и теории, в связи с понятием уголовного преследования, авторы указывают на формирование двух концепций в узком и широком понятиях (косвенное или прямое или персонализированное или неперсонализированное уголовное преследование) и подчеркивают, что та или иная концепция основывается на законодательстве различных стран. Авторы выдвигают предложения и рекомендации, которые могут служить для обеспечения эффективности уголовного преследования.

**Midhad Qafarov**
**Hikmat Eyvazov**

## Discussions about criminal prosecution in the criminal procedure of the Republic of Azerbaijan

### Annotation

This article is devoted to the research of some theoretical and practical issues of criminal prosecution in criminal procedure. The authors conclude that criminal prosecution can be researched as a criminal procedural activity, as a criminal procedural institution and as a criminal procedural function. Unambiguously, based on the generally accepted position, the point that criminal prosecution is the driving force of the criminal procedure is being justified. Based on the analysis of legislation and theory, in regard of the concept of criminal prosecution, the authors point to the formation of two concepts in narrow and broad terms (indirect or direct or personalized or non-personalized criminal prosecution) and emphasize that these concepts are based on the legislation of different countries. The authors offer suggestions and recommendations that can serve to ensure the effectiveness of criminal prosecution.

**ALLAHVERDİ MAHMUDOV**
**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının "Kriminalistika" kafedrasının rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, dosent**

# CİNAYƏTLƏRİN ARAŞDIRILMASI ZAMANI TƏQSİRLƏNDİRİLƏN ŞƏXSİN DİNDİRİLMƏSİNDƏ İSTİFADƏ OLUNAN PSİXOLOJİ TƏSİR ÜSULLARININ BƏZİ MƏSƏLƏLƏRİ

Dindirmə zamanı müstəntiq cinayət təqibi üçün əhəmiyyət kəsb edən hallar barədə tam, düzgün ifadələr əldə etmək, habelə təqsirləndirilən şəxsin istintaq zamanı tutduğu səhv mövqeyini dəyişdirmək məqsədilə psixoloji təsir üsullarından istifadə edə bilər. Psixoloji təsir üsulları dindirmə taktikasının zəruri elementidir. Lakin dindirmə zamanı yalnız qanunvericiliyin tələblərinə cavab verən, vətəndaşların hüquq və azadlıqlarını pozmayan psixoloji təsir üsulları tətbiq oluna bilər. Məhz bu səbəbdən qanunauyğun psixoloji təsir üsulları ilə psixoloji zorakı üsullar fərqləndirilməlidir. «Psixoloji zorakılıqdan fərqli olaraq, qanunauyğun psixoloji təsir dindirilən şəxsi bu və ya digər hərəkəti etməyə məcbur etmir. Qanunauyğun psixoloji təsirə məruz qalan şəxs öz müstəqilliyini, sərbəstliyini, iradə azadlığını qoruyub saxlayır. [1, s. 163]

Psixoloji təsir üsulları müəyyən prosessual formada, məhdud zaman kəsiyində, dindirilən şəxsin psixi keyfiyyətləri nəzərə alınmaqla tətbiq olunur. [2, s. 85] Müstəntiq bu və ya digər psixoloji üsulu tətbiq edərkən, mütləq təqsirləndirilən şəxsin psixi keyfiyyətlərini nəzərə almalıdır. Psixi keyfiyyətlər içərisində onun temperamenti xüsusilə mühüm rol oynayır. Bir psixoloji təsir etmə üsulu müxtəlif temperamentə malik olan şəxslərdə heç də eyni formada qarşılanmır. Belə ki, sanqvinik və fleqmatikdə kəskin formada tələb, əmr metodu müsbət nəticə verdiyi halda, xolerikdə narazılıq, melanxolikdə isə ruh düşkünlüyü, məyusluq yaradacaqdır. [3, s. 26]

Psixoloji təsir üsullarını tətbiq edərkən, müstəntiq təqsirləndirilən şəxsin psixi keyfiyyətləri ilə yanaşı, dindirmə zamanı onun psixi durumunu, emosional vəziyyətini nəzərə almalıdır. «Dindirilən şəxsin psixoloji durumunun, emosional vəziyyətinin müəyyən edilməsi psixoloji təsir etmənin ilkin zəruri şərtidir». [4, s. 224]

Psixoloji təsir üsulları o halda səmərəli nəticə verəcək ki, təqsirləndirilən şəxs həm psixoloji, həm də emosional cəhətdən buna hazır olsun. Əks halda təqsirləndirilən şəxslə müstəntiq arasında psixoloji və emosional baryer yarana bilər. [5, s. 86] Təqsirləndirilən şəxsdə yaranan psixoloji baryer psixoloji təsir etmə üsullarının səmərəliliyini azaldır, şəxsdə müstəntiqə qarşı apatiya, neqativ hisslər oyadır. Psixoloji baryerin yaranmasına səbəb kimi müstəntiqin haqsız iradlarını, təhqirlərini, düzgün münasibət bəsləməməsini göstərmək olar. Psixoloji baryer zamanı təqsirləndirilən şəxsə bu və ya digər psixoloji metodla təsir etmək, onu inandırmaq qeyri-mümkün olur. Emosional baryer isə istintaq zamanı keçirdiyi ağır təəssüratlar, yaxınlarından, adət etmiş həyat şəraitindən məhrum edilməsi səbəbindən meydana gəlir. Ona görə də müstəntiq psixoloji təsir üsullarını tətbiq etməzdən əvvəl, tərəflər arasında psixoloji və emosional baryeri aradan qaldırmalı, təqsirləndirilən şəxsə etimad, inam, qayğı nümayiş etdirməlidir.

Dindirmə zamanı təqsirləndirilən şəxsə psixoloji təsir müxtəlif elementlərdən ibarət olan mü-

rəkkəb sistemdir. Bu sistemin aşağıdakı tərkib elementləri vardır:

- psixoloji təsir edən individ (müstəntiq);
- təsirə məruz qalan obyekt (təqsirləndirilən şəxs);
- psixoloji təsir zamanı tətbiq olunan vasitələr (maddi sübutlar, ekspert rəyi);
- psixoloji təsir etmə üsulu (inandırma, ifşa və s.).
- psixoloji təsirin nəticəsi və yaxud təsirə məruz qalan şəxsin reaksiyası (təqsirləndirilən şəxs tərəfindən təqsirinin ifşa edilməsi).

V.Y.Konovalova psixoloji təsiri 3 mərhələyə bölmüşdür:

- təqsirləndirilən şəxsin psixi vəziyyətinin diaqnostikası.
- psixoloji təsir etmə üsullarının tətbiqi.
- əldə olunmuş nəticələrin qiymətləndirilməsi. [6 s. 72]

İstənilən psixoloji təsir yalnız ünsiyyət zamanı, eyni zamanda istənilən ünsiyyət psixoloji təsirlə müşayiət olunur. Dindirmə zamanı müstəntiq təqsirləndirilən şəxsə psixoloji təsir göstərməklə bərabər, özü də dindirilən şəxs tərəfindən müəyyən psixoloji təsirə məruz qalır. Belə psixoloji təsir bir qayda olaraq, mənfi xarakter daşıyır. Müstəntiq tərəfindən öz nitqində jarqon ifadələrdən, əxlaqsız sözlərdən istifadə olunması, yalnız təqsirləndirilən şəxsin irəli sürdüyü fərziyyələrin yoxlanılması belə mənfi psixoloji təsirin nəticəsidir. Müstəntiqin psixoloji təsir altına düşməsi yolverilməzdir. Ona görə də müstəntiq dindirmə zamanı özünü mənfi təsirdən müdafiə edən psixoloji metodlardan istifadə etməlidir. Müstəntiq dindirmənin ilk anlarında liderliyi qazanmalı, onun hakimiyyət nümayəndəsi olduğunu nümayiş etdirməlidir. Bunun üçün müstəntiq müəyyən sosial-psixoloji keyfiyyətlərə malik olmalıdır. V.D.Parigin bu keyfiyyətləri öz monoqrafiyasında göstərmişdir: yüksək təşəbbüskarlıq və aktivlik; təşkilatçılıq bacarığı və bu sahədə müəyyən təcrübəyə malik olma; qarşıya qoyulmuş məqsədlərin yerinə yetirilməsində inadkarlıq; məlumatlı olmaq; kommunikativ əlaqələr yaratmaq bacarığı və s. [7, s. 303]

İstintaq təcrübəsində dindirmə zamanı aşağıdakı psixoloji təsir üsulları istifadə olunur:

1. inandırma metodu;
2. ifşa metodu;
3. emosional təsir etmə və ya emosional eksperiment;
4. nümunə metodu;
5. psixoloji assosiasiya metodu.

**1. İnandırma metodu** – bu metoddan istifadə edərək, müstəntiq iş üzrə konkret materiallara, istintaq təcrübəsinə, həyatda olan müsbət nümunələrə əsaslanmaqla, yalan ifadə verən şəxsə onun düzgün mövqe tutmadığını inandırır. [8, s. 122] Bu metod təqsirləndirilən şəxsin müsbət mənəvi keyfiyyətlərinə təsiri nəzərdə tutur. İnandırmaq dedikdə, dəlillərlə, arqumentlərlə bu və ya digər halın olub-olmadığını sübut etməkdir. [9, s. 93] İnandırma prosesində təsirə məruz qalan şəxsin beyninin bütün sahələri aktiv vəziyyətdə olur, ona görə də təqdim olunmuş ideya, fikir dərhal onun yaddaşında həkk olunur. Bu metodun əsas məqsədi yalan ifadə verən təqsirləndirilən şəxsi düzgün mövqe tutmadığına inandırmaq və ondan cinayət təqibi üçün əhəmiyyət kəsb edən hallar barədə obyektiv həqiqəti əks etdirən məlumatlar əldə etməkdir.

İnandırma metodunun müxtəlif növləri vardır. Lakin dindirmə zamanı inandırma metodunun bir qayda olaraq aşağıdakı növlərindən istifadə olunur:

**Məntiqi inandırma** – müəyyən məntiqi ardıcıllıqla faktların təqdim edilməsi və həmin faktlar arasında qarşılıqlı əlaqənin təhlilini nəzərdə tutur.

**Emosional inandırma** – könüllü təqsirini boynuna almaq kimi hisslər oyatmaq, şəxsin müsbət mənəvi keyfiyyətlərinə təsir etmək kimi hərəkətləri nəzərdə tutur. Emosional inandırma məntiqi inandırma metodu ilə yanaşı tətbiq edilməlidir. Belə ki, emosional vəziyyətdə olan şəxsə təqdim olunmuş sübutlar, arqumentlər daha səmərəli təsir edir.

**Diskussion inandırma** – öz mövqeyini müdafiə etmək məqsədilə müstəntiqlə təqsirləndirilən şəxs arasında malik olan sübutların, dəlillərin, arqumentlərin mübadilə sistemi başa düşülür. Diskussion inandırma təqsirləndirilən şəxsin aktiv idrakını nəzərdə tutur. Diskussion inandırma metodu zamanı təqsirləndirilən şəxs özü psixoloji təsirə məruz qalmaqla yanaşı, müstəntiqə malik olduğu sübutlarla, izahatlarla və təkziblərlə psixoloji təsir etmiş olur. Müstəntiq də bu diskussiya, mü-

zakirə zamanı təqsirləndirilən şəxsin malik olduğu sübutlar, dəlillər haqqında müəyyən məlumat əldə etmiş olur. Bununla da müstəntiq təqsirləndirilən şəxsin istintaq zamanı davranışının motivini aydınlaşdırmış olur. Birtərəfli inandırma metodunu diskussion formaya çevirmək üçün müstəntiq təqsirləndirilən şəxsi «müzakirədə» iştirak etməyə məcbur edən sübutlar, dəlillər təqdim etməlidir.

Hər bir psixoloji akt müxtəlif nisbətdə üç növ – əqli, emosional və iradi ünsürü nəzərdə tutur. Real həyatda bu ünsürlər bir-biri ilə sıx əlaqədə və asılılıqda olur və vahid psixi prosesin müxtəlif tərəflərini yaradır. [10, s. 213] Ona görə də müstəntiq inandırma prosesində çalışmalıdır ki, eyni zamanda təqsirləndirilən şəxsin davranışının əqli, emosional, iradəvi ünsürlərinə təsir etsin.

İnandırma prosesində təqsirləndirilən şəxsin əqli fəaliyyətini aktivləşdirmək və lazımi istiqamətə yönəltmək üçün müxtəlif vasitələrdən istifadə oluna bilər. Belə vasitələrə aiddir: təqsirləndirilən şəxs üçün əhəmiyyət kəsb edən müəyyən hadisənin, faktın təhlili; onun keçmiş və indiki davranışına, həyat fəaliyyətinə qiymət vermək; ailə üzvlərinin, iş yoldaşlarının onun hərəkətlərinə münasibəti barədə məlumat vermək və s. İnandırma prosesi zamanı təqsirləndirilən şəxsdə öz davranışına, hərəkətlərinə qarşı kəskin tənqid hissi yaranmalıdır.

İnandırma bir-biri ilə qarşılıqlı əlaqədə olan, ardıcıl mərhələlərdən ibarət olan mürəkkəb bir prosesdir. [11, s. 178] Bu mərhələlər aşağıdakılardır:

- müstəntiq tərəfindən müəyyən dəlillərin, arqumentlərin təqdim olunması;
- həmin dəlilləri təsdiq edən informasiyanın verilməsi;
- təqsirləndirilən şəxsin təqdim olunan dəlillərlə, arqumentlərlə bağlı etirazını bildirməsi;
- təqsirləndirilən şəxsin etirazları, izahatları ilə bağlı müstəntiq tərəfindən yeni sübutların təqdim edilməsi;
- təqsirləndirilən şəxsi tam inandırmaq məqsədilə ayrı-ayrı sübutların təkrar təqdim edilməsi.

İnandırma prosesi zamanı müstəntiq mütləq təqsirləndirilən şəxsin davranışına, hərəkətlərinə (mimikasına, jestlərinə) və onun orqanizmində baş verən psixofizioloji dəyişikliklərə (tərləmə, dərinin ağarması, danışıqda tutulmalar) diqqət yetirməlidir. Bu, müstəntiqə inandırmanı hansı istiqamətdə aparmağa, hansı məsələlərlə bağlı şəxsdə gərginlik yarandığını müəyyən etməyə imkan verir.

İnandırma prosesi zamanı müstəntiq təqdim olunmuş dəlillər, arqumentlər, sübutlarla bağlı təqsirləndirilən şəxsin izahatlarını, etirazlarını aydınlaşdırmalıdır. Təqsirləndirilən şəxs müstəntiqin dəlilləri ilə razılaşa və yaxud onları rədd edə bilər. Əgər təqsirləndirilən şəxs ona təqdim olunan sübutlara skeptik tərzdə yanaşarsa və yaxud onları tamamilə rədd edərsə, müstəntiq bunun səbəbini müəyyən eiməlidir. Daha sonra həmin səbəblər nəzərə alınmaqla, müstəntiq yenidən şəxsi inandırmağa çalışmalıdır.

İnandırma metodunun xüsusi bir növü təqsirləndirilən şəxsə bütün halların məlum olduğunu nümayiş etdirmək məqsədilə baş vermiş cinayət hadisəsinin müstəntiq tərəfindən işdə mövcud olan sübutlar əsasında şifahi reproduksiya etməsidir. Bu metod yalnız o zaman tətbiq oluna bilər ki, müstəntiq hadisəni tam və düzgün bərpa etməyə imkan verən sübutlara malik olsun. Əks halda, təqsirləndirilən şəxs müstəntiqin sərəncamında etibarlı, mötəbər, tutumlu sübutların olmadığını görüb, yalan ifadə verməyə davam edəcəkdir. Bu metodun aşağıdakı məqsədləri vardır:

- təqsirləndirilən şəxsdə assosiativ əlaqələr yaratmaq (əgər təqsirləndirilən bu və ya digər halı unutmuşdursa);
- təqsirləndirilən şəxsə sübut etmə predmetinə daxil olan halların müəyyən olunduğunu nümayiş etdirmək;
- təqsirləndirilən şəxsin müstəntiqin cinayət hadisəsi ilə bağlı reproduksiyasına münasibətini aydınlaşdırmaq.

İnandırma prosesi zamanı induksiya və deduksiya metodları da istifadə oluna bilər. Belə ki, deduktiv inandırma zamanı təqsirləndirilən şəxs əvvəl öz davranışının, həyat tərzinin yanlış olduğunu dərk edir. Daha sonra isə konkret davranışının – cinayət təqibi üçün əsas olmuş əməlinin səhv olduğunu başa düşür və düzgün ifadələr verməyə başlayır. İnduktiv inandırma zamanı təqsirləndirilən şəxs əvvəlcə cinayət təqibi üçün əsas olmuş

davranışın düzgün olmadığını anlayır, sonra isə ümumiyyətlə həyat tərzinin, fəaliyyətinin səhv olduğunu dərk edir.

İnandırma yalnız o zaman tətbiq edilə bilər ki, təqsirləndirilən şəxsin müstəntiqlə ünsiyyətdə olmaq, onun dəlillərini, arqumentlərini qəbul etmək istəyi olsun. Ona görə də təqsirləndirilən şəxslə psixoloji əlaqənin yaradılması inandırma metodunun tətbiqinin ilkin zəruri şərtidir.

İnandırma müəyyən tələblərə cavab verməlidir:

- təqsirləndirilən şəxsin yaşına, peşəsinə, təhsilinə, intellektual səviyyəsinə və digər fərdi psixi keyfiyyətlərinə uyğun olmalıdır;
- ardıcıl, məntiqi və müəyyən sübutlara əsaslanmalıdır;
- təqsirləndirilən şəxsdə psixoloji aktivlik oyatmalıdır;
- tərəflərə məlum olan faktların təhlilini əks etdirməlidir;
- müstəntiqin şəxsi psixi keyfiyyətləri nəzərə alınmalıdır.

Müstəntiq inandırmağa çalışdığı hallara, faktlara özü inanmalıdır. Müstəntiq inandırma prosesində tərəddüd və inamsızlıq nümayiş etdirməməlidir. Əgər müstəntiq öz hərəkətlərində, davranışında tərəddüd edərsə, qərarsızlıq nümayiş etdirərsə, təqsirləndirilən şəxs bunu dərhal hiss edəcək və müstəntiqə olan inamını itirəcəkdir. Bildiyimiz kimi, inam da psixoloji əlaqənin əsasını təşkil edir. Psixoloji əlaqə yaratmadan da inandırma metodu tətbiq edilə bilməz.

Beləliklə də, inandırma metodu hər bir halda təqsirləndirilən şəxsin psixi keyfiyyətləri nəzərə alınmaqla tətbiq edilməlidir.

**2. İfşa etmə metodu**. Təqsirləndirilən şəxsə ifadələrində olan ziddiyyətləri aşkar etməklə, işdə olan sübutları təqdim etməklə, habelə ifşaedici xarakter daşıyan suallar verməklə həyata keçirilir. Bu psixoloji metodun mahiyyəti təqsirləndirilən şəxsin psixikasına aktiv təsir etməklə, onun ifadələrinin, izahatlarının obyektiv həqiqətə uyğun olmadığını nümayiş etdirməkdir.

İfşa etmə metodunun əsas növlərindən biri sübutların təqdim edilməsidir. Məhkəmənin və ya cinayət prosesi tərəflərinin əldə etdikləri mötəbər dəlillər cinayət təqibi üzrə sübutlar hesab olunur. Sübutlar özündə hadisənin cinayət hadisəsi olub-olmamasını, törədilmiş əməldə cinayət əlamətlərinin olub-olmamasını, bu əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini, onun təqsirli olub-olmamasını, habelə ittihamın düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən halları əks etdirir. Cinayət prosesində aşağıdakılar sübut kimi qəbul olunur:

- şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxs və şahid ifadələri;
- ekspert rəyi;
- maddi sübutlar;
- istintaq və məhkəmə hərəkətləri protokolları;
- digər sənədlər (AR CPM, 124-cü maddə).

Dindirmə zamanı təqsirləndirilən şəxsə yalnız hərtərəfli yoxlanılmış və mötəbərliyi şübhə doğurmayan sübutlar təqdim edilməlidir. Həmçinin müstəntiq sübutları taktiki cəhətdən düzgün təqdim etməyə çalışmalıdır. Yalnız taktiki cəhətdən düzgün təqdim edilmiş sübutlar təqsirləndirilən şəxsin ifşa olunmasına imkan verir. Düzgün təqdim olunmuş sübut cinayət təqibi üçün əhəmiyyət kəsb edən hallar barədə ətraflı məlumatlar əldə etməyə, habelə yalan ifadə verən şəxsi tutduğu mövqeyindən imtina etməyə məcbur edir. [12, s. 87]

Sübutlar təqsirləndirilən şəxsə aşağıdakı üç formada təqdim olunur:

- ifşaedici təsirin artan istiqamət üzrə sübutların təqdim edilməsi.
- dindirmənin ilkin mərhələsində ən kəsərli sübutun təqdim edilməsi.
- birdəfəyə bütün sübutların təqdim edilməsi. [13, s. 145]

Lakin, bir qayda olaraq, sübutların ifşaedici təsirin artan istiqamət üzrə təqdim edilməsi daha məqsədəmüvafiqdir. Belə ki, sübutların ən kəsərlisi və yaxud hamısı təqsirləndirilən şəxsə tam məlum olduqda, o, öz ifadələrinin sonrakı istiqamətini özü üçün əlverişli şəkildə tənzim edə bilər. Bu da çox zaman təqsirləndirilən şəxsin ifşa edilməsini çətinləşdirir. [14, s. 135]

Dindirmə zamanı təqsirləndirilən şəxsə sübutların təqdim edilməsinin müəyyən şərtləri vardır:

- sübutlar toplusu bir-biri ilə qarşılıqlı əlaqədə olmalıdır;
- müəyyən edilmiş faktları qəti rədd etməyə meylli olan şəxslərə qarşı tətbiq edilməlidir;

- təqsirləndirilən şəxs sübutların təkzib edilməzliyini dərk etdikdə;

- dayanıqlı yalan ifadə verməyi bacarmayan şəxslərə qarşı tətbiq edilməlidir.

- toplanmış sübutlar təqsirləndirilən şəxsin gizlətdiyi halları şübhəsiz müəyyən etməlidir. [15, s. 135]

Təqsirləndirilən şəxsin ifşa edilməsində maddi sübutlar xüsusilə mühüm rol oynayır. Öz xüsusiyyətinə və əlamətlərinə, mənşəyinə, aşkar edildiyi yerə və vaxtına və ya üzərində hadisənin izlərinin saxlandığına görə cinayət təqibi üçün halların müəyyən edilməsinə kömək edən hər bir əşya maddi sübut hesab edilə bilər (AR CPM-i, 128-ci maddə). Dindirmə zamanı təqdim olunmuş maddi sübutlar dindirilən şəxsə bu və ya digər halın yada salınmasına – assosiativ əlaqələrin yaradılmasına, habelə yalan ifadə verən şəxsin ifşa edilməsinə xidmət edir. [16, s. 132]

İstintaq təcrübəsi göstərir ki, bəzən təqsirləndirilən şəxslər dindirmə zamanı təqdim olunmuş sübutları, xüsusilə də maddi sübutları, sənədləri məhv etməyə və zədələməyə cəhd edirlər. Ona görə də müstəntiq belə halların baş verməməsi üçün müəyyən təhlükəsizlik tədbirləri həyata keçirməlidir. Maddi sübutlar təqsirləndirilən şəxsə əlçatmaz məsafədə göstərilməli və ya şəxsin əlləri qandallı olmalıdır. Sənədləri nümayiş etdirmək zərurəti meydana gələrsə, onun əsli yox, surəti təqdim edilməlidir.

İfşa etmə metodunun digər növü təqsirləndirilən şəxsin ifadələrinin təhlilidir. Müstəntiq dindirilən şəxsin ifadələrini təhlil etməklə, oradakı ziddiyyətləri, uyğunsuzluqları və s. açıq-aydın göstərdikdə, həmin şəxs yalan danışmanın mənasızlığını anlayır və artıq öz mövqeyini dəyişdirməli olur. Müstəntiq təqsirləndirilən şəxsin ifadəsində daxili ziddiyyətləri aşkar etməklə, onun eyni fakta dair verdiyi məlumatların birinin və ya hamısının yalan olduğunu göstərmiş olur. Odur ki, müstəntiq dindirilən şəxsə ziddiyyətləri əyani olaraq göstərməli və onun səbəbinin düzgün izahını tələb etməlidir. Nəticədə dindirilən şəxs bu ziddiyyətləri heç nə ilə izah edə bilmir və yalan danışmağın nəticəsiz olduğunu görərək, əsil həqiqəti açıb danışır.

Əgər təqsirləndirilən şəxsin ifadələri işdə iştirak edən digər şəxslərin ifadələri ilə tamamilə eyni olarsa, müstəntiq bunun səbəbini aydınlaşdırmağa çalışmalıdır. Bəzən belə hallar dindirilən şəxslərin yalan ifadə vermək barədə qabaqcadan sövdələşməsi nəticəsində ortaya çıxır. Ona görə də müstəntiq ifadələri eyni olan şəxslərin münasibətlərini, işin nəticəsi ilə maraqlı olmalarını və s. nəzərə almalıdır.

Bildiyimiz kimi, təqsirləndirilən şəxsin dindirilməsi müstəntiqin ona elan edilmiş ittiham üzrə və özünün mülahizəsinə görə cinayət işi üçün əhəmiyyətli olan digər hallar üzrə ifadə vermək təklifi ilə başlanır. Təqsirləndirilən şəxs cinayət təqibi üçün əhəmiyyət kəsb edən hallar barədə sərbəst danışıq formasında ifadə verdikdə, müstəntiq ona sual verə bilər. Dindirmə zamanı təqsirləndirilən şəxsə sual vermək müstəntiqin vəzifəsi deyil, hüququdur. Əgər təqsirləndirilən şəxsin ifadələri natamam, qeyri-müəyyən olarsa və ya işin halları ilə ziddiyyət təşkil edərsə, müstəntiq şəxsə suallar verməlidir.

Cinayət təqibi üçün əhəmiyyətli olan hallarla bağlı qabaqcadan işlənib hazırlanmış, düzgün, ardıcıl və vaxtında verilmiş sual yalan ifadə verən təqsirləndirilən şəxsi ifşa etməyə imkan verir. Sual dedikdə, cavab, izah tələb edən fikir, mülahizə başa düşülür. Hər bir sual iki hissədən (elementdən) ibarətdir:

- məlum olan fakt (məsələn, «siz hadisə yerindən nə ilə uzaqlaşdınız?» sualında şəxsin hadisə yerində olması məlum olan faktdır).

- müəyyən edilməli olan fakt (şəxsin hadisə yerindən nə ilə uzaqlaşdığı). Sualın birinci hissəsi əsaslandırıcı, ikinci hissəsi isə soruşulan hissədir. Sualın birinci elementi özündə müəyyən informasiyanı əks etdirir, ikinci elementi isə informasiyanın əldə olunmasına yönəlir. Beləliklə də, müstəntiq sual vasitəsilə cinayət təqibi üçün əhəmiyyət kəsb edən hallar barədə məlumat əldə etməklə yanaşı, dindirilən şəxsə müəyyən məlumatlar vermiş olur.

Bildiyimiz kimi, təqsirləndirilən şəxs cinayət prosesinin digər iştirakçılarından fərqli olaraq cinayət haqqında daha çox məlumata malik olur. Bu da ilk növbədə onun cinayətin bilavasitə iştirakçısı olduğundan irəli gəlir. Təqsirləndirilən şəxsə verilən suallara əsasən, müstəntiq onun iş üzrə hallardan nə dərəcədə xəbərdar olduğunu

asanlıqla müəyyənləşdirir və öz ifadələrini «əlverişli istiqamətə» yönəldir. Ona görə də müstəntiq sualları elə qoymalıdır ki, təqsirləndirilən şəxs suallardan mümkün qədər az məlumat əldə edə bilsin.

Sualların öz təyinatına görə aşağıdakı növləri fərqləndirilir:

- əsas – dindirmənin predmetinə aid hallara dair verilən suallar;
- əlavəedici – ifadələrdə olan «boşluqların» aradan qaldırılması üçün verilən suallar;
- dəqiqləşdirici – ifadələrində olan qeyri-müəyyənliyi aradan qaldırmaq üçün verilən suallar;
- yoxlama – şəxsin dindirmə zamanı bu və ya digər hal barədə verdiyi məlumatın yoxlanılması üçün verilən suallar;
- ifşaedici – dindirilən şəxsi ifşa etmək, yalan ifadə vermənin əhəmiyyətsiz olduğunu nümayiş etdirmək məqsədilə verilən suallar.

Dindirmə zamanı suallar təqsirləndirilən şəxsə müəyyən məntiqli ardıcıllıqla verilməlidir. Bir qayda olaraq suallar dindirilən şəxsə aşağıdakı ardıcıllıqla verilir:

- suallar ümumi hallardan xüsusi halların müəyyən edilməsi istiqamətində verilə bilər. Belə ardıcıllıqla sualların verilməsinin əsasını deduksiya metodu təşkil edir. Belə qaydada verilən suallar zamanı təqsirləndirilən şəxs müstəntiqin hansı məlumatlara malik olduğunu müəyyən etmək imkanından məhrum olur.
- təqsirləndirilən şəxsə suallar xronoloji ardıcıllıqla verilə bilər. Belə ardıcıllıqla verilən suallar müstəntiqə cinayət hadisəsinin xronologiyasını bərpa etməyə kömək edir. Təqsirləndirilən şəxsin cinayət hadisəsindən əvvəl, hadisə zamanı və hadisədən sonrakı fəaliyyətini izləmək üçün suallar xronoloji ardıcıllıqla verilməlidir.
- müstəntiq dindirmə zamanı təqsirləndirilən şəxsə gözlənilməz suallar verə bilər. Müstəntiq dindirilən şəxsə belə suallar verməklə, onu «tərksilah» etmiş olur. Bu zaman təqsirləndirilən şəxs müstəntiqin onu ifşaedici hallar barədə məlumatlardan xəbərdar olduğunu anlayır və yalan ifadə verməyin mənasız olduğunu başa düşüb, öz mövqeyini dəyişdirməli olur.

Dindirmə zamanı təqsirləndirilən şəxsə verilən suallar müəyyən tələblərə cavab verməlidir:

- suallar düzgün və qanunauyğun olmalıdır. Sualların qanunauyğunluğu onun əsaslandırıcı hissəsini təşkil edən məlumatların, faktların həqiqiliyi ilə müəyyən edilir. Əgər hər hansı bir fakt sübut edilməmişdirsə, o faktla bağlı verilən sual qanunauyğun olmayan hesab ediləcəkdir. Məsələn, əgər oğurluq faktı təsdiq olunmayıbsa, oğurlanan əmlakın gizlədilməsi ilə bağlı sual verilə bilməz.
- suallar neytral olmalı, yəni yönəldici xarakter daşımamalıdır. Yönəldici sual dedikdə, arzu olunan cavabın alınması məqsədilə veriləcək cavabın məzmununun müəyyən hissəsini özündə əks etdirən sual başa düşülür. Dindirmə zamanı təqsirləndirilən şəxsə yönəldici sualların verilməsi qadağandır. Düzdür, bu barədə cinayət-prosessual qanunvericiliyində göstəriş yoxdur. Lakin, həm hüquqşünas alimlər, həm də təcrübi işçilər birmənalı qəbul etmişlər ki, məhkəmə və istintaq təcrübəsində yönəldici suallar verilməsi yolverilməzdir. Lakin, Rusiya Federasiyasının Cinayət-Prosessual Məcəlləsində dindirmə zamanı yönəldici sualların qadağan olunduğu birbaşa göstərilmişdir.
- suallar dəqiq, aydın konkret və qısa olmalıdır.
- suallar təqsirləndirilən şəxsi təhqir etməməli və alçaltmamalıdır.
- suallar elə formalaşdırılmalıdır ki, ona birmənalı cavab almaq mümkün olsun.

Təcrübədə bəzən elə hallara rast gəlinir ki, müstəntiqin səylərinə (təkzibedilməz sübutların təqdim edilməsi, ifşaedici sualların verilməsi, habelə ifadələrdəki ziddiyyətlərin aşkar olunmasına) baxmayaraq, yalan ifadə verməyə davam edir və ya ifadə verməkdən imtina edir. Belə olan halda müstəntiq ruhdan düşməməli, təqsirləndirilən şəxsin ifşa edilməsi üçün daha inadkar olmalıdır.

**3. Nümunə metodu**. Bu metod müstəntiqin öz şəxsi nümunəsində və yaxud digər şəxslərin müsbət davranışları, hərəkətləri barədə məlumat verməklə, təqsirləndirilən şəxsə psixoloji təsir etməni nəzərdə tutur. Bu, şəxslə müstəntiqin ilk tanışlığından başlanılır. Ona görə də müstəntiq xarici görüşününə diqqət etməli, səliqəli olmalı, bir sözlə, öz simasında hakimiyyət nümayəndəsini təcəssüm etdirməlidir. Müstəntiq öz nitqində jarqon ifadələrdən, təhqiredici sözlərdən istifadə etmə-

məli, dindirmə zamanı emosional cəhətdən stabil, təmkinli olmalıdır. Əgər müstəntiq dindirmənin gedişatında əsəbilik nümayiş etdirərsə, bu hal təqsirləndirilən şəxsdə də müşahidə olunacaqdır. Beləliklə də, müstəntiq öz düzgün davranışı ilə təqsirləndirilən şəxsə təsir etmiş olacaqdır.

Bu metod həmçinin təqsirləndirilən şəxsə digər şəxslərin müsbət davranışları, hərəkətləri barədə məlumat verməklə həyata keçirilə bilər. Bu zaman müstəntiq çalışmalıdır ki, həmin nümunələr real və dindirmənin mahiyyətinə uyğun olsun, həmçinin nümunə gətirdiyi şəxsləri təqsirləndirilən şəxs tanısın. Nümunə metodu təqsirləndirilən şəxsdə ifadə verməyə maraq oyadır. Bu metodu həyata keçirmək üçün müstəntiq pedaqogika sahəsində müəyyən biliklərə malik olmalıdır.

**4. Emosional təsir etmə metodu**. Bu metodun mahiyyəti ondan ibarətdir ki, müstəntiq təqsirləndirilən şəxsin emosional vəziyyətinin dəyişilməsinə səbəb ola biləcək məlumat verməklə şərait yaradır və bununla, onun cinayət təqibi üçün əhəmiyyət kəsb edən hallardan xəbərdar olub-olmamasını müəyyən etmiş olur. Bu metod ədəbiyyatda emosional eksperiment kimi qeyd olunur. Təqsirləndirilən şəxsin təqdim edilmiş məlumatlara, yaradılmış şəraitə emosional reaksiyası, münasibəti, özlüyündə müstəqil sübut kimi əhəmiyyət kəsb etməsə də, dindirmənin istiqamətini müəyyən etməyə, şəxsi düzgün ifadə verməyə inandırmağa kömək edir.

Psixikanın emosional təzahürlərinin qeyd olunan daha sadə formalarından biri emosiyadır (latın dilindən hərfi tərcüməsi «emoveo» - həyəcanlandırmaq). Emosiya – insanın qısamüddətli həyəcanlanması şəklində ətraf mühitin psixi əksi olub, baş verən hadisələrə onun subyektiv münasibətini ifadə edir. Bütün hərəkətlərdə olduğu kimi, cinayətkar hərəkətlərdə də insan psixikası, onun intellektual, emosional, iradi sferasının xüsusiyyətlərindən ayrılıqda götürülə bilməz. Əməliyyat işçilərinə, müstəntiqlərə, təhqiqatçılara yaxşı məlumdur ki, edilmiş cinayətlərə dair ayrı-ayrı hallar təqsirkar şəxsin uzun müddət yaddaşında qalır. Ona görə də onun keçirdiyi emosional vəziyyətləri yaddaşında bərpa etmək mümkündür. Bu zaman qıcıqlandırıcı sözlər, cinayətlə əlaqəsi olan obyektlərin təqdim edilməsi və yaxud onların əkslərinin nümayiş etdirilməsi kimi üsullardan istifadə etmək olar. Şüurun nəzarətindən kənara çıxan emosiyalar insanın hərəkətlərinə, onun əhvalına, şüuruna güclü təsir göstərir. Belə hallarda cinayətlə əlaqəsi olmayan şəxsdə həmin qıcıqlandırıcılar heç bir psixofizioloji reaksiya yaratmırlar. Burada belə bir mühüm cəhəti nəzərə almaq lazımdır ki, cinayət edən şəxs təkcə cinayətdə iştirakını deyil, həmçinin onunla əlaqədar keçirdiyi həyəcan hisslərini də gizlətməyə çalışır. Cinayət hadisəsi ilə düzünə və ya dolayı yolla əlaqədar olan və güclü emosional hisslərin yaranmasına səbəb olan halların obrazı yaddaşda əsaslı kompleks kimi həkk olunur. Süni surətdə bu elementlərdən təkcə birinin fəallaşdırılması, hətta bu subyektin ifadəsinin əksinə olsa belə, mexaniki olaraq, həmin kompleksin qalan bütün elementlərinin də şüurda canlanmasına səbəb olur. Beləliklə, insanın emosional və psixofizioloji sferaları onun bütün fəaliyyəti ilə qarşılıqlı surətdə sıx əlaqədardır ki, bu eyni zamanda cinayət hərəkətlərinə də aiddir. Bu qanunauyğunluq emosional eksperimentin əsasını təşkil edir.

Müstəntiq emosional eksperiment metodu tətbiq etməzdən əvvəl, təqsirləndirilən şəxsin psixi keyfiyyətlərini, müdafiə xəttini, irəli sürə biləcək etirazları təhlil etməlidir.

Emosional eksperiment zamanı təqdim edilən məlumat, habelə yaradılan şərait müəyyən tələblərə cavab verməlidir. İlk növbədə belə məlumatlar, yaradılan şərait təqsirləndirilən şəxsin şərəf və ləyaqətini alçaltmamalıdır. İkincisi, belə məlumatlar yalnız təqsirləndirilən şəxsdə emosional gərginliyin yaranmasına yönəlməlidir. Başqa sözlə, belə məlumatlar, şərait cinayətlə əlaqəsi olmayan digər şəxslər üçün neytral xarakter daşımalıdır. Ona görə də, emosional eksperiment zamanı meyit şəkilləri və digər istənilən şəxsdə müəyyən emosiyalar yaradan məlumatlar təqdim edilməsi yolverilməzdir.

Emosional eksperimentin tətbiqi zamanı müstəntiq bir sıra qaydalara əməl etməlidir:

- bu metodu tətbiq etməzdən əvvəl, digər psixoloji təsir etmə metodlarından istifadə etmək lazımdır. Emosional eksperiment təcrid edilmiş şəkildə deyil, digər psixoloji təsir metodları ilə paralel tətbiq edildikdə, səmərəli nəticə verəcəkdir.

Digər psixoloji təsir metodları təqsirləndirilən şəxsin emosional dəyişməsinə zəmin yaradır.

- təqdim ediləcək məlumat, yaradılmış şərait təqsirləndirilən şəxs üçün gözlənilməz olmalıdır. Məlumatların gözlənilmədən, qəflətən verilməsi emosional eksperimentin zəruri şərtidir.

- müstəntiq informasiyanı təqdim edərkən, izah, şərh verməməlidir. Məhz bu xüsusiyyət emosional eksperiment metodunun sübutların təqdim olunması ilə ifşa etmə metodundan fərqləndirir. Müstəntiqin izahları, kommentariyaları təqdim olunmuş məlumatın təsir gücünü azalda bilər.

Emosional eksperiment nəticəsində təqsirləndirilən şəxsdə aşağıdakı dəyişikliklər müşahidə edilir:

- hərəkətlərində müşahidə olunan dəyişikliklər (mimika, jestlər).

- vegetativ sinir sistemində baş verən dəyişikliklər (tərləmə, dərinin ağarması və ya qızarması).

- psixi vəziyyətdə kəskin dəyişikliklər (məyusluq, pərişanlıq, ruh düşkünlüyü).

- təqsirləndirilən şəxs tərəfindən təqdim olunmuş məlumatla, yaradılmış şəraitlə bağlı az şərhlər, izahatlar verməsi.

Əgər birinci iki emosional eksperiment halı təqsirləndirilən şəxsdə emosional gərginlik yaratdığını göstərirsə, digərləri şəxsin daxili aləmində, əqli fəaliyyətində dərin dəyişikliklərin baş verdiyinə dəlalət edir.

Emosional eksperimentin əsas xüsusiyyəti onun nəticələrinin həm müstəntiq, həm də təqsirləndirilən şəxs üçün mühüm əhəmiyyət kəsb etməsidir. Müstəntiq təqsirləndirilən şəxsin reaksiyasını, davranışını müşahidə etməklə, dindirilən şəxsin cinayətin iştirakçısı olduğunu təsdiq edir və dindirmənin gələcək istiqamətini müəyyənləşdirir. Təqsirləndirilən şəxs isə dindirmə zamanı özünün qeyri-iradi reaksiyaları ilə cinayətin iştirakçısı olduğunu nümayiş etdirdiyini anlayır və yalan ifadə verməyin, tutduğu yanlış mövqenin əhəmiyyətsiz olduğunu başa düşür. Məhz buna görə də, istintaq eksperimentindən dərhal sonra müstəntiq məntiqi inandırma metodunu tətbiq etməlidir.

**İstifadə olunan ədəbiyyat:**


1. Ратинов А.Р. Судебная психология для следователей. М., 1967, стр. 163
2. Порубов Н.И. Допрос в советском уголовном судопроизводстве. Минск, 1973. стр. 85
3. Петровский А.В. От поступка к характеру. М., 1963, стр. 26
4. Дулов А.В. Судебная психология. Минск, 1973. стр. 224
5. Порубов Н.И. Допрос в советском уголовном судопроизводстве. Минск, 1973. стр. 86
6. Коновалова В.Е. О психологическом воздействии при рассмотрении преступлений. Сб.: «Вопросы судебной экспертизы». М., 1971. стр. 72
7. Парыгин Б.Д. Основы социальной психологической теории. М., 1971. стр. 303
8. Sarıcalinskaya K.Q. və b. İstintaq taktikası. Bakı, 1991, s. 122
9. Порубов Н.И. Допрос в советском уголовном судопроизводстве. Минск, 1973. стр. 93
10. 10.Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı, 2002, s. 213
11. Дулов А.В. Судебная психология. Минск, 1970. стр. 178
12. Порубов Н.И. Допрос в советском уголовном судопроизводстве.
13. Минск, 1973. стр. 87
14. Mahmudov A.M., Əliyev B.Ə. «Kriminalistika» (sxemlər albomu).
15. Tədris-metodik vəsait. Bakı, 2013. s. 145
16. Sarıcalinskaya K.Q. və b. İstintaq taktikası. Bakı, 1991, s. 135
17. Селиванов Н.А. Вещественные доказательства. М., 1971, стр. 132

**Аллахверди Махмудов**

**Способы психологического воздействия при допросе на обвиняемого**

**Резюме**

Допрос является универсальным следственным действием. Один из его видов является допрос обвиняемого. В данной статье рассматривается вопросы о допустимости психологиического воздействия при допросе на обвиняемого, а также о пределах и формах такого воздействия.

**Allahverdi Mahmudov**

**Methods of psychological influence on the accused during interrogation**

**Summary**

Interrogation is a universal investigative act. One of its types is the interrogation of the accused. This article examines the issues of the admissibility of psychological influence during interrogation on the accused, as well as the limits and forms of such influence.

**RƏŞAD MƏMMƏDOV**
**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi**
**Polis Akademiyasının "Mülki hüquq" kafedrasının dosenti,**
**polis polkovniki, h.ü.f.d., dosent**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN POLİS AKADEMİYASINDA KURSANTLARIN ELMİ-TƏDQİQAT VƏ YARADICILIQ FƏALİYYƏTİ – HÜQUQ-MÜHAFİZƏ ORQANLARI ÜÇÜN PEŞƏKAR KADRLAR HAZIRLIĞININ ELEMENTİ KİMİ

Polis Akademiyasının Nizamnaməsinə müvafiq olaraq, "Akademiyanın fəaliyyətinin əsas məqsədi Daxili İşlər Nazirliyi üçün ali hüquq təhsilli kadrlar hazırlamaqdır...". Bu məqsədə çatmaqdan ötrü Polis Akademiyasının qarşısında duran əsas vəzifə - müstəqil təhlil etməyi, ekstremal şəraitdə dərhal və təxirəsalınmaz qərarlar qəbul etməyi, öz kollektivi və digər insanlarla qarşılıqlı ünsiyyət qurmağı, psixoloji cəhətdən dayanaqlı olmağı, müxtəlif xidməti və həyati şəraitdə fəal olmağı, innovativ və müstəqil düşünməyi bacaran və intellektual təfəkkürə malik peşəkar mütəxəssislərin hazırlanmasıdır. Peşəkar mütəxəssislərin hazırlanmasına imkan verən (şərait yaradan) əsas istiqamətlərdən biri də kursantların elmi-tədqiqat fəaliyyətidir. Məhz kursantların elmi-tədqiqat işində iştirak etməsi onların innovativ düşüncə tərzini inkişaf etdirilməsini şərtləndirir. Digər tərəfdən isə kursantların elmi yaradıcılıqda geniş və səmərəli iştirakı – ali təhsil müəssisəsinin fəaliyyətinin əsas göstəricilərindən biri hesab olunur. Hələ zamanında K.D. Uşinskiy şüurlu öyrənmə prosesində elmi marağı önə çəkirdi.[1]

Peşəkar polis əməkdaşlarının hazırlığında kursantlar təkcə mənimsənilməsi zəruri hesab olunan fundamental və xüsusi biliklərə deyil, həm də praktik məsələlərin yaradıcı həlli, habelə təcrübədə və elmdə meydana gələn bütün yenilikləri öz işində istifadə etmək bacarıqlarına yiyələnməlidirlər. Sadalanan bütün bu keyfiyyətlər kursantlarda elmi-tədqiqat işində iştirak etməklə, habelə təlimin müxtəlif formalarından, müəllimlər tərəfindən interaktiv təlim metodlarından istifadə edilməklə formalaşdırıla bilər. Qeyd etməliyik ki, kursantların elmi-tədqiqat və yaradıcılıq işi tədris prosesinin məcburi tərkib hissəsidir.

Polis Akademiyasında təhsil alan kursantların elmi-tədqiqat fəaliyyətinə marağının müəyyən edilməsi məqsədilə 2-ci, 3-cü və 4-cü kurslarda təhsil alan kursantların arasında sosioloji sorğu aparılmışdır. Sorğunda iştirak edən respondentlərin 72%-i elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmaq istəyini bildirmişdir.

Göründüyü kimi, əldə olunan nəticələr Polis Akademiyasında təhsil alan kursantların elmi-tədqiqat fəaliyyətinə marağın yüksək inkişaf dinamikasını təsdiq edir. Xüsusilə vurğulanmalıdır ki, elmi-tədqiqat fəaliyyətində kursantların pedaqoji dəstəyə böyük ehtiyacı var. Müəllimlərin pedaqoji dəstəyi olmadan kursantın elmi-tədqiqat fəaliyyətini həyata keçirməsi də mümkün deyildir. Bu

[1] Ушинский К. Д. Собрание сочинений: в 11 т. Т. 2. М.-Л.: Изд-во академии педагогических наук РСФСР. 1948. с. 500

baxımdan hesab edirik ki, kursantların elmi-tədqiqat fəaliyyətində müəllimin vəzifələrinə onların həm müstəqil düşüncə tərzinin, həm də yaradıcı fəaliyyətin metod və üsullarının aşılanmasına, davamlı olaraq kursantların elmi-tədqiqat fəaliyyətində fikir mübadiləsinin aparılmasına, diskusiyanın, tənqidi yanaşmanın və sərbəst şəkildə fikirlərin ifadə olunmasının təmin edilməsinə şərait yaratmaqdan ibarətdir.

Polis Akademiyasında kursantların elmi yaradıcılığa marağı formalaşdırılmış və bu gün də inkişaf etdirilir. Hər bir kursant öz təhsilini hüquq elminin aktual problemləri və onun ayrı-ayrı sahələrinin dərindən mənimsənilməsi ilə kursantların elmi birliyi çərçivəsində tamamlaya bilər. **Məhz** bu baxımdan, kursantların elmi-tədqiqat fəaliyyəti ilə fəal məşğul olmasını təmin etmək məqsədi ilə Polis Akademiyasında Kursant Elmi Cəmiyyəti fəaliyyət göstərir.

Bu kimi faktorların təsirini nəzərə alaraq Polis Akademiyasının kafedralarının nəzdində kursantların müstəqil elmi tədqiqat fəaliyyətinə hazırlığının əsas istiqamətlərindən biri olan elmi dərnəklərin fəaliyyəti təşkil edilmişdir. Bu dərnəklərin işi tədris prosesini tamamlayan elmi-tədqiqat forması çərçivəsində aparılır. Kursantların elmi dərnəklərin fəaliyyətində iştirakı onların biliklərinin genişlənməsi və dərinləşməsi, idrak qabiliyyətinin və elmi yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi, peşə vərdişlərinin formalaşdırılması məqsədini daşıyır. Hal-hazırda Polis Akademiyasında

1. Dövlət və hüquq nəzəriyyəsi kafedrası üzrə - “Gənc hüquqşünas” elmi dərnəyi;
2. Cinayət prosesi kafedrası üzrə - “Gənc müstəntiq” elmi dərnəyi;
3. Kriminalistika kafedrası üzrə - “İnspektor-kriminalist” elmi dərnəyi;
4. DİO-da ƏAF kafedrası üzrə - “Gənc əməliyyat müvəkkili” elmi dərnəyi;
5. DİO-nun inzibati fəaliyyəti kafedrası üzrə - “Gənc polis sahə inspektoru” elmi dərnəyi;
6. Cinayət hüququ kafedrasının elmi dərnəyi;
7. Mülki hüquq kafedrası üzrə - “Femida” elmi dərnəyi;
8. İctimai elmlər kafedrası üzrə - “Vətənpərvər kursant” elmi dərnəyi fəaliyyət göstərir.

Kursantların elmi-tədqiqat fəaliyyətinin prioritet istiqamətlərindən biri də elmi-praktik konfranslarında iştirak edərək elmi məruzələrlə çıxışlar etmək, elmi-tədqiqatın nəticələrinin məcmuələrdə nəşr olunmasıdır. Çünki, təşkil olunan və keçirilən elmi-praktiki konfranslar, seminarlar və dəyirmi masalar kursantların elmi işə başlamasına, həmfikir olanları tapmağa, onlarla fikir mübadiləsi, məsləhətləşmələr aparmağa, habelə apardıqları elmi tədqiqatın nəticələrini bölüşməyə imkan verir.

Nəzərinizə çatdırmaq istərdim ki, Kursant Elmi Cəmiyyətinin üzvləri həm ölkəmizin, həm də xarici ölkələrin, xüsusilə də Rusiya Federasiyasının, Qazaxıstan Respublikasının, Belarusiya Respublikasının, Ukraynanın ali təhsil müəssisələrində keçirilən elmi-praktiki konfranslarda mütəmadi olaraq fəal şəkildə məruzələrlə, məqalələrlə və tezislərlə iştirak etmiş, müxtəlif nominasiyalar üzrə diplom və sertifikatlarla təltif olunmuşlar. Həmçinin, Polis Akademiyasının bazasında Kursant Elmi Cəmiyyətinin təşkilatçılığı ilə elmi-praktik əhəmiyyətə malik olan hüquq elminin müxtəlif sahələri üzrə təhsilalanların elmi-praktik konfransları, elmi seminarlar və dəyirmi masalar keçirilir.

Beləliklə, kursantların elmi-tədqiqat fəaliyyəti müasir dövrün tələblərinə yönəlmiş, təşəbbüskar, tənqidi yanaşmağı və innovativ metodlardan istifadə etməyi bacaran yüksək ixtisaslı mütəxəssis hazırlığı sisteminin zəruri tərkib hissəsidir. Belə ki, təşəbbüskar, müasir dünyagörüşünə malik olan bu günün tələbəsi gələcəkdə ölkənin elminə özünün layiqli töhfəsini verən mütəxəssisdir.

**CEYHUN SÜLEYMANOV**
**Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Dövlət və hüquq nəzəriyyəsi kafedrasının rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, dosent**

# MÜASİR AZƏRBAYCAN RESPUBLİKASINDA MƏHKƏMƏ HAKİMİYYƏTİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Açar sözlər:** məhkəmə hakimiyyəti, hakim, prokurorluq, ədliyyə sistemi, probasiya xidməti.

**Ключевые слова:** судебная власть, судья, прокуратура, система юстиции, служба пробации.

**Keywords**: judicial branch, judge, prosecutor's office, justice system, probation service.

Müasir Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin formalaşması və inkişafı sahəsində aparılan demokratik islahatları üç mərhələyə bölmək olar.

1995-ci ildə ilk Milli Konstitusiyamızın qəbul edilməsi ilə məhkəmə hüquq islahatının birinci mərhələsi başlanmışdır.

Konstitusiyanın qəbulu Azərbaycanda demokratik dövlət quruluşunun və hüquqi dövlətin möhkəm təməlini qoymuş, hüquqi islahatların aparılmasına əsaslı zəmin yaratmışdır. Konstitusiyada demokratik cəmiyyətin qurulması, fəaliyyət göstərməsi və inkişafı üçün ilkin müddəalar öz əksini tapır. Bu inkişafın əsas komponenti aşkar, ədalətli, səmərəli ədalət mühakiməsinin yaradılması məqsədi ilə həyata keçirilən məhkəmə-hüquq sisteminin islahatıdır.

Nəzərə çatdırmaq lazımdır ki, məhkəmə hakimiyyəti, onun hüquqi dövlətdə rolu və yeri ilə bağlı əsas ideyalar Azərbaycan Respublikası Konstitusiyasının bünovrəsi kimi çıxış edən konseptual əsaslardan irəli gəlir. Müstəqil Azərbaycan Konstitusiyasında ilk dəfə olaraq "Məhkəmə hakimiyyəti" adlı 7-ci fəsil müəyyən edilmişdir. Bununla da cəmiyyətdə yaranan bütün hüquq münasibətlərinin həlli məsələsi məhkəmə orqanlarının səlahiyyətinə aid edilmişdir. Məhkəmə hakimiyyətinə verilmiş yeni səlahiyyətlər nəzərə alınmaqla ölkə tarixində ilk dəfə olaraq Əsas Qanunda hakimlərin sərbəstliyi və müstəqilliyinin vacib təminatı-onların dəyişməzliyi prinsipləri reallaşmışdır.

Konstitusiya normalarının həyata keçirilməsinin məntiqi nəticəsi kimi qısa müddət ərzində ölkədə demokratik, hüquqi dövlətin möhkəm təməli qoyulmuş, hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilən, insan hüquqlarının daha etibarlı təminatına xidmət edən, müasir tələblərə uyğun yeni qanunlar o cümlədən, Konstitusiya Məhkəməsi haqqında, Məhkəmələr və hakimlər haqqında, Prokurorluq haqqında, Polis haqqında Azərbaycan Respublikasının qanunları, Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, Vergi, Gömrük və sair məcəllələr qəbul edilmişdir.

Bu məqsədlə ilk növbədə məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazasının Avropa Şurası ekspertləri ilə birgə ətraflı tədqiq edilməsi məqsədi ilə Azərbaycan-Avropa Şurası birgə işçi qrupu yaradılmış, gərgin və intensiv müzakirələr aparılmış, əhatəli Fəaliyyət Planı hazırlanaraq həyata keçirilmişdir. Bu zaman Avropa Şurası Nazirlər Komitəsinin Hakimlərin müstəqilliyi, səmərəliliyi və roluna dair 12 saylı (1994) Tövsiyəsi, Hakimlərin statusu haqqında Avropa Xartiyası (1998), Avropa Hakimlərinin Məşvərətçi Şurası-

nın Məhkəmələrin müstəqilliyi və dəyişməzliyinə dair standartlarla əlaqədar 1 saylı (2001) rəyi diqqət mərkəzində saxlanılmışdır. Görülmüş tədbirlər nəticəsində ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə hakimiyyətinin müstəqilliyinə əlavə təminatların müəyyən olunmasını nəzərdə tutan yeni qanunvericilik layihələri hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuşdur.

Azərbaycan tarixində ilk olaraq 1998-ci il iyul ayında konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi yaradılmışdır.

Qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədi ilə 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamışdır.

Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifələrinə namizədlərin beynəlxalq standartlara müvafiq, test üsulu, habelə yazılı və şifahi imtahanlarla tam şəffaf şəraitdə seçimi aparılmışdır. Yeni qaydalara uyğun keçirilmiş imtahanların bütün mərhələlərini müşahidə etmiş bir çox təşkilatlardan olan beynəlxalq və yerli müşahidəçilər onu ən şəffaf prosedur kimi yüksək dəyərləndirmiş və bir sıra inkişaf etmiş dövlətlərin belə tədbirin keçirilməsini yalnız arzu etdiyini bildirmişlər.

Ölkəmizdə məhkəmə islahatlarının birinci mərhələsində apellyasiya və kassasiya instansiyalı üç pilləli məhkəmə sistemi formalaşır. Yeni məhkəmə quruluşu işlərə birinci instansiya məhkəmələrində baxılmasına, onların hüquqa və fakta görə apellyasiya qaydasında yenidən baxılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yoxlanılmasına imkan yaradır. Bu isə, öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə, süründürməçiliyin aradan qaldırılmasına, köhnə sistemdən miras qalmış nəzarət instansiyasından imtina edilməsinə zəmin yaradır.

Bildiyimiz kimi demokratik, hüquqi dövlətdə məhkəmə hakimiyyətinin nüfuzuna mühüm təsir göstərən problemlərdən biri də məhkəmə aktlarının dəqiq və vaxtında icra olunmasıdır. Bu məqsədlə 1-ci mərhələdə aşağıdakı demokratik islahatlar həyata keçirilmişdir.

Cəzaçəkmə müəssisələri, istintaq təcridxanaları Daxili İşlər Nazirliyinin tərkibindən çıxarılaraq Ədliyyə Nazirliyinin tabeçiliyinə verilir. Bu təcrübə keçmiş SSRİ respublikaları arasında ilk dəfə məhz Azərbaycanda tətbiq edilir.

Penitensiar sistemdə aparılan islahatların məqsədi həbs olunmuş şəxslərin humanist şəraitdə saxlanılmasını təmin etmək və məhkum olunmuş şəxslər üçün müasir və mütərəqqi sistem çərçivəsində islah təsiri göstərə bilən ümumi davranış qaydalarını müəyyən etmək idi. Bununla əlaqədar olaraq, islah -əmək qanunvericiliyinin beynəlxalq standarlara və demokratik cəmiyyətin prinsiplərinə uygunlaşdırılması üçün Cəzaların İcrası Məcəlləsi hazırlanarkən BMT-nin “Məhkumların davranış qaydalarının minimum standartları”, Avropa Şurası tərəfindən qəbul olunmuş “Avropa Penitensiar qaydaları” və digər beynəlxalq aktlar nəzərə alınır. Yeni qanunvericiliklə məhbusların hüquqları genişləndirilir, şəxsi təhlükəsizlik, vicdan və din azadlıqlarına təminat verilir, onların sağlamlığı, tibbi xidmət, sanitar-gigiyena məsələləri və qidalanmaları xeyli yaxşılaşdırılır, yeni iş yerləri açılır, ictimai faydalı işlə məşğul olmaq üçün imkan yaradılır və onlara bir sıra yeni imtiyazlar verilir. Penitensiar müəssisələrin islah-təsir sistemində əsaslı dəyişikliklər baş verir.

“Beynəlxalq Qızıl Xaç Komitəsinin azadıqdan məhrum etmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə” Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci ildə Saziş imzalanır, hüquq müdafiəçiləri və qeyri-hökumət təşkilatlarının penitensiar müəssisələrdə məhbuslarla görüşmələrinə bütün imkanlar yaradılır.

Dövlət adından çıxarılmış məhkəmə qərarlarının icrası isə “Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında” Qanuna uyğun olaraq təmin edilir. Məhkəmə qərarlarının, həmçinin cinayət işləri üzrə azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrasını təmin edən məhkəmə icraçıları xidməti yaradılır.

Birinci mərhələdə keçirilən islahatlardan biri

də prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı olmuşdur. Prokurorluqda həyata keçirilən islahatların əsas məqsədi ölkənin gələcək inkişafına və demokratik hüquqi dövlət quruculuğu prinsiplərinə uyğun olaraq prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kadrların peşəkar səviyyəsinin artırılması idi. Bu məqsədlə prokurorluq Konstitusiyada məhkəmə hakimiyyəti fəslinə daxil edilir və prokurorluğun demokratik cəmiyyətlərə xas olan funksiyaları müəyyən edilir. 1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" Qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olunur, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırılır. İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilir. Prokurorluğun islah-əmək müəssisələrində və nəqliyyatda qanunların icrasına nəzarət funksiyaları aradan qaldırılır.

Hazırda prokurorluğun fəaliyyəti məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kmıı iştirak etmək, məhkəmədə dövlət ittihamını müdafiə etmək, məhkəmə qərarlarından protest vermək, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak etmək və s.istiqamətləri ehtiva edir.

Beləliklə, məhkəmə islahatının ilkin mərhələsində atılmış mühüm addımlar nəticəsində müvafiq qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmiş və ölkənin tarixində ilk dəfə olaraq test üsulu ilə yeni hakimlər təyin edilmişdir. Qanunvericilikdə məhkəmə hakimiyyətinin müstəqilliyinin və hakimlərin statusunun əsasları, habelə hüquqi dövlətə xas olan ədalət mühakiməsinin prinsipləri müəyyən edilmiş, məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılmış, hakimlərin maddi və sosial təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Lakin cəmiyyətimizin iqtisadi və sosial həyatının sürətli inkişafı məhkəmə sisteminin təkmilləşdirilməsi işini daim gündəmdə saxlayır. Bununla əlaqədar məhkəmə islahatı davam etdirilərək yeni mərhələyə keçmiş, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş vermişdir.

Məhkəmələrin işinin təkmilləşdirilməsi və onun beynəlxalq tələblərə uyğunlaşdırılıması məqsədilə 2004-cü ilin dekabr ayında "Məhkəmə-Hüquq Şurası haqqında" qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna hakimlərin seçim prosedurunun yeni dəyərlər əsasında müəyyən edilməsini, fəaliyyətlərində sui-istifadəyə yol vermiş hakimlər barədə intizam məsuliyyətinin gücləndirilməsini, məhkəmələrin işində şəffaflığın təmin edilməsini nəzərdə tutan əsaslı dəyişikliklər edilmişdir. Bu normativ hüquqi aktlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə həyata keçirilmiş tədbirlər nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən mahiyyətcə yeni qurum - Məhkəmə-Hüquq Şurası təşkil edilmiş, ilk dəfə yaradılmış Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim vəzifələrinə namizədlərin seçilməsi prosesinə başlanmışdır.

Məhkəmə sisteminin müasirləşdirilməsinin növbəti mərhələsində regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həlli nəzərdə tutulurdu. Beləliklə, 2004-cü il dekabr ayından etibarən məhkəmə-hüquq islahatlarının ikinci mərhələsi başlanmış və bu mərhələdə bir sıra mühüm islahatlar həyata keçirilmişdir.

Ölkəmizdə aparılan islahatlar nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yenidən təşkil olunmuş

və 2005-ci ilin fevral ayından fəaliyyətə başlamışdır. 15 nəfərdən ibarət olan Şura əsasən hakimlərdən (9 nəfər) formalaşmış, eyni zamanda onun tərkibinə hakimiyyətin digər qollarının, habelə məhkəmə prosesində tərəf olan prokurorluğun və vəkilliyin nümayəndələri də daxil edilmişdir. Hakim vəzifələrinə seçilmiş namizədlərin ilkin və davamlı hazırlığının təşkili, fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

Məhkəmə-Hüquq Şurası daimi fəaliyyət göstərən müstəqil orqandır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir. Məhkəmə-Hüquq Şurası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, elmi təşkilatlarla qarşılıqlı fəaliyyət göstərir.

Bu mərhələdə həmçinin hakimliyə namizədlərin seçilməsi məqsədilə müstəqil qurum olan Hakimlərin Seçki Komitəsi yaradılmış, hakimliyə namizədlərin Avropada ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası müəyyən olunmuşdur.

Məhkəmə-Hüquq Şurası tərəfindən Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə, Vakant olan hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi Qaydaları işlənib hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuş, Hakimlərin Seçki Komitəsinin tərkibi formalaşdırılmışdır.

Hakimlərin Seçki Komitəsinin 11 üzvü vardır ki, onların da yarıdan çoxu hakimdir. Digərləri isə icra hakimiyyəti orqanını, Məhkəmə-Hüquq Şurasının aparatını, prokurorluğu və vəkilliyi təmsil edirlər.

Qeyd etmək lazımdır ki, hakimlərin seçilməsi ilə bağlı yeni qaydalara uyğun olaraq bütün namizədlər üçün bərabər şərait yaradılır, onlar vahid zalda imtahanlar verir və nəticələr dərhal, həmin zalda namizədlərin qarşısında yoxlanılaraq elan edilir. Hakimliyə namizədlərlə şəffaf prosedurlar əsasında, beynəlxalq standartlara uyğun keçirilmiş test üsulu ilə, habelə yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış şəxslər növbəti mərhələyə - yarım il davam edən ilkin uzunmüddətli tədris kurslarına buraxılırlar. Məhkəmələrdə stajkeçmə dövrünü də uğurla başa vurduqdan sonra hakimliyə namizədlərlə Hakimlərin Seçki Komitəsi tərəfindən yazılı və şifahi imtahan keçirilir.

Bu təsisat hələ XIX əsrin sonlarından Fransa və İtaliyada əhəmiyyətli presedentlərə malik olmuşdur. Bu gün isə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olmaqla Avropada ən mütərəqqi təcrübə kimi istifadə edilir. Azərbaycan da məhz bu təcrübəyə istinad etmişdir.

Məhkəmə hüquq islahatlarının məntiqi davamı kimi "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi haqqında" ölkə Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2006-cı il tarixli fərmanı məhkəmə sisteminin müasirləşdirilməsi və inkişafında mühüm əhəmiyyət kəsb edir. Fərmana əsasən vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrdə süründürməçilik və digər hüquq pozuntuları hallarının aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması, məhkəmələrin yeni informasiya texnologiyaları ilə təmin edilməsinə dair müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi üçün regionların inkişafı nəzərə alınmaqla Bakı, Gəncə, Sumqayıt, Şəki və Şirvan şəhərlərində regional Apellyasiya və Yerli İqtisad Məhkəmələri, Naxçıvan Muxtar Respublikasında isə Ağır Cinayətlərə dair işlər üzrə məhkəmə təşkil edilmişdir.

Ölkədə ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün hər cür şərait yaradılmış, Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı artırılmış, eyni zamanda Ağır Cinayətlərə Dair işlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi ləğv edilərək, onun əvəzinə Bakı, Gəncə, Lənkəran və Şəki Ağır Cinayətlər Məhkəməsi və habelə Yerli iqtisad Məhkəmələrinin bazasında İnzibati İqtisad Məhkəmələri yaradılmış, hakimlərin maddi təminatı yaxşılaşdırılaraq, onların əmək haqqı əvvəlki illərdən fərqli olaraq dəfələrlə artırılmış, məhkəmələrin maddi texniki bazası möhkəmləndirilmişdir. Beləliklə, ölkəmizdə məhkəmə-hüquq islahatlarının 2-ci mərhələsinə yekun vuraraq qeyd etmək olar ki, 2004-cü ilin sonunda "Məhkəmələr və hakimlər haqqında" qanunun

əsaslı şəkildə yeniləşməsi, Məhkəmə-Hüquq Şurası haqqında qanunun qəbul edilməsi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynamışdır. Bu hüquqi yeniliklərdən irəli gələrək ilk dəfə olaraq, hakimlərin müddətsiz təyinatı, onların fəaliyyətlərinin qiymətləndirilməsi qaydası təsbit edilmişdir. Korrupsiya hallarının qarşısının alınması, məqsədilə qanunvericiliyə əsasən hakimlər tərəfindən vətəndaşların qəbulu qadağan edilmiş, məhkəmə fəaliyyətinin şəffaflığının təmin olunması məqsədi ilə yuxarı məhkəmələrin bütün qərarlarının, habelə onlarla birlikdə yerli məhkəmələrin ləğv edilmiş və ya dəyişdirilmiş qərarlarının dərci nəzərdə tutulmuşdur.

Əvvəllər hakimlərin intizam məsuliyyətinə cəlb olunması Ali Məhkəmənin intizam kollegiyası tərəfindən həyata keçirilirdi. Bu səlahiyyətin bilavasitə yuxarı instansiya məhkəməsi tərəfindən icrası isə əlbəttə ki, korporativ münasibətlərin yaranmasına şərait yaradır, intizam tədbirlərinin səmərəsini azaldırdı.

Bununla əlaqədar hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi proseduruna yenidən baxılmış və bu səlahiyyət Məhkəmə-Hüquq Şurasının müstəsna səlahiyyətlərinə aid edilmişdir. Hakimlər barədə intizam icraatının başlanılması barədə müraciət etmək hüququ olan subyektlərin sayı artırılaraq bu səlahiyyətlər Ali Məhkəmənin sədri və ədliyyə naziri ilə yanaşı, apellyasiya məhkəmələrinin sədrlərinə də verilmiş, korrupsiya hüquqpozmalarının törədilməsi barədə məlumatlara malik olan fiziki və hüquqi şəxslərin Şuraya müraciət hüquq təsbit olunmuşdur.

Bu prosedurlar müəyyən edilərkən məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunmasına xüsusi diqqət yetirilmişdir. Belə ki, hakimlər barədə intizam icraatının başlanılması üçün müraciətdə zəruri əsaslar müəyyən edilərsə, Məhkəmə-Hüquq Şurası intizam icraatına başlanılması haqqında qərar çıxarır. İntizam icraatı üzrə araşdırma isə yalnız Məhkəmə-Hüquq Şurasının hakim üzvü tərəfindən aparılır. Üç ayadək davam edən bu araşdırma dövründə barəsində intizam icraatı başlanılmış hakim bütün materiallarla tanış edilir, onun izahatları dinlənilir və Şuranın iclasına ətraflı məruzə hazırlanır.

Məhkəmə-Hüquq Şurasının iclasında intizam məsuliyyəti məsələsinə baxılan hakimə özünün seçdiyi vəkilin və ya hakim yoldaşının köməyindən istifadə etməklə müdafiə olunmaq, Şura üzvlərinə etiraz etmək hüququnun verilməsi, səsvermədə yalnız Şuranın hakim üzvlərinin iştirak etməsi, habelə qəbul edilmiş qərardan Ali Məhkəmənin Plenumuna şikayət hüququnun təsbit olunması intizam icraatı prosedurunun obyektivliyinə əlavə şərait yaradır.

Respublikamızda baş verən sürətli sosial-iqtisadi inkişafı nəzərə alaraq, Avropanın siyasi, iqtisadi və hüquqi məkanına inteqrasiyanı dövlət siyasətinin prioritetləri sırasına qaldıraraq demokratik cəmiyyətlərə xas məhkəmə-hüquq sisteminin fəaliyyətinə, insan hüquqlarının etibarlı müdafiəsinə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti mühüm hüquqi aktlar qəbul etmişdir. Bununla da dövlətimizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvericilik və institusional islahatlar daha da dərinləşdirilmiş, praktiki tədbirlərin dairəsi genişləndirilərək, məhkəmə hakimiyyəti sisteminin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş vermişdir.

Yeri gəlmişkən qeyd edim ki, adı çəkilən fərmanda digər məsələlərlə yanaşı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkili və onun məhkəmə təcrübəsində nəzərə alınması tövsiyə olunmuşdur.

Fərmanın icrası İstiqamətində fəaliyyətimizin əsas prinsipi kimi, biz insan hüquqlarının müdafiəsi sahəsində vahid hüquqi standartların dönmədən gözlənilməsini, İnsan Hüquqlarının və Əsas Azadlıqlarınım Müdafiəsi haqqında Avropa Konvensiyasının tələblərinin yerinə yetirilməsini müəyyən etmişik.

Konvensiyanın normalarının və Avropa Məhkəməsinin presedent hüququnun respublika məhkəmələri tərəfindən düzgün və birmənalı şəkildə tətbiqi istiqamətində ən əhəmiyyətli addımlardan biri Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli “İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası normalarının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun məhkəmələr tərəfin tətbiq edilməsi haqqında’’ qərarı olmuşdur. Həmin qərarda res-

publikanın bütün məhkəmələrinə Avropa Məhkəməsinin təcrübəsi nəzərə alınmaqla, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası normalarının tətbiq edilməsi tövsiyə edilmişdir ki, həmin Konvensiyanın müdəalarının pozulmasına yol verilməsin.

Ali Məhkəmə, Avropa insan hüquqlarının müdafiəsi sisteminin ayrılmaz hissəsi olaraq, insan hüquqlarının müdafiə standartlarının tətbiq edilməsində əsas rolu ifadə edir. 0, ölkənin məhkəmə təcrübəsi modelini beynəlxalq standartlara uyğun olaraq tarazlaşdırmaq və insan hüquqları müdafiə mexanizminin təsirliyini təkmilləşdirir. Qeyd edim ki, Ali Məhkəmə Konvensiya müddəalarının tətbiq edilməsi məsələlərində başlıca rol oynayır və aşağı məhkəmələr üçün təcrübə yaratmaq səlahiyyətinə malikdir.

Məlumdur ki, Ali Məhkəmənin funksiyaları yalnız məhkəmə prosesi ilə məhdudlaşa bilməz. O, dövlətdaxili hüquq sisteminin effektivliyini və qanunun aliliyini təmin edən ədalət mühakiməsinin yuxarı məhkəməsidir. Ali Məhkəmə, son instansiya olaraq, milli məhkəmələrdə məhkəmə prosesinin ümumi təcrübəsini müəyyən edir, qanunvericiliyin bütün məhkəmələr tərəfindən ardıcıl olaraq tətbiq edilməsini, hüququn ziddiyyətsizliyini və dürüstlüyünü, habelə qanunun təkmilləşdirilməsini təmin edir. Məhkəmə təcrübəsinin ziddiyyətsizliyi milli məhkəmələr tərəfindən tətbiq edilən hüquqi müddəaların interpretasiyasının (şərh edilməsinin) gözlənilən olmasına, habelə məhkəmə qərarlarının ardıcıllığına və proqnozlaşdırılmasının mümkünlüyünə təminat verir.

Ali Məhkəmə dövlətdaxili səviyyədə insan hüquqları və əsas azadlıqlarının müdafiəsində başlıca rol oynamaqla, ölkədə məhkəmə təcrübəsini vahid formaya salır. Ali Məhkəmə qərarlar qəbul edərkən, Avropa Məhkəməsinin qərarlarını nəzərə alaraq, Avropa Konvensiyasının normalarını tətbiq edir, bununla da Konvensiyanın müddəalarının pozulmasının qarşısı alınır.

Dövlətin Avropa Məhkəməsinin yurisdiksiyasını tanımasından ilk növbədə Azərbaycan vətəndaşları faydalanmaqdadır. Artıq vətəndaşlar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə çıxış əldə etmiş, məhkəmə və hüquq-mühafizə orqanlarının iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri çox önəmlidir.

Dövlət başçısı cənab İlham Əliyev hələ 2008-ci il oktyabrın 24-də keçirilmiş andiçmə mərasimində xüsusi vurğulamışdır ki, demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə davamlı və yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, insan hüquqlarının təminatı sahəsində mühüm irəliləyişlərə nail olması mümkün deyildir. Azərbaycan Prezidenti ölkəmizdə vətəndaş cəmiyyətinin bərqərar olması üçün mühüm əhəmiyyət kəsb edən bu fikirlərini praktiki fəaliyyəti ilə doğruldaraq məhkəmə-hüquq və ədliyyə sistemində islahatları da davam etdirmiş və bu sahədə bir sıra hüquqi sənədlər qəbul etmişdir. Həmin sənədlərdən biri 2009-cu il 6 fevral tarixli Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövət Proqramı olmuşdur. Hesab edirəm ki, 2009-cu ildən etibarən ölkəmizdə məhkəmə-hüquq islahatlarının üçüncü mərhələsi başladı.

Adı çəkilən dövlət proqramının preambula hissəsində vurğulandığı kimi, ölkəmizdə hüquq sisteminin müasirləşdirilməsi, məhkəmə-hüquq islahatlarının davam etdirilməsi ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin son dövrün tələbləri səviyyəsində qurulmasını, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasını, vətəndaşların məhkəmələrə və ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılmasını, regionlarda hüquq infrastrukturunun genişləndirilməsini, yeni nəsil hüquqşünaslarının formalaşdırılmasını, cəza-icra siyasətinin humanistləşdirilməsini zəruri edir. Dövlət proqramının imzalanması da məhz ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, normativ-hüquqi və maddi- texniki təminatın yaxşılaşdırılması, kadr potensialının, ədliyyə orqanlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Dövlət proqramının 6-cı hissəsində məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Proqrama əsasən, 2009-2013-

cü illərdə məhkəmələrin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar külliyatının və onların şərhinə dair vəsaitlərin hazırlanması, "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində məhkəmə fəaliyyətində, o cümlədən işlərin qeydiyyatı və hərəkətində, məhkəmə proseslərinin aparılmasında yeni texnologiyaların tətbiqi, habelə məhkəmələrin maddi-texniki bazasının yaxşılaşdırılması və onlar üçün lazımi iş şəraitinin təmin edilməsi, yeni yaradılmış Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki apellyasiya məhkəmələrinin inzibati binalarla təmin edilməsi nəzərdə tutulur. Ümumilikdə, dövlət proqramı ədliyyə orqanları ilə yanaşı, məhkəmələrin də fəaliyyətinin müasirləşdirilməsinə və təkmilləşdirilməsinə yeni imkanlar açır.

Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi üzrə tədbirlərin davamı kimi, məhkəmə islahatlarının üçüncü mərhələsində dövlət orqanları tərəfindən insan hüquqlarına ciddi əməl olunmasının təmin edilməsi məqsədi ilə ölkəmizdə “İnzibati icraat haqqında” qanun, habelə 2009-cu ildə İnzibati-Prosessual Məcəllə qəbul edilmiş və inzibati məhkəmələr təşkil edilmişdir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən mühüm amillərdən birinə çevrilməsi artıq danılmazdır. Bu baxımdan məhkəmə fəaliyyətində texnoloji yeniliklərin tətbiqi ən mühüm vəzifələrdən biri kimi görünür. Ümumiyyətlə, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən köklü islahatlar çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müxtəlif texnoloji yeniliklərin tətbiqi obyektiv zərurətə çevrilmişdir. Dövlət başçısının “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamı bu sahədə strateji prioritetləri müəyyən etmişdir. “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında sərəncam məhkəmə fəaliyyətində təkamülün əsasını qoymuşdur. Bu sistemin yaradılması məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir. Ölkəmizdə elektron məhkəmə sisteminin yaradılması istiqamətində Dünya Bankı ilə birgə həyata keçirilən “Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu” layihəsi çərçivəsində vətəndaşların məhkəmələrə müraciət imkanlarının sadələşdirilməsi və hüquqi xidmətlərin təkmilləşdirilməsi məqsədilə bütün məhkəmələri əhatə edən məhkəmə sisteminin vahid internet portalı yenilənərək zənginləşdirilmiş, ictimaiyyət üçün daim açıq olan milli qanunvericiliyin elektron bazası (www.e-qanun.az) və Hüquqi Aktların Dövlət Reyestrinin (www.huquqiaktlar.gov.az) fəaliyyəti təkmilləşdirilmiş, o cümlədən müasir İKT ilə təchiz edilmiş yeni binalarda elektron məhkəmə sisteminin bir çox komponentləri tətbiq edilməyə başlanılmışdır. Məhkəmə sisteminin vahid internet portalı ali, apellyasiya və birinci instansiya məhkəmələri, onların yurisdiksiyası, baxılan işlər və çıxarılan qərarlar, müraciətə əlavə edilməsi zəruri olan sənədlər, qəbul günləri və s. barədə ətraflı məlumat almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək,' həmçinin onlayn rejimdə müraciət etmək və cavab almaq imkanı yaradır. Elektron məhkəmənin tam tətbiqi nəticəsində insanlar artıq məhkəməyə gəlmədən elektron formada müraciət edə biləcək, proses barədə məlumatları elektron daşıyıcıda dərhal əldə edəcək, məhkəmə prosesləri audio-video və digər texniki vasitələrlə qeydə alınacaq, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanı yaradılacaq, proses iştirakçıları məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron “şəxsi kabinetə” malik olacaq, işlərin elektron dövriyyəsi təşkil ediləcəkdir. Artıq Elektron Sənəd Dövriyyəsi və Məhkəmə İşlərinin idarəetmə sistemlərinin tətbiqinə başlanılmış, yeni inşa olunmuş məhkəmə bina və komplekslərində elektron məhkəmə sisteminin bəzi komponentləri nəzərə alınmış, o cümlədən həmin binalarda beynəlxalq tələblərə cavab verən iş prosesinin təşkilinə, vətəndaşların bu qurumlara müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilərək bütün zəruri infrastruktur yaradılmış, ən müasir informasiya-kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. “Elektron məhkəmə” informasiya sisteminin yaradılması ilə bağlı pilot məhkəmələrdə elektron sənəd dövriyyəsi və “AZEMİS” informasiya sisteminin, mü-

vafiq sənəd şablonlarının hazırlanaraq tətbiqinə də başlanılmışdır. Qeyd etmək lazımdır ki, Ədliyyə Nazirliyinin Dünya Bankı ilə birgə görülən kompleks tədbirlər nəticəsində "Elektron məhkəmə" informasiya sisteminin yaradılması istiqamətində nəzərdə tutulmuş çoxmərhələli proseslər bu gün də sürətlə davam etdirilir.

Məhkəmə aktlarının dəqiq və çevik icrası kontekstində penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Burada göstərilir ki, dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir. Cəzaların icrası sahəsində həyata keçirilən islahatlara baxmayaraq, son zamanlar aparılmış təhlillər göstərir ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti təmin olunmur, ictimai işlər cəzasının icrası prosesində çətinliklər yaranır, cəzanı icra edən orqan və müəssisələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından kifayət qədər istifadə edilmir. İbtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur.

Yuxarıda göstərilən çatışmazlıqların aradan qaldırılması məqsədilə adı çəkilən Sərəncama uyğun olaraq republikamızda məhkəmə islahatlarının növbəti mərhələsində penitensıar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirləri davam etdirilmiş, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılmışdır.

Cəzaların icrası və qəti imkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələrinin tətbiqinə başlanılmış və digər müvafiq tədbirlər həyata keçirilmişdir.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanında qeyd olunur ki, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması zəruridir.

Göstərilən fərmanın icrası ilə bağlı qanunvericilikdə müvafiq dəyişiklik edilmişdir. Həmin dəyişikliyə əsasən, inzibati-iqtisadi məhkəmələr ləğv edilərək, inzibati və kommersiya məhkəmələri yaradılmışdır.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında 3 aprel 2019-cu il tarixli Fərmanın, Azərbaycan Ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında Sərəncamın imzalanması ilə məhkəmə-hüquq sisteminin inkişafında yeni dördüncü mərhələnin başlanmasının və bu sahədə islahatların dərinləşdirilməsinin təməli qoyulmuş, yeni yol xəritəsi müəyyən olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev islahatların yeni mərhələsinin hədəflərini belə müəyyən etmişdir: müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir.

**İstifadə olunan ədəbiyyatlar:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. B.2017.
2. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu. (www.e-qanun.az).
3. Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu. Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu.
4. Məhkəmə Hüquq Şurası haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı.
5. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı.( www.e-qanun.az).
6. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanı (www.e-qanun.az).
7. "Azərbaycan Ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2018-ci il tarixli Sərəncamı. (www.e-qanun.az).

**Джейхун Сулейманов**

**Этапы формирования и развития демократической судебной власти в Азербайджанской Республики**

**Резюме**

В представленной статье автор выделяет три стадии формирования демократической судебной системы в Республике. Первая стадия характеризуется созданием соответствующей нормативной базы и практической реализацией формирования демократической судебной системы. Вторая и третья стадия судебной реформы посвящена анализу развития системы судебной власти в Азербайджане. В данной статье рассматриваются законодательные акты, регулирующие деятельность судебной власти и также указывается на большую роль Указов и Распоряжений Президента Азербайджанской Республики в сфере формирования демократиической судебной системы в стране.

**Jeyhun Süleymanov**

**The stages of formation and development of judicial branch in the Republic of Azerbaijan**

**Summary**

In the given article, the author identifies three stages in the formation of a democratic judicial system in the Republic. The first stage is characterized by the creation of an appropriate regulatory basis and the practical implementation of the democratic judicial system formation. The second and third stage of judicial reform is devoted to the analysis of the development of the judicial branch system in Azerbaijan. In this article, the legislative acts regulating the activities of the judicial branch are studied. The article also indicates the great role of decrees and orders of the President of the Republic of Azerbaijan in the sphere of formation of a democratic judicial system in the country.

**UOT: 342.951**

**RAFİQ NƏCƏFQULİYEV**
**DİN-in Polis Akademiyasının**
**DİO-nun inzibati fəaliyyəti**
**kafedrasının rəisi, polis polkovniki,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent**
**email:** necefquliyev75@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASINDA EKSTREMİZMƏ ƏKS-TƏSİR DÖVLƏT SİYASƏTİNİN FORMALAŞDIRILMASINDA QANUNVERİCİ ORQANIN ROLU VƏ FƏALİYYƏTİ

**Açar sözlər:** cəmiyyət, dövlət, hakimiyyət, sosial hakimiyyət, dövlət hakimiyyəti, hüquq, qanunvericilik, hüquqi tənzimləmə, ekstremizm, siyasət.

**Ключевые слова:** общество, государство, власть, социальная власть, государственная власть, право, законодательство, правовое регулирование, экстремизм, политика.

**Key words:** society, state, power, social power, state power, law, legislation, legal regulation, extremism, politics.

Bu elmi tədqiqat daxilində ekstremizmə qarşı əks-təsir dövlət siyasətinin formalaşmasında qanunverici orqanın rolunun tədqiq edilməsi məqsədilə "hakimiyyət" və "dövlət hakimiyyəti" anlayışlarının təhlil edilməsi məqsədəuyğun sayıla bilər.

Məlumdur ki, ilk sinifli cəmiyyətlərin formalaşmasından müasir dövrə qədər insanların idarəedilməsi üçün müxtəlif üsul və vasitələrdən istifadə edilmişdir. Bəşəriyyətin tarixi inkişafı nəticəsində insanların idarəedilməsi üçün formalaşdırılanlar arasında diqqət çəkən üsul və vasitələrdən ən geniş yayılanı və müasir dövrə qədər öz aktuallığını qoruyan "hakimiyyət" adlandırılan siyasi və hüquqi təsisatdır. Hakimiyyət ilə insanlar arasında daimi əlaqənin və vəhdətin mövcudluğu ilkin dövrlərdə "sosial hakimiyyət" kimi hüquqi təzahürün yaranmasını şərtləndirmişdir. Əcnəbi hüquq ədəbiyyatlarında ona "ictimai hakimiyyət" adı ilə də rast gəlinir.

Böyük ensiklopedik hüquq lüğətində qeyd edilir ki, ümumi mənada "hakimiyyət" dedikdə, müxtəlif üsullardan (iradə, hüquqi məcburetmə, dövlət-hakimiyyət orqanları sisteminin siyasi hökmranlığı və s.) istifadə edilməklə fəaliyyətə və insanların davranışına tənzimləyici təsirlərin həyata keçirilməsinin bacarıq və imkanları nəzərdə tutulur [1, s.74].

Dövlət və dövlət hakimiyyəti – obyektiv olaraq təşkilatlanmış formaya ehtiyac duyulan cəmiyyətin daxili inkişafının məhsuludur. Sivilizasiya şəraitində formalaşan və vahid orqanizm kimi müəyyən ərazidə mövcud olan insanların tam təşkilatlanması dövlətin, dövlət hakimiyyətinin və hüquqi tənzimləmənin vasitəsilə mümkün olur [2, s. 328-329].

Rusiyalı alim Q.B. Romanovskiy "Dövlət hakimiyyətinin anlayışı haqqında (Q.F.Şerşeneviçin ənənələri əsasında)" elmi məqaləsində Rusiyanın ilk yenilənmiş "Konstitusiya hüququ" dərsliyinə istinad edərək qeyd edir ki, dövlət hakimiyyəti - cəmiyyətlərə rəhbərlik edilməsi və dövlətin ida-

rəedilməsi funksiyalarının həyata keçirilməsidir. Onun fikrincə, qeyd edilən fəaliyyət daxilində bütün cəmiyyətin və ya onun ayrı-ayrı sosial təbəqələrinin (fərdlər, siniflər, sosial qruplar və s.) iradəsi əsas götürülür [3, s.7].

İctimai təzahür anlayışları içərisində hakimiyyət və dövlət hakimiyyəti haqqında danışılan elmi tədqiqatlarda çoxluq təşkil edən fikir budur ki, adları çəkilənlər vasitəsilə cəmiyyətin və dövlətin idarəedilməsi təşkil edilir və təmin olunur.Təbii ki, bu fikirlər müasir dövr üçün də eyni cür qəbuledilləndir. Lakin çox da uzaq olmayan dünya tarixindən məlum olduğu kimi, bir sıra dövlətlərin və onların idarəçilik təsirində olan "suveren dövlətlərin" hakimiyyətlərində təmsil olunan qüvvələrin müxtəlif ambisiyaları, o cümlədən uzaq və ya yaxın dövlətlər ərazisinə aid haqsız iddiaları əsasında yaranan müharibələr istisna olmaqla, hakimiyyətlərin, xüsusən dövlət hakimiyyətlərinin müasir dövr üçün sosial əhəmiyyəti qalmaqdadır.

Cəmiyyətlərin davamlı inkişafı və normal təhlükəsizliyinin təmin edilməsi üçün dövlət hakimiyyəti tərəfindən həyata keçirilən tənzimləyici funksiyanın strukturunda qanunyaradıcılıq fəaliyyəti xüsusi əhəmiyyətə malikdir. Bu fəaliyyət dövlət idarəetmə sistemində hər bir orqan tərəfindən deyil, hakimiyyətlərin bölünməsi konsepsiyasına uyğun olaraq səlahiyyətlisi tərəfindən müstəqil olaraq gercəkləşdirilir.

Hüquq ədəbiyyatlarının təhlilinə əsaslanaraq qeyd edə bilərik ki, dünya təcrübəsində qanunyaradıcılığı üzrə əsas səlahiyyətli olan orqan parlamentdir. Parlament dedikdə, qanunyaradıcılığı funksiyasını həyata keçirən hakimiyyət orqanı nəzərdə tutulur.

XX əsrin sonlarına təsadüf edən müstəqil dövlətçiliyimizin bərpasından müasir dövrümüzə qədər qanunyaradıcılıq fəaliyyətinin təhlili məqsədilə bir sıra hüquqi sənədlərin məzmunun öyrənilməsi məqsədəuyğun sayıla bilər. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının 13-cü maddəsinə qeyd olunduğu kimi, qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının parlamenti tərəfindən həyata keçirilir. Bu siyasi-hüquqi mövqe Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsində -"qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir" redaksiyasında öz əksini tapmışdır [4-5].

Fəaliyyətinin ilk vaxtlarından müasir dövrümüzə qədər Azərbaycan Respublikasının Milli Məclisi ölkənin sosial-siyasi, iqtisadi, mədəni və təhlükəsizlik sahəsinə aid hüquqi baza yaradan bir çox qanunlar qəbul etmişdir.

Tədqiqatın predmetinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ölkə ərazisində təhlükəsizlik mühitinin, xüsusən ekstremizmə əks-təsir dövlət siyasətinin formalaşdırılmasındakı fəaliyyətinə keçid edək. Vurğulanması vacibdir ki, Azərbaycan Respublikasında ekstremizmə əks-təsir dövlət siyasətinin formalaşdırılması üçün ixtisaslaşmış beynəlxalq və regional təşkilatlar ilə qarşılıqlı əlaqələrin qurulması, eləcə də beynəlxalq hüquqi tənzimləmə mexanizminə aid sənədlərin ratifikasiyası və ekstremizmə əks-təsir tənzimlənməsi üzrə qanunyaradıcılığı Azərbaycan Respublikası Milli Məclisinin konstitusiya səlahiyyətlərindəndir.

Azərbaycan Respublikasının Milli Məclisisi "2008-2010-cu illər üçün terrorçuluğa və ekstremizmin digər zorakı təzahürlərinə qarşı mübarizə sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkdaşlıq Proqramı haqqında" Qərarı Azərbaycan Respublikasının adından 2008-ci il 13 iyun tarixində ratifikasiya etmişdir. Həmin sənədə əsasən "2008-2010-cu illər üçün terrorçuluğa və ekstremizmin digər zorakı təzahürlərinə qarşı mübarizə sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əməkdaşlıq Proqramı haqqında" 2007-ci il oktyabrın 5-də Düşənbə şəhərində imzalanmış Qərar Azərbaycan Respublikasının ona dair xüsusi rəyi ilə təsdiq edilmişdir. Milli qanunvericiliklərin harmonizasiya və unifikasiya edilməsi üzrə müddəaları istisna edilməklə, həmçinin Azərbaycan Respublikası Proqramın hər bir tədbirində iştirakı barədə ayrıca qərar qəbul edəcəkdir kimi mövqe xüsusi rəydə əks olunmuşdur [6].

Nəzərə alınması vacibdir ki, eyni tarixdə Azərbaycan Respublikasının Milli Məclisi "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluğa və ekstremizmin digər zorakı təzahürlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq Konsepsiyası haqqında" qərarı ratifikasiya etmiş-

dir. Ratifikasiyaya dair qanuna əsasən "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluğa və ekstremizmin digər zorakı təzahürlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq Konsepsiyası haqqında" 2005-ci il avqustun 26-da Kazan şəhərində imzalanmış Qərar Azərbaycan Respublikasının, Gürcüstanın, Moldova Respublikasının və Ukraynanın ona aid razılaşdırılmış xüsusi rəyi ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasında ekstremizmə əks-təsir dövlət siyasətinin formalaşdırılmasında Azərbaycan Respublikası Milli Məclisisinin ratifikasiya etdiyi həmin sənədin əhəmiyyəti danılmazdır. Məlum olduğu kimi, qlobal təhlükələrin strukturuna daxil olan terrorçuluq təhlükəsinin artması və coğrafiyasının genişlənməsi, terrorçuluğu və ekstremizmi doğuran regional və lokal hərbi münaqişələrin nizama salınmaması, beynəlxalq terrorçuluq fəaliyyətinin həyata keçirilməsində transmilli mütəşəkkil cinayətkarlıq strukturlarının iştirakının artması, narkotiklərin və silahların qeyri-qanuni dövriyyəsi müasir şəraitdə beynəlxalq sülh və təhlükəsizlik üçün əsas təhdidlərdəndir. Son on ildə qloballaşma proseslərinin qeyri-mütənasibliyi varlı və kasıb ölkələrin, ayrılıqda götürülmüş hər bir ölkədə varlılar və kasıbların həyat səviyyəsi arasında kəskin uyğunsuzluğun artmasına meydan açır ki, bu da öz növbəsində etirazlı davranış formalarının yüksəlməsinə gətirib çıxarır.

Dinlər və konfessiyalar arasında tam dəyərli dialoqun olmaması, cəmiyyətlərdə mövcud olan sosial ədalətsizlik terrorçu və ekstremist təzahürlərə rəvac verən etniklərarası, dinlərarası ziddiyyətlər üçün münbit zəmin yaradır [7].

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluğa və ekstremizmin digər zorakı təzahürlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq Konsepsiyasına görə sənədi təsdiq edən dövlətlərin terrorçuluq və ekstremizmlə mübarizədə əməkdaşlığının məqsədlərinə aşağıdakılar aid edilmişdir:

- dövlətlərin vətəndaşlarının və onların ərazisində yaşayan şəxslərin terrorçuluq və ekstremizm təhlükələrindən qorunmasının təmin olunması;
- dövlətlərin ərazisində terrorçuluq və ekstremizm təhlükələrinin aradan qaldırılması;
- terrorçuluq və ekstremizmin bütün forma və təzahürünün qəbuledilməzliyi mühitinin yaradılması;
- dövlətlərin ərazisində terrorçuluq və ekstremizmin meydana çıxmasına və yayılmasına yol açan səbəb və şəraitlərin aşkara çıxarılması və ləğvi, habelə terrorçu və ekstremist xarakterli cinayətlərin nəticələrinin aradan qaldırılması;
- beynəlxalq antiterror əməkdaşlığının möhkəmləndirilməsi;
- dövlətlərin terrorçuluq və ekstremizmlə mübarizə, o cümlədən onların qarşısının alınması məsələlərinə razılaşdırılmış yanaşmaların işlənib hazırlanması;
- terrorçuluq və ekstremizm ilə mübarizə üzrə əməkdaşlığın hüquqi bazasının təkmilləşdirilməsi, dövlətlərin milli qanunvericiliyinin inkişafı və beynəlxalq hüququn norma və prinsipləri ilə uyğunlaşdırılması.
- terrorçuluğun və ekstremizmin artan təhlükələri şəraitində dövlətin, şəxsiyyətin və cəmiyyətin təhlükəsizliyinin təminatçısı kimi rolunun gücləndirilməsi;
- terrorçu və ekstremist xarakterli cinayətlər barədə xəbər verilməsi, aşkara çıxarılması, qarşısının alınması və istintaqı, terrorçu və ekstremist fəaliyyətin həyata keçirilməsi ilə bağlı olan təşkilat və şəxslərin aşkara çıxarılması və qarşısının alınması, həmçinin terrorçuluğun maliyyələşdirilməsinə əks-təsir göstərilməsində səlahiyyətli orqanların qarşılıqlı fəaliyyətinin səmərəliliyinin artırılması;
- dövlətlər tərəfindən terrorçuluğun və ekstremizmin maliyyələşdirilməsinə əks-təsir göstərilməsi üzrə beynəlxalq hüquq normalarının yerinə yetirilməsi.

Təhlil edilən bu hüquqi sənədin məzmunu deməyə əsas verir ki, terrorçuluq və ekstremizm ilə mübarizədə qarşılıqlı fəaliyyət və koordinasiya üçün yaradılmış MDB-nin iştirakçısı olan dövlətlərin, onların səlahiyyətli orqanlarının, habelə, nizamnamə və sahəvi orqanlarının əməkdaşlığı üzrə aşağıdakı əsas istiqamətlər müəyyən olunmuşdur:

- Terrorçu və ekstremist xarakterli cinayətlərin qabaqlanması, aşkar edilməsi, qarşısının alınması və araşdırılması, habelə onların nəticələrinin minimuma endirilməsi;
- Terrorçu və ekstremist xarakterli cinayətlərə görə cəzanın qaçılmazlığına yardım;
- Terrorçuluq və ekstremizm ilə mübarizə üzrə əməkdaşlığın hüquqi bazasının təkmilləşdirilməsi;
- Terrorçuluğu və ekstremizmi doğuran amil və şərtlərin təhlili, dövlətlərin ərazisində onların inkişaf meyllərinin və təzahürlərinin proqnozlaşdırılması;
- Terrorçu və ekstremist xarakterli cinayətlərdən zərər çəkmiş şəxslərin reabilitasiyasına kömək göstərilməsi;
- Terrorçuluq məqsədləri üçün kütləvi qırğın silahlarının və onun çatdırılma vasitələrinin, radioaktiv, toksiki və digər təhlükəli maddələrin, onların istehsal materiallarının və texnologiyalarının istifadəsinin qarşısının alınması;
- Terrorçuluq və ekstremist fəaliyyətinin maliyyələşdirilməsinə əks-təsir göstərilməsi;
- Terrorçuluq məqsədləri üçün lokal və qlobal kompüter şəbəkələrindən istifadə təhlükəsinin və ya istifadəsinin qarşısının alınması (kiberterrorçuluq ilə mübarizə);
- Terrorçuluğa və ekstremizmə əks-təsir göstərilməsinin səmərəliliyinin artırılması məqsədilə vətəndaş cəmiyyəti və kütləvi informasiya vasitələri ilə qarşılıqlı fəaliyyət;
- Terrorçuluq və ekstremizm təbliğatına əks-təsir göstərilməsi və s.

Təcrübə göstərir ki, sosial-neqativ təzahürlərin strukturu məzmunca genişlənir. Formaca yeni olan neqativ təzahürlərin xəbərdar edilməsi və qarşısının alınması üzrə dövlətin fəaliyyəti yalnız beynəlxalq tənzimləmənin ratifikasiyası ilə bitmir. Başqa sözlə desək, dövlətlərin parlamentləri tərəfindən milli-hüquqi sahəvi tənzimləmə mexanizmi formalaşdırılır. Təbii ki, bu prosesdə sosial sifariş diqqətdə saxlanılır. Təsadüfi deyildir ki, 4 dekabr 2015-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisisi tərəfindən "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun qəbul edilmişdir. Adı çəkilən qanun Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edir, həmçinin dini ekstremizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələrini təsbit edir.

Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsaslarının, habelə ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, dini ekstremist fəaliyyətin aşkar edilməsi, qarşısının alınması və dini ekstremizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi, eləcə də dini ekstremizmin yaranması və dini ekstremist fəaliyyətin həyata keçirilməsi səbəb və şəraitinin, habelə dini ekstremizmin maliyyələşdirilməsi hallarının aşkar və ləğv edilməsi dini ekstremizmə qarşı mübarizənin məqsədlərindəndir [8].

Göründüyü kimi, ölkədə təhlükəsizliyin təmin edilməsi, eyni zamanda ekstremizmlə, xüsusən onun təhlükəli növü olan dini ekstremizmlə mübarizə sahəsində parlament tərəfindən aidiyyəti qanun qəbul edilmişdir. Dini ekstremizmə qarşı mübarizənin əsas prinsipləri, dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejimi, həmçinin xüsusi əməliyyatlar barədə ictimaiyyətə məlumatın verilməsi üzrə tənzimləmə qanun səviyyəsində təsbit olunmuşdur. Təbii ki, hüquq mühitində bu cür detallı tənzimləmənin mövcudluğu, təhlil edilən sosial-neqativ təzahürlərin xəbərdar edilməsi və səlahiyyətli subyektlərin hüquq tətbiqetmə fəaliyyəti üçün effektiv sayılır.

Zənnimizcə, ekstremizmə əks-təsir dövlət siyasətinin formalaşdırılması yönümündə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilən beynəlxalq və regional hüquqi sənədlər, həmçinin qəbul edilən aidiyyəti qanunlar konstitusiya ilə təsbit edilən ali dəyərlərin qorunmasında, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsində, eləcə də dünyada nümunəvi tolerantlıq coğrafiyası olan ölkəmizdə sivil və multikultural dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsində xüsusi əhəmiyyətə malikdir.

**İstifadə edilən mənbələr**


1. Ожегов С.И. Словарь русского языка / Под ред. Н.Ю. Шведовой – 18-е изд., стереотип. – М.: Рус.яз., 1986. С. 74.
2. Алексеев С.С. Право: азбука - теория - философия: опыт комплексного исследования. М., 1999.
3. Романовский Г. Б. «О понятии государственной власти (В традициях Г.Ф. Шершеневича)» Электронный научный журнал «Наука. Общество. Государство» http://esj.pnzgu.ru 2015. Т.3, № 2 (10).
4. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya akt. http://www.e-qanun.az/framework/6693.
5. Azərbaycan Respublikasının Konstitusiyası. http://www.e-qanun.az/framework/897.
6. https://meclis.gov.az/news-qanun.php?id=888&lang=az
7. http://www.e-qanun.az/framework/15113
8. https://dq.mia.gov.az/files/document/dini_ekstremizme_qarsi_mubarize_haqqinda.pdf


**Наджафгулиев Рафиг**

**Роль и деятельность законодательного органа в формировании государственной политики противодействия экстремизму в Азербайджанской Республике**

**Аннотация**

Статья посвящена роли и деятельности законодательного органа в формировании государственной политики противодействия экстремизму в Азербайджанской Республике. В статье изучены изменение формы и содержание негативных проявлений, а также их расширение по структуре.

Автором проанализировано правовые документы в борьбе с экстремизмом международного и регионального значения. В рамке исследование было изучено содержание отраслевого закона, который является национальным нормативно-правовым документом в сфере борьбы с религиозным экстремизмом.

**Najafguliyev Rafig**

**The role and activity of the legislative branch in the formation of the state policy of countering extremism in the Republic of Azerbaijan**

**Summary**

The article is devoted to the role and activities of the legislative body in the formation of the state policy of countering extremism in the Republic of Azerbaijan. The article studies the change in the form and content of negative manifestations, as well as their expansion in structure.

The author analyzed legal documents in the fight against extremism of international and regional significance. Within the framework of the study, the content of the sectoral law was studied, which is a national regulatory document in the field of combating religious extremism.

**VÜQAR MANSUROV**
**Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının "Daxili işlər orqanlarının inzibati fəaliyyəti" kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı**

# TAMAH MOTİVİ İLƏ CİNAYƏT TÖRƏDƏNLƏRİN ŞƏXSİYYƏTİNİN TƏDQİQİNİN ƏHƏMİYYƏTİ

**Açar sözlər:** Cinayətkarın şəxsiyyəti, kriminal davranış, kriminoloji tipologiya, şəxsiyyətin strukturu.

**Ключевые слова:** личность преступника, криминальное поведение, криминологическая типология, структура личности.

**Key words:** criminal's personality (offender), criminal behavior, criminal typology, structure of personality.

Ümumi cinayətlərin strukturunda xüsusi çəkisi ilə seçilən cinayətlərdən biri tamah motivi ilə törədilən cinayətlərdir. Tədqiqat obyekti kimi tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji təhlili bu istiqamətdə olan cinayətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin öyrənilməsini tələb edir.

Tamah motivi ilə törədilən cinayətlərin statistikada bu ad altında ayrıca olaraq qeydiyyatı aparılmır. Beynəlxalq təcrübədə isə xüsusi bölmələrə rast gəlinmir. Kriminoloji ədəbiyyatlarda tamah motivi ilə törədilən cinayətlərin (tamah cinayətkarlığı) kriminoloji məzmunu öyrənilərkən daha çox mülkiyyət əleyhinə olan cinayətlərlə bağlı araşdırmalar aparılır. Bu anlaşılandır, çünki, tamah motivi ilə törədilən cinayətlərin böyük əksəriyyətini məhz mülkiyyət əleyhinə törədilən cinayətlər təşkil edir. Ancaq şəxsiyyət, dövlət hakimiyyəti əleyhinə, iqtisadi sahədə olan və s. cinayətlər də tamah motivasiyası ilə bağlı ola bilər. V.Luneevin fikrinə görə zorakı cinayətlərin də əsas motivasiyasını tamah təşkil edə bilər (1).

Qüvvədə olan cinayət qanunvericiliyində tamah cinayətkarlığı adı ilə ayrı bir başlıq yoxdur. Lakin tamah cinayətkarlığı kriminoloji termin olaraq tədqiq edilib öyrənilir.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin öyrənilməsinin əsas vasitələrindən biri kriminal davranışın motivasiyasının tədqiqidir. Maraq, tələbat, ehtiyacın təsiri ilə formalaşan motiv şəxsin davranışının hərəkətverici nüvəsidir.

Fəlsəfə terminlərinin izahlı lüğətində motiv – hər hansı bir istəkdən doğan fəaliyyətin səbəbi, hərəkətverici qüvvəsi, həmçinin insanın tələbatını təmin etməyə yönəlmiş hərəkəti şərtləndirən düşünülmüş meyl kimi müəyyən edilmişdir (2, s.135).

F.Y.Səməndərova görə şəxsin bütün iradi əməlləri kimi cinayət əməli də müəyyən motivlə əlaqədar olur və belə motiv qarşıya qoyulan məqsədə doğru şəxsi istiqamətləndirir. Motiv maddi təbiətə malikdir, onun əsasını insanın müxtəlif maddi və mənəvi sərvətə olan tələbatı təşkil edir. Bu ehtiyac insana iztirab çəkdirir, onun orqanizmində müəyyən gərginlik yaradır, şüurunda maraq püxtələşdirir. Cinayət etməyə qətiyyət yaradan daxili oyanma normal, pozitiv tələbata deyil, qeyri-normal, təhrif olunmuş tələbata əsaslanır (3, s.225-227).

Motivasiya subyektin daxilindən cinayətkar davranışı müəyyən edir. Onun kriminoloji tədqiqi cinayət törədənin şəxsiyyəti və kriminal davranışın formalaşmasının xüsusiyyətləri və qanunauyğunluqları haqqında elmi təsəvvürlərin daha da dərinləşməsinə zəmin yaradır (4, s.18,19).

Bu kontekstdə aparılan kriminoloji tədqiqatların əsasında da hüquq pozuntularının profilaktikasının əsas istiqamətləri və zəruri resurslar müəyyən edilməlidir. Motivasiya şəxsiyyət anlayışı ilə sıx bağlı olduğundan cinayət törədənin şəxsiyyə-

tinin və kriminogen səbəbiyyatın öyrənilməsində bir növ körpü rolunu oynayır. Motivasiya insanı müəyyən davranışa, fəaliyyətə stimullaşdırır və onu məqsədə yönəldir.

V.İ.Kovalyovun fikrincə motiv ehtiyacın təsiri nəticəsində formalaşan davranışın və fəaliyyətin düşünülmüş təkanverici qüvvəsidir (5, s.140).

Şəxsiyyətin özəyini təşkil edən motivasiya sahəsində həyati yönəlişlər, qiymətləndirmə meyarları, istiqamətlənmələr, emosiya, iradi keyfiyyətlər, məqsəd və ideallar kimi xüsusiyyətlərin təsiri böyükdür (6, s.24). Ümumilikdə motiv yalnız fəaliyyətə deyil, şəxsiyyətin özünə bir istiqamət verir (7, s.126).

Məzmunundan irəli gələrək motivlərin müxtəlif təsnifatı mövcuddur: 1) siyasi motivlər; 2) tamah motivi; 3) alçaq hissələrlə olan motivlər; 4) şəxsi məzmunda olan motivlər (3, s.226). Hüquq ədəbiyyatlarında motivlərin zorakı-eqoistik, laqeydliklə bağlı növləri də göstərilir (4, s.186,187).

Kriminal davranışın motivlər üzrə bölgüsü cinayət törədənin şəxsiyyətinin öyrənilməsi üçün böyük imkanlar yaradır. Motivlərdən irəli gələrək kriminal davranış istiqamətlənə və fərqli məqsədlərə yönəldilə bilər.

Tamah motivi ilə törədilən cinayətlər digər cinayət növlərindən fərqli olan kəmiyyət və keyfiyyət göstəricilərinə malikdirlər. Təkcə oğurluq cinayəti 2020-ci ildə Azərbaycan Respublikasında qeydə alınmış cinayətlərin təqribən 25 %-ni təşkil edir. Bu isə ölkə üzrə qeydiyyata alınmış ümumi cinayətlərin strukturunda ayrı-ayrı cinayət növləri üzrə ən yüksək göstəricidir. Azərbaycan Respublikasında 2020-ci ildə cəmi 26004 cinayət qeydə alınmışdırsa, onlardan 6420 oğurluq, 5041 narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı, 2085 yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, 2079 dələduzluq, 502 xuliqanlıq, 155 qaçaqmalçılıq və digər cinayətlərin payına düşür. Təqdim olunan statistik rəqəmlər daha yüksək kəmiyyət göstəricilərinə malik olanlardır (8).

**Cədvəl № 1**

**Azərbaycan Respublikasında 2020-cu ildə qeydə alınmış cinayətlərin strukturu**



Ümumilikdə mülkiyyət əleyhinə törədilən cinayətlərin göstəricilərinin təhlilini aparsaq, bu ümumi cinayətlərin 70-80%-ni təşkil etmiş olar.

Qeyd olunanlar tamah motivi ilə törədilən cinayətlərin kriminoloji tədqiqatların bir obyekti kimi öyrənilməsini zəruri edir. Lakin, kriminal davranış sadəcə obyektiv gerçəklik, hadisələrin və statistik göstəricilərin cəmi kimi araşdırılmamalıdır. Çünki insan davranışını stimullaşdıran maraqlar, tələbatlar, motiv və məqsədlər "şəxsiyyət" anlamının ayrılmaz hissəsidir. Kriminal davranışın səbəbiyyat kompleksinin məzmununun və onların yaranması, həmçinin inkişafı qanunauyğunluqlarının öyrənilməsinin yeganə açarı cinayət törədənin şəxsiyyətinin tədqiqidir.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin öyrənilməsinin əhəmiyyətini artıran amillərdən biri bu sahənin kifayət qədər tədqiq edilməməsidir. Hesab edirik ki, şəxsiyyətin hərtərəfli tədqiqi təcrübi baxımdan da böyük əhəmiyyət kəsb edən kriminoloji təhlillərin stabil və davamlı olaraq aparılmasına münbit zəmin yaradacaqdır. Çünki, şəxsiyyətin kriminoloji təhlili kriminal davranışın korreksiya edilməsi və profilaktikasının effektivliyinin artırılmasının ən uğurlu üsullarından biridir.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji tədqiqi zamanı istifadə olunan əsas anlayışlardan biri "tamah"dır. Ümumilikdə tamah motivinin məzmunu cinayətin hansı maddi ehtiyacların təsiri nəticəsində törədilməsindən asılıdır (14, s.56-62). Motivin bu növü kifayət qədər mürəkkəb və ziddiyyətlidir. Filologiya elmləri doktoru, professor Ağamusa Axundovun redaktorluğu ilə hazırlanmış "Azərbaycan dilinin izahlı lüğəti"ndə tamah – bir şeyi əldə etməyə göstərilən hədsiz arzu, hərislik, acgözlük kimi göstərilmişdir (9, s.259).

Hüquq ensiklopedik lüğətində isə tamah cinayət yolu ilə zənginləşməyə, qazanc əldə etməyə istək kimi müəyyən edilmişdir (10, s.194).

N.F.Kuznetsova tamah motivasiyasının məzmununu tədqiq edərək onu beş növə bölürdü (13, s.67-71):

1) Tamah-hərislik (qazancın, maddi mənfəətin əldə edilməsinə hədsiz aludəçilik, acgözlük).
2) Tamah-parazitizm (başqalarının zəhməti və əməyi hesabına yaşama).
3) Xidməti tamah.
4) Yüngülfikirliliklə bağlı tamah (özünü təsdiq etmək və başqa şəxslərin yanında nüfuz qazanmaq məqsədi. Bu hərəkətlər daha çox yetkinlik yaşına çatmayanların davranışlarına xasdır).
5) Ehtiyacın təsirindən yaranan tamah.

Kriminal davranışın motivini bir sistem kimi tədqiq edərək kriminoloji təsnifatını aparan V.V.Luneev özünün "Cinayətkar davranışın motivasiyası" adlı monoqrafiyasında tamah motivinin müxtəlifliyinə toxunaraq onu altı qrupa bölürdü (4, s.198-200):

1) Pul və qiymətli əşyaların toplanmasına hərislik. Tamahın bu növü ilə bağlı cinayətlər daha çox iqtisadi cinayətkarlıqla bağlı olur və ümumilikdə tamah motivi ilə bağlı cinayətlərin 5-10%-ni təşkil edir.

2) Maddi komfortun və zəngin həyat şəraitinin (bahalı nəqliyyat vasitələrinin, bağ evlərinin və mənzillərin əldə edilməsi) təmin edilməsi. Bu motivlə törədilən cinayətlər tamah motivi ilə törədilən cinayətlərin 25-30%-ni təşkil edir.

3) Alkoqol və narkotik vasitələrlə bağlı ehtiyacların ödənilməsi, həmçinin əyləncəli vaxtın keçirilməsinə can atma. Bu motivlə daha çox oğruluq, soyğunçuluq, quldurluq, dələduzluq cinayətləri törədilir və tamah motivi ilə törədilən cinayətlərin 20-30%-ni təşkil edir.

4) Xidməti xarakterli maddi ehtiyaclar (lazımı əlaqələri saxlamaq, rəhbər heyətin arzu və istəklərini ödəmək). Qeyd olunan motivlə törədilən cinayətlər tamah motivi ilə törədilən cinayətlərin 15-20%-ni təşkil edir.

5) Şəxsi maddi ehtiyaclar (maddi çətinliklər, ailə-məişət ehtiyacları və s.). Tamah motivi ilə törədilən cinayətlərin 20-25%-i bu motivlə bağlı cinayətlərin payına düşür.

6) Risk etmək və adrenalin hissi (həyəcan yaşamaq, hisləri coşdurmaq). Tamahın bu növünü müəllif "prosessual" motivasiya adlandırırdı.

Mənəvi baxımdan tamah neqativ dəyər sayılır. F.Y.Safinin mövqeyinə görə isə tamahın birmənalı olaraq mənəviyyat əleyhinə olması və onun bilavasitə kriminal davranışla bağlanılması fikri düzgün deyil.

P.S.Daqel ümumilikdə motivlərin üç qrupa bölünməsini məqsədəuyğun hesab edir: 1) ictimai-təhlükəli; 2) ictimai-neytral; 3) ictimai-faydalı. Bu təsnifata uyğun olaraq tamah ictimai-təhlükəli motivlərə aid olunur. Qeyd olunan formada tamahın insan davranışının mənfi keyfiyyətlərinə aid edilməsi tamahın məzmununa da mənfi fon verir (11, s.18-20).

Maddi təminat və mənfəət haqqında bu səpgili təsəvvürlər sovet dövrünün ideoloji prinsiplərinə uyğundur. Lakin müasir dəyərlər maddi mənfəət və maddi təminat haqqında fikirlərin tam fərqli olduğunu göstərir. Əgər qazanc əldə etmək, zəngin olmaq, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq sovet dövrü üçün yad, hətta təqib olunası hal hesab olunurdusa, müasir dövrdə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni meyarlar formalaşdırılmışdır.

Tamahın birmənalı olaraq kriminogenləşdirilməsinin əleyhinə olan kriminoloqlardan sayılan M.Q.Minenok da tamahın maddi mənfəət və stimul baxımından faydalı olmasını vurğulayırdı. O, qeyd edirdi ki, bütün istehsal prosesləri maddi mənfəətin əldə edilməsinə istiqamətlənmişdir (12,s.54).

Hesab edirik ki, tamah motivasiyasının daha əsaslı araşdırılması üçün tamahın iki qrupa bölünərək "kriminal tamah" və "qeyri-kriminal tamah" formasında sistemləşdirilməsi və gələcəkdə öyrənilməsi daha məqsədəmüvafiqdir. Bu səpgili qruplaşma tamah motivasiyasının daha dərindən araşdırılmasına, həmçinin cinayət törədənin şəxsiyyəti haqqında biliklərin təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Əməlin kriminal və ya qeyri-kriminal tamahla bağlı olmasının əsas meyarı onun hüquqazidd olmasıdır. Hüquqazidd davranışın kökündə tamahkarlıq dayanarsa bu zaman həmin şəxsin şəxsiyyətində "kriminal tamahın" formalaşmasının determinantları tədqiq edilməlidir. Yəni cinayət törədənin şəxsiyyətində kriminal davranışı istiqamətləndirən tamah motivasiyasının məzmunu haqqında danışıla bilər.

**Ədəbiyyat:**

1. В.В. Лунеев. Криминология – М.: Издательство Юрайт, 2013 . – 686 с.
2. Nəzərova Adilə. Fəlsəfə terminlərinin izahlı lüğəti. Bakı, "Elm və təhsil", 2014, 224 səh.
3. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı, "Hüquq yayın Evi" nəşriyyatı, 2015, 720 səh.
4. Лунеев В.В. Мотивация преступного поведения. – М.: Наука, 1991. -383 с.
5. Столяренко А.М. Прикладная юридическая психология: учебное пособие для вузов /Под.ред. Профессора А.М.Столяренко.- М.: ЮНИТИ-ДАНА, 2001. -639 с.
6. Литвинников В.М. Психология и педагогика в профессиональной деятельности юриста /В.М.Литвинников, –М.: МПСИ,2004.-191 с.
7. Шиханцев Г.Г. Юридическая психология: Учебник для вузов/ Г.Г.Шиханцев.-Минск: ИКД, Зерцало –М,2002.-352 с.
8. www.stat.gov.az.
9. Orucov Ə., AbdullayevB., Rəhimzadə N. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. Bakı, "Şərq-Qərb", 2006. 712 səh.
10. Юридический энциклопедический словарь /Гл.ред. А.Я.Сухарев, Ред.кол: М.М. Богуславский и др. -2-е изд., доп.-М.: Сов.энциклопедия, 1987.-528 с.
11. Сафин Ф.Ю. Теоретические и методологические проблемы предупреждения корыстной преступности несовершеннолетних. Дис. д-ра юрид. наук.-М.: РГБ, 2003 (Из фондов Российской Государственной библиотеки), с.343.
12. Миненок М.Г., Миненок Д.М. Корысть. Криминологические и уголовно-правовые проблемы. СПб.: Изд-во Юридический центр Пресс, 2001. С.376.

**Вугар Мансуров**

**Значения изучения личности корыстного преступника**

**Резюме**

Криминологическая наука с более широким охватом занимается изучением факторов, порождающих криминальную решительность у лица как до, так и после уголовного поведения. В силу того, что в совершённом преступлении выражается социальная сущность индивида, при криминологических исследованиях подвергаются изучению социально-демографические, психологические, правовые, моральные и прочие особенности лица, совершившего преступление.

**Vuqar Mansurov**

**The importance of investigating the identities of greedy offenders Summary**

Criminal science studies the investigation of facts striking criminal determination of persons as before, so after the criminal behavior. As the social essence of individual’s personality is expressed in the committed crime social, demographic, psychological, legal, moral and other peculiarities of person, committed crime are the subjects of the criminal investigation.

**AQŞİN ƏLİZADƏ**
**DİN-in A.Heydərov adına SKRHH Məktəbin**
**"Atəş, Fiziki və Sıra hazırlığı Silsiləsi"nin baş müəllimi,**
**polis polkovnik-leytenantı,**
**DİN-in Polis Akademiyasının dissertantı**
**email: A.S.Alizade84@gmail.com**

# QİYMƏTLİ KAĞIZLAR BAZARINDA TÖRƏDİLƏN CİNAYƏTLƏRƏ GÖRƏ MƏSULİYYƏT HAQQINDA QANUNVERİCİLİYİN İNKİŞAFI

**Açar sözlər:** manipulyasiya, qanunvericilik, qiymətli kağızlar, qiymətli kağızlar bazarı, məsuliyyət.

**Ключевые слова:** манипуляция, законодательство, ценные бумаги, рынок ценных бумаг, ответственность.

**Key words:** manipulation, legislation, valuable papers, market of valuable papers, responsibility.

**18**-ci əsrdə ilk xarici kredit Amsterdamın "Gope and Co." Bankı tərəfindən verilirdi. Daxili borc forması 1769-cu ildə Count Shuvalovun təşəbbüsü ilə sikkələrlə bərabər dövriyyəyə buraxıldığı zaman başladı.

Bazarda cinayətkar davranış formalarından biri üçün məsuliyyət nəzərdə tutan ilk sənəd akkreditivlərin, məzuniyyət ödənişlərinin, ipoteka kreditlərinin, etibarnamələrin və veksellərin saxtalaşdırılmasının xüsusi yer tutduğu "Ümumi Qaydalar" idi. İlkin olaraq 1719-cu ildə saxtakarlığı cinayət hesab edən Təlimat, 16 may 1729-cu il tarixdə isə ilk nizamnamə qəbul edildi. Nizamnamənin 35-ci maddəsi saxta əskinasların istehsalına görə məsuliyyəti müəyyən edirdi. Həmin vaxtdan saxta əskinasların hazırlandığını bildirməyənlərə şallaq, amputasiya və uzun müddətli həbs cəzaları tətbiq edilirdi. 23 fevral 1752 -ci il tarixli fərmanla Elizaveta Petrovna Roqervik şəhərində saxta hesabları hazırlayanların cəzalandırılmasını əmr etdi. 1832 -ci ildə isə ikinci Valyuta nizamnaməsi qəbul edildi.

XIX əsrin əvvəllərindən Azərbaycanda Rusiya qanunları tətbiq edildiyindən qiymətli kağızlar bazarında baş vermiş cinayətlər, o cümlədən saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma əməlləri ilə bağlı qanunvericiliyin inkişafı tarixinin əvvəlcə Rusiyanın Cinayət Qanunnamələri əsasında öyrənilməsi zəruridir. Rusiyanın 1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsində pul saxtalaşdırılması predmet üzrə iki yerə bölünürdü: 1) sikkənin saxtalaşdırılması; 2) dövlət kredit kağızlarının saxtalaşdırılması. Sikkə saxtalaşdırılması ilə bağlı Qanunnamədə aşağıdakı cinayət əməlləri fərqləndirilirdi: 1) sikkənin saxtalaşdırılması; 2) saxta sikkələr buraxılması və ya xaricdən gətirilməsi; 3) saxta sikkəni yayma; 4) Rusiya sikkəsini əritmə: 5) sikkənin əsl çəkisini azaltma; 6) sikkəyə yüksək dəyər vermək məqsədilə onun rənginin dəyişdirilməsi; 7) xarici sikkələrin ticarəti ilə məşğul olma.

Qanunnamədə dövlət kredit kağızlarının saxtalaşdınlmasına görə cinayət məsuliyyəti nəzərdə tutan maddələri üç yerə bölmək olar: 1) kredit kağızlarının saxtalaşdırılması; 2) saxta kredit kağızlarını satma; 3) saxta kredit kağızlarımın xaricdən gətirilməsi.

1903-cü il Cinayət Qanunnaməsində sikkə, qiymətli kağızlar və nişanların saxtalaşdırılmasına görə məsuliyyət nəzərdə tutan ayrıca fəsil var idi. Baxılan cinayətin predmeti olaraq 1) Rusiya sikkəsi; 2) xarici sikkə; 3) dövlət kredit biletləri; 4) Rusiya dövlət faiz kağızları, onun kupon və ya

talonları yaxud sair qiymətli dövlət kağızları nəzərdə tutulurdu.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasında Rusiyanın Cinayət Qanunnamələri cüzi dəyişikliklə qüvvədə olmuşdur. Bu sıradan saxta sikkə və ya kredit kağızları ilə bağlı normalar da öz qüvvəsini saxlamışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ilk məcəllə qəbul edilənə qədər saxta pul nişanları ilə bağlı əməllərə görə məsuliyyət bəzi dekretlərdə, məsələn, 28 iyun 1920-ci il tarixli «Pul nişanları ilə möhtəkirlik etmək haqqında» dekretdə nəzərdə tutulmuşdu. Azərbaycan SSR-in 1922-ci il CM-in 85-ci maddəsi pul nişanlarının və dövlət faiz kağızlarını, markaları və dövlət ödənişinin digər nişanlarının saxtasını hazırlamaya, həmin cinayəti gizlətməyə görə məsuliyyət müəyyən edirdi. Cinayət qabaqcadan əlbir olan bir neçə şəxs tərəfindən və peşə edilməklə törədildikdə cinayətin bütün iştirakçıları və köməkçiləri ən yüksək cəzaya - güllələnməyə məhkum edilirdilər. Azərbaycan SSR-in 1927-ci il CM-in 84-cü maddəsində metal sikkələrin, dövlət xəzinə biletlərinin, Dövlət Bankının biletlərinin və dövlət qiymətli kağızlarının bir peşə olaraq saxtasını hazırlamağa və ya satmaya, habelə xarici valyutanın saxtasını hazırlamaya və ya satmaya görə məsuliyyət müəyyən edilirdi. Göstərilən cinayəti törətməkdə təqsirli olanlar əmlakı müsadirə edilməklə güllələnmə cəzasına məhkum edilirdilər. Yüngülləşdirici hallar olduqda əmlakı tam və ya bir hissəsi müsadirə edilməklə ciddi şəkildə təcrid edilməklə iki ildən az olmayan müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulurdu.

Azərbaycan Respublikasının 1960-cı il CM-in 80-ci maddəsində dövlət xəzinə biletlərini, dövlət bank biletlərini, metal sikkələri, dövlət qiymətli kağızları və ya xarici valyutanı satma məqsədilə saxtakarlıqla hazırlama, habelə satmaya görə məsuliyyət müəyyən edilirdi. Göstərilən əməli törədənlər əmlakı müsadirə olunmaqla üç ildən on beş ilədək (sonralar on ildən on beş ilədək) müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılırdılar.

Hazırda müstəqil Azərbaycan Respublikasında qiymətli kağızlar bazarı Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qiymətli kağızlar bazarı haqqında Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

Qiymətli kağılar bazarının mahiyyət və məzmununu anlamaq üçün ilk növbədə qiymətli kağızın mahiyyətini dərk etmək lazımdır. Çünki, bu bazarın başlıca alətləri qiymətli kağızlardır. Bu baxımdan respublikamızda qiymətli kağızlar sahəsində qanunvericiliklə bir çox normativ-hüquqi aktlar müəyyən olunmuşdur. Beləki, 2000-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 987.1-ci maddəsində qiymətli kağıza aşağıdakı kimi tərif verilmişdir. Qiymətli kağız onun mülkiyyətçisi və emitenti arasında müqavilə münasibətlərinin mövcudluğunu və mülkiyyətçinin həmin müqavilədən irəli gələn hüquqlarını təsdiqləyən sənəddir.

Qiymətli kağızlar bazarında baş vermiş cinayətlərdən biri olan qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyanı nəzərdən keçirək. Respublikamızın hazırki Cinayət Məcəlləsinin 203-1.1-ci maddəsində qeyd edilir ki, qiymətli kağızlar bazarında manipulyasiyalar külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə - cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən üç mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu Məcəllənin 203-1.1-ci maddəsində “manipulyasiyalar” dedikdə, “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikası Qanununun 78.4-cü maddəsində nəzərdə tutulmuş hərəkətlər başa düşülür. Belə ki, həmin maddəyə əsasən Qiymətli kağızlar bazarında manipulyasiyalara aşağıdakılar aid edilir:

- qiymətli kağızların və törəmə maliyyə alətlərinin qiymətinə və ya onlara olan tələb və təklifə dair yanlış və ya aldadıcı məlumatlar verən və ya

verə bilən əqdlər bağlanması və ya tapşırıqlar (sifarişlər) verilməsi;

- əqdlər bağlanması və ya əqdlər bağlanması üçün tapşırıq verilməsi vasitəsilə bir və ya birgə hərəkət edən bir neçə şəxs tərəfindən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin qiymətinin süni səviyyədə saxlanılması və dəyişdirilməsi;

- saxta vasitələrdən istifadə etməklə, yaxud qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə saxtakarlıqla müşayiət olunan əqdlərin bağlanması və ya belə əqdlərin bağlanması üçün tapşırıq verilməsi;

- kütləvi informasiya və ya hər hansı digər vasitələrlə qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə dair yanlış və yayındırıcı təsəvvür yaradan və ya yarada biləcək xəbərlərin, şayiələrin və digər məlumatın yayılması.

CM-in şərh olunan maddəsində nəzərdə tutulmuş cinayətin obyekti qiymətli kağızların dövriyyəsi ilə əlaqədar yaranan iqtisadi münasibətlərdir. Əlavə obyekt qismində qiymətli kağızlar bazarının ayrı-ayrı iştirakçılarının, qiymətli kağız mülkiyyətçilərinin (sahiblərinin), habelə qiymətli kağızlarla bağlı digər subyektlərin əmlak mənafeləri çıxış edə bilər.

Təhlil edilən cinayətin ictimai təhlükəliliyi onun törədilməsi nəticəsində qiymətli kağızlar bazarının sabitliyinin pozula bilməsində, ayrı-ayrı fiziki və hüquqi şəxslərə maddi-iqtisadi ziyan vurulmasında, ölkədəki investisiya mühitinin pisləşməsində, bu əməl nəticəsində əldə olunan gəlirlərin gizli iqtisadiyyata, cinayətkarlığın (o cümlədən terrorçuluğun) maliyyələşdirilməsinə yönəldilə bilməsində ifadə olunur.

CM-in 203-1.1-ci maddəsinin dispozisiyası təhlil edilən cinayətin obyektiv cəhətinin aşağıdakı zəruri əlamətlərini təsbit etmişdir: 1) qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən əməl, yəni qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış və qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsi: 2) bu əməl nəticəsində külli miqdarda ziyan vurulması və ya külli miqdarda gəlir əldə edilməsi; 3) törədilmiş əməllə baş vermiş nəticə arasında səbəbli əlaqə.

Şərh edilən cinayət tərkibini yaradan ictimai təhlükəli əməl, normanın adından da göründüyü kimi, qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyanı ehtiva edir. Sözün hərfi mənasında manipulyasiya latın dilində «əl işi», «əllə edilən iş» mənasını verir və bir qədər məcazi mənada «ələ alma», «süni olaraq dəyişdirmə» kimi başa düşülür. Qiymətli kağızlar bazarında manipulyasiya isə müəyyən məqsədə nail olmaq üçün qiymətli kağızların qiymətinin süni olaraq dəyişdirilməsini ehtiva edir. Təkcə birja iştirakçıları deyil, qiymətli kağızlar bazarının digər iştirakçılan tərəfindən də törədilmiş belə əməllər müvafiq tərkib əlamətləri olduqda CM-in şərh olunan maddəsi üzrə məsuliyyətə səbəb olacaqdır.

Şəhr olunan normada qiymətli kağızlar bazarı dedikdə, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 15 may 2015-ci il № 1284-IVQ Qanununa əsasən, qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, mülkiyyətçiliyi, saxlanılması, kompensasiyası, öhdəliklərlə yüklənməsi, tənzimlənməsi və digər əməliyyatların həyata keçirilməsi üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusu başa düşülür.

Qiymətlərin süni olaraq dəyişdirilməsi qiymətli kağızların bazardakı dövriyyə qiymətinin iqtisadi və bazar amillərinin obyektiv təsiri altında deyil, ayrı-ayrı subyektlərin istəyi, subyektiv qərar və ya göstərişi əsasında həm artmasını, həm azalmasını, həm də obyektiv olaraq dəyişməli olduğu halda dəyişməməsini ehtiva edir. Qiymətlər iqtisadi və bazar amillərinin təsiri altında dəyişməli olduğundan daha sürətlə və ya əksinə, daha ləng dəyişdikdə də süni dəyişdirilmə mövcud olacaqdır. Lakin məzmunundan və səbəbindən asılı olmayaraq obyektiv, yəni sırf iqtisadi və bazar amillərinin təsiri ilə dəyişiklik bu norma üzrə cinayət məsuliyyətinə səbəb ola bilməz.

Qiymətli kağızların bazar qiymətinin əvvəlcədən razılaşdırılmaqla dəyişdirilməsi dedikdə, bu qiymətlərin dəyişdirilməsi barədə qiymətli kağızlar bazarının ən azı iki iştirakçısı arasında həmin qiymətlərin dəyişdirilməsinədək sövdələşmənin mövcud olması başa düşüləcəkdir.

Qiymətlərin qəsdən dəyişdirilməsi dedikdə, həmin qiymətlərin razılaşmaya gedən bazar iştı-

rakçılarının istəyinə uyğun istiqamətdə, onların arzuladığı kimi və onlann iradəsi əsasında dəyişdirilməsi nəzərdə tutulur.

Manipulyasiyanın qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilməsi dedikdə, bu əməlin həm qiymətli kağızlar bazarının öz daxili strukturunu, həm də bazar iştirakçılarının normal fəaliyyətini iflic edə bilməsi başa düşülməlidir. Normadan aydın olur ki, manipulyasiyanın bu əlaməti xeyli dərəcədə qiymətləndirici xarakter daşıyır və heç də hər bir halda cinayət məsuliyyətinin yaranması üçün təhlil edilən əməlin törədilməsi nəticəsində bazarın stabilliyinin pozulmasının baş vermiş olması vacib deyildir. Ona görə də qiymətli kağızlar bazarında arzuolunmaz proseslərin başlandığı, müəyyən iştirakçıların bazardan çıxanldığı, hər hansı iştirakçının bazarda hökmran mövqeyə sahibləndiyi hallarda digər tərkib əlamətləri də olduqda CM-in şərh olunan maddəsi ilə cinayət məsuliyyəti yaranacaqdır.

Eyni zamanda qeyd etmək lazımdır ki, İnzibati Xətalar Məcəlləsinin 419-cu maddəsində qiymətli kağızlar bazarında manipulyasiyalara görə inzibati məsuliyyət nəzərdə tutulur. Belə ki, həmin maddənin tələblərinin pozulmasına görə inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə edilir.

Bu maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 78.4-cü maddəsini nəzərdən keçirdikdə məlum olur ki, Qiymətli kağızlar bazarında sui-istifadənin müəyyən edilməsi və qarşısının alınması qaydasını maliyyə bazarlarına nəzarət orqanı müəyyən edir. İnsayd məlumatdan istifadə ilə qiymətli kağızlar bazarında əqdlər bağlanması və manipulyasiya halları barədə şübhə olduqda, investisiya şirkəti və fond birjası bu barədə maliyyə bazarlarına nəzarət orqanına dərhal məlumat verməlidirlər. Həmin məlumatın üçüncü şəxslərə açıqlanmasına yol verilmir. Lisenziyalaşdırılan şəxslərin, habelə lisenziya və ya icazə verilmiş investisiya şirkətlərinin filial və nümayəndəliklərinin dövlət reyestrini maliyyə bazarlarına nəzarət orqanı aparır. Dövlət reyestrinə lisenziyalaşdırılan şəxslərin, habelə lisenziya və ya icazə verilmiş investisiya şirkətlərinin filial və nümayəndəliklərinin adları, hüquqi ünvanları, onlara verilmiş və ləğv edilmiş lisenziya və ya icazələrin qeydiyyat nömrələri və tarixləri, fəaliyyətinə xitam verilməsi, investisiya şirkətlərinin göstərdiyi xidmətlər (əməliyyatlar) və fond birjasının ticarəti təşkil edəcəyi qiymətli kağız bazarlarının növləri və orqanlarının üzvləri barədə məlumatlar daxil edilir. Lisenziyalaşdırılan şəxslərin, habelə lisenziya və ya icazə verilmiş investisiya şirkətlərinin filialları və nümayəndəlikləri maliyyə bazarlarına nəzarət orqanı tərəfindən onlara müvafiq lisenziyaların və icazələrin verildiyi tarixdən etibarən dövlət reyestrinə daxil edilir.

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanunun qeyd olunan tələblərinə əsasən Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 29 sentyabr 2015-ci il tarixli 09-q nömrəli Qərarı ilə "Qiymətli kağızlar bazarında sui-istifadələrin qarşısının alınması haqqında" Qaydalar hazırlanmışdır.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, Qiymətli kağızlar bazarında sui-istifadə hallarına yol verilmir. Qiymətli kağızlar bazarında sui-istifadə hallarına insayd məlumatın istifadəsi ilə qiymətli kağızlar bazarında əqdlərin bağlanması və manipulyasiyalar aid edilir. Manipulyasiya anlayışına yuxarıda izah verilmişdir. İnsayd məlumat dedikdə isə açıqlanmamış, birbaşa və ya dolayı yolla bir və ya bir neçə emitentə, qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə aid olan və açıqlandığı təqdirdə qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin qiymətinə əhəmiyyətli dərəcədə təsir edə biləcək dəqiq xarakterli məlumat nəzərdə tutulur.

**İstifadə edilən mənbələr:**

1. Исаев И.А. История государства и права России: Учебник / И.А. Исаев. 3-е изд., перераб. и доп. М. Юристъ, 2004. С. 289-290.
2. Российское законодательство X – XX веков. В 9 т. Т. 5. М., 1987. С. 477.
3. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 15 may 2015-ci il № 1284-IVQ Qanunu URL: http://www.e-qanun.az/framework/30333
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. URL: http://www.e-qanun.az/code/11
5. Cinayət Məcəlləsinin Kommentariyası 100-353 maddələr, Hüquq yayım evi, 2015
6. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. URL: http://www.e-qanun.az/framework/46944
7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. URL: http://www.e-qanun.az/framework/46960
8. "Qiymətli kağızlar bazarında sui-istifadələrin qarşısının alınması haqqında Qaydalar"ın təsdiq edilməsi barədə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 29 sentyabr 2015-ci il tarixli Qərar 09-q nömrəli Qərarı URL: http://www.e-qanun.az/framework/32007
9. Əli Məhəmmədbağır oğlu Cavanbəxt Lalə. Saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma əməlləri ilə cinayət-hüquqi mübarizə (Azərbaycan Respublikası və İran İslam Respublikasının cinayət qanunvericiliyi üzrə) hüquq elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2010, s 10,11,18,19

**Агшин Ализаде**

**Развитие законодательства об ответственности за преступления, совершаемые на рынке ценных**

**Резюме**

В данной статье исследуются преступления, совершаемые на рынке ценных бумаг, в том числе манипуляции на рынке ценных бумаг, развитие законодательства об ответственности за эти преступления.

**Aqshin Alizade**

**Development of legislation on liability for crimes committed in the securities market**

**Summary**

This article examines the crimes committed in the securities market, including manipulations in the securities market, the development of legislation on liability for these crimes.

**SALEH RÜSTƏMOV**
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Ali Hərbi məktəbinin**
**Ümumqoşun fənləri və atəş hazırlığı kafedrasının rəisi,**
**dosent, polkovnik**
**E –mail: milanomaldini71@gmail.com**

# MİLLİ TƏHLÜKƏSİZLİYİN REGİONAL MARAQLARI

**Açar sözlər:** Eskalasiya, strateji, konseptual, transmilli,

**Key words:** escalation, strategic, conceptual, transnational.

**Ключевые слова:** Эсколация, стратегический, концептуальный, транснациональный.

Azərbaycan dövlətinin, baş vermiş işğalla hüç bir şərtlə barışmayacağı münaqişənin ilk günlərindən və hər kəs üçün aydın idi. Lakin Azərbaycan dövlətinin münaqişəni sülh yolu ilə həlli üçün göstərdiyi səylər, Ermənistan tərəfindən hərbi-siyasi zəiflik kimi başa düşülürdü. Mütəmadi olaraq atəşkəs rejiminin pozulması, təmas xəttində gərginliyin eskalasiyası və Ermənistan siyasi rəhbərliyinin sərsəm bəyanatları sonda Azərbaycan dövlətinin bu problemi hərbi yolla həll etməsinə gətirib çıxartdı. Məqalədə işğal edilmiş torpaqlarının azad edilməsinin, təkcə Azərbaycan üçün deyil, həmçinin ümumilikdə region dövlətlərinin inkişafının təmin edilməsində də əhəmiyyətli rolundan bəhs olunur.

**Giriş.**

20-ci əsrin 90-cı illərinin əvvəlində, SSRİ-nin süqutundan sonra, yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikasının müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi patnyorlarla birbaşa ünsiyyətin yaranması, tamamilə fərqli bir təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai, siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər Azərbaycanda şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxardı. Vahid İttifaq çərçivəsində və ümumi sərhədlər daxilində yaşanıldığından, Azərbaycan Respublikasının Ermənistanla faktiki olaraq heç bir hərbi, mühəndis və texniki vasitələrlə təchiz edilmiş "sərhədi" olmadığından, Ermənistanın işğalçı siyası qüvvələri xarici havadarlarının, o cümlədən erməni lobbisinin maliyyə dəstəyindən yararlanaraq o zamankı Dağlıq Qarabağın müstəqilliyini elan etmək və Ermənistana birləşdirilməs xülyasına düşmüşdürlər.

1992-1993-cü illərdə Azərbaycanda siyasi hakimiyyətdə olan AXC-nin səriştəsiz, yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində Dağlıq Qarabağın və ətraf rayonların erməni qəsbkarları tərəfindən işğal olunması mümkün oldu.

Milli Lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra, bu işğal dayandırıldı, atəşkəs barədə razılıq əldə edildi, və uzunmüddətli, çətin və yüksək peşəkarlıq tələb edən Ordu quruculuğu prosesinə başlanıldı.

Milli Lider Heydər Əliyevin siyasi kursunun davamçısı İlham Əliyev bu prosesi uğurla başa çatdırdı və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olaraq, nəticə edtibarı ilə 2020-ci ilin sentyabr – noyabr aylarında, cəmi 44 gün ərzində, işğal olunmuş torpaqların azad edilməsini təmin etdi, və artıq 8 noyabr, tarixin yaddaşına Azərbaycan xalqının "Zəfər günü" kimi həkk olundu.

**Əsas hissə. Milli təhlükəsizliyin formalaşmasının amilləri.**

*"Lustum enim est bellum quibis necesserium, et pia arma ibi nulla nisi in armis spes est"**

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsaslarını müəyyən edən təhlükəsizlik konsepsiyasının yaranması və təhlükəsizlik siyasətinin tam formalaşdırılması üçün müəyyən müddət tələb olunurdu. Milli Təhlükəsizlik Konsepsiyasının qəbul olunmasından əvvəl Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2004-cü ildə "Milli təhlükəsizlik haqqında" qanun qəbul olunmuş və ölkə Prezidentinin 2004-cü il 29 iyun tarixli sərəncamı ilə təsdiq olunmuşdur.

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində, uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq olunmuşdur.

Milli təhlükəsizlik siyasəti təkcə ölkənin ona məxsus maraqları və onların təmin edilməsi ilə deyil, həm də yerləşdiyi regionda və ümumən dünyada təhlükəsizlik mühitinin yaxşılaşmasına xidmət göstərməlidir. Bu anlamda Azərbaycanın təhlükəsizlik siyasətinin məqsədi və istiqamətləri sırasına həm də sabit, ədalətli və demokratik dünya mühiti naminə beynəlxalq proseslərə müsbət təsir göstərmək, dövlətlər arasında bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq münasibətlərinə töhfə vermək kimi məsələlər də daxildir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasını "Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu"-nun 1-ci maddəsində göstərildiyi kimi, - " Azərbaycan Respublikasının milli təhlükəsizliyi - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir." – fikri təşkil edir. [1,fəsil 1]

Buradan göründüyü kimi, ən ağrılı və aktual məsələ "ərazi bütövlüyü" amilinin uzun illərdən bəri həll olunmaması idi. Lakin Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü təmin etmək istəyi təkcə Azərbaycanda deyil, həm də Cənubu Qafqaz regionunda sabitliyin, əmin-amanlığın, qarşılıqlı əməkdaşlığın, iqtisadi inkişafın və s. məsələlərin həlli üçün zəmin yaradırdı.

Azərbaycan mühüm coğrafi və geosiyasi əhəmiyyəti olan bir regionda yerləşir. Onun tutduğu geosiyasi, geoiqtisadi və geostrateji mövqe, yürütdüyü daxili və xarici siyasət dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur və onların diqqətindən kənarda qalmır. ABŞ və Qərbi Avropanın böyük ölkələri, regionun Rusiya, Çin, Türkiyə, İran kimi böyük dövlətləri və b. geosiyasi faktorlar Cənubi Qafqazda, Orta Asiya və bütövlükdə Avrasiyada öz maraqları çərçivəsində fəal geosiyasət reallaşdırır ki, bu da Azərbaycanın həm regional, həm də beynəlxalq maraqlarından yan keçmir.

Azərbaycanın hərbi-geostrateji vəziyyəti, bu sahədə yürütdüyü siyasət və atdığı addımlar həm Qərbin, xüsusilə ABŞ, AB və NATO-nun, həm də Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində dayanır. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə balanslı, tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları onun təhlükəsizlik mühitinə və beynəlxalq imicinə təsirsiz ötüşmür.

Son illər ərzində Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan milli və transmilli enerji lahiyələri nəinki regionda, həmçinin beynalxalq aləmdə onun müsbət imicini yüksəltmiş və dünyanın əsas güc mərkəzlərinin diqqətini ona cəlb etmişdir. Deyilənlərə əsas kimi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin, 13.04.21-ci il tarixdə ADA Universitetində keçirilən ***"Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq"*** adlı beynəlxalq konfransda ",..Bizim regionda beynəlxalq səylərimiz yeni əməkdaşlıq formatlarının yaranmasına gətirib çıxardı. Türkiyə-Rusiya, Türkiyə-İran, Gürcüstan-Türkiyə, Rusiya-İranla artıq üçtərəfli əməkdaşlıq var..." – fikrini göstərmək olar.[4]

Ermənistanın rəhbərliyinin işğal siyasətini davam etdirməsi, ilk növbədə elə onun özünün adı

---

* "Müharibə - zəruri olduğu zaman, haqlı bir müharibədir və o silah müqəddəsdir ki, əzilənlərin ondan başqa ümid yeri olmasım" (*lat.*) N.Makiavelli "Hökmdar" [2, 157]

çəkilən layihələrdən təcrid olunmasına, ölkənin iqtisadiyyatının dağılmasına və əhalinin səfalət halına düşməsinə gətirib çıxartmışdır. Bu barədə, 21.10.2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Yaponiyanın ***"Nikkei"*** qəzetinə müsahibəsində geniş və ətraflı şəkildə məlumat vermişdir. "- Bəli, əlbəttə ki, sülh regiondakı vəziyyəti tamamilə dəyişəcək... Baxın, biz birlikdə nə qədər layihə icra etmişik, neftin nəqli, qazın nəqli, elektrik enerjisinin nəqli, dəmir yolu bağlantısı, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və bir çox başqa layihələr...Danışıqlar aparılan zamanı əvvəlki Ermənistan hökumətinə mesajlar göndərilmişdir ki, onlar işğala son qoyduğu təqdirdə Azərbaycan Dağlıq Qarabağda müxtəlif sosial və iqtisadi layihələri icra edə bilər. Bu mesajlar Minsk qrupunun həmsədrləri vasitəsilə Ermənistanın əvvəlki prezidentlərinə göndərilmişdir və onlar bunları rədd etmişdir. Bu gün Dağlıq Qarabağda insanlar yoxsulluq içində yaşayırlar. Bilirsiniz, orada tam işsizlik, yoxsulluq hökm sürür və infrastruktur dağıdılıb. Biz sərmayə yatırmağa hazır idik. Lakin biz dedik ki, əraziləri boşaldın və biz sizə kömək edərik. Bu gün biz özümüz əraziləri azad etdikdə, əlbəttə ki, biz o insanlara, Dağlıq Qarabağda yaşayan ermənilərə və sözsüz ki, bu ərazini yenidən qurmaq üçün qayıdacaq azərbaycanlılara kömək edəcəyik. Lakin əgər Ermənistan konstruktiv addımlar atsa və əraziləri boşaltsa, əlbəttə ki, biz bütün kommunikasiyaları açacağıq." [3]

Münaqişənin ən qısa zamanda başa çatdırılması, davamlı sülhün əldə edilməsi və təhlükəsizlik mühitinin təmin edilməsi nəinki Azərbaycan Respublikasının milli maraqlarına və Cənubu Qafqaz regionunun gələcək perspektivdə inkişafına, hətta AB ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Azərbaycanın hərbi-geostrateji durumu, bu sahədə yürütdüyü siyasət və atdığı addımlar həm Qərbin, xüsusilə ABŞ, AB və NATO-nun, həm də Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində dayanır. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə balanslı, tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları onun təhlükəsizlik mühitinə və beynəlxalq imicinə təsirsiz ötüşmür.

Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olması və öz milli sərvətlərini insanların rifahı, dünyada sülhün və iqtisadi inkişafın təmin olunması naminə istifadə etməsi, XXl əsrdə artan enerji və nəqliyyat-kommunikasiya ehtiyaclarını təmin etmək məqsədi güdən nəhəng transmilli enerji layihələrinin əsas təşəbbüskarı olması onun müsbət imicini yüksəltmiş və dünyanın əsas güc mərkəzlərinin diqqətini ona cəlb etmişdir. "Əsrin müqaviləsi" çərçivəsində 1994-cü ildən etibarən çoxsaylı xarici tərəfdaşlarla birgə Azərbaycan Xəzər dənizində özünün zəngin neft və qaz yataqlarının istismarına başladı. ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Türkiyə, İtaliya, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanının nəhəng şirkətləri ilə neft və qaz müqavilələri bağladı və transmilli enerji layihələri reallaşdırıldı.

13.04.21-ci il tarixdə ADA Universitetində keçirilən ***"Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq"*** adlı beynəlxalq konfransda, Beynəlxalq Böhran Qrupunun Türkiyə nümayəndəliyindən olan Nigar Gökselin :"...İnşallah bir gün yanaşı, sülhməramlılar olmadan yaşaya bilməsi üçün Ermənistan tərəfdən, eləcə də Qarabağdakı ermənilərdən hansı addımları gözləyirsiniz..."- sualına Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cavab verərək bildirmişdir: " ... Biz onların niyyətlərinin nə olduğunu bilmirik. Onlar heç vaxt bu barədə ətraflı məlumat verməyiblər. Mən artıq dəfələrlə açıq şəkildə bildirmişəm ki, biz münaqişə səhifəsini bağlanmış hesab edirik. Biz, hətta Ermənistanla mümkün sülh razılaşması barədə danışa bilərik və mən bunu bir neçə dəfə demişəm. ... Lakin Prezident olaraq, gələcəyə baxan bir şəxs olaraq, əgər Ermənistan bizə müsbət işarələr versə, biz bu əlaqələri qura bilmək üçün hər şeyi edərik. Bizim tərəfimizdən birtərəfli qaydada edilənlər, mən artıq qeyd etmişəm, bunun aydın göstəricisidir. ...Bildiyiniz kimi, bu gün biz kommunikasiyanın açılmasını, xüsusilə Zəngəzur dəhlizini müzakirə edirik və Zəngəzur dəhlizi Türkiyənin razılığı və onların iştirakı olmadan açıla bilməz. Baxmayaraq ki, Türkiyə Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupunda iştirak etmir, Türkiyə müzakirələrlə bağlı bizim tərəfimizdən məlumatlandırılır və əgər Ermənistan kommunika-

siyalarla bağlı çətinliklərə son qoymaq istəyirsə, onlar tranzit ölkə olmaq üçün hər hansı imkana malik olmaq istəyirlərsə, yalnız Türkiyə onları bununla təmin edə bilər...” [4]

Azərbaycanın bir çox əhəmiyyətli enerji, nəqliyyat-kommunikasiya və tranzit yükdaşıma - Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizi (TRASEKA və Böyük İpək yolu), Bakı-Tbilisi-Qars dəmiryolu və s. layihələrində iştirakı onun nəinki regiondakı geoiqtisadi əhəmiyyətini artırdı, həm də beynəlxalq enerji-nəqliyyat təhlükəsizliyinin təmin olunmasında mühüm rolu olan ölkələrdən birinə çevirdi. Mərkəzində Azərbaycanın dayandığı TRASEKA layihəsinin Hindistandan və Çindən başlayaraq Portuqaliya və İspaniyaya qədər böyük bir coğrafi ərazidə yerləşən Avropa və Asiya dövlətlərini, Cənub-Şərqi Asiyadan Avropa İttifaqına qədər nəhəng iqtisadi güc mərkəzlərini əhatə etməsi və ən əlverişli marşrutla birləşdirməsi regional və beynəlxalq təhlükəsizliyin təmin olunması üçün böyük töhfədir.

Xəzər dənizinin o tayında olan qonşu dövlətlərlə münasibətlər uğurla inkişaf edir və onların hər biri ilə konkret əməkdaşlıq istiqamətimiz mövcuddur. Burada ən böyük hissə nəqliyyatla əlaqəlidir. Azərbaycan Türkiyə ilə dəmir yolu bağlantısı, dəniz limanı və avtomagistrallar kimi bütün nəqliyyat və logistika layihələrini tamamladıqdan sonra artıq önəmli nəqliyyat qovşağına çevrilib. Açıq dənizə çıxışının olmamasına baxmayaraq, Azərbaycan şərq-qərb və cənub-şimal nəqliyyat dəhlizlərində fəal iştirak edir.

Beləliklə, regionda icra oluna biləcək bütün milli və transmilli iqtisadi lahiyələrin məhz Azərbaycanın iştirakı ilə mümkün olması, onun həm siyasi, həm də iqtisadi əhəmiyyətinin nə dərəcədə vacib olduğunu, və bunun əsas təminatçısı olan, milli təhlükəsizliyin təmin edilməsinin, cənubi Qafqaz regionu üçün başlıca amil olduğunu əyani şəkildə sübut edir.

**Nəticə.**

Azərbaycan müstəqil bir dövlət olaraq beynəlxalq hüququn subyekti kimi, müasir dünyanın bir hissəsidir; BMT, ATƏT, Avropa Şurası, İKT, MDB, GUAM, EKO, TDB və s. kimi böyük və kiçik beynəlxalq, regional təşkilatların üzvüdür. Siyasi, sosial-mədəni baxımdan nüfuzlu beynəlxalq strukturlara hərtərəfli inteqrasiya xətti yürüdür, çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuşdur. Eyni zamanda Azərbaycan öz hərbi potensialını beynəlxalq standartlar səviyyəsinə çatdırmış və 30 il ərzində Minsk qrupunun siyasi yolla həll edə bilmədiyi münaqişəni, tam haqqı olaraq, hərbi yolla, cəmi 44 gündə öz xeyrinə həll edə bildi.

Bu gün, qələbədən sonrakı dövrün yeni reallıqları, cənubi Qafqaz regionunun hərtərəfli inkişafının perspektivləri üçün, böyük imkanlar yaradır. İşğal müddətində erməni faşizmi tərəfindən xüsusi vəhşiliklə talan edilmiş şəhər və kəndlərimizin mədəni, sosial infrastukturunun bərpası və yenidən qurulması işində reqion dövlətlərinin (Türkiyə, İran, Rusiya), həmçinin Pakistan və İsrail kimi ölkələrin də böyük iqtisadi maraqları vardır.

Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyevin apardığı düşünülmüş xarici siyasəti və transmilli iqtisadi lahiyələrin qurulması bir daha sübut etdi ki, Azərbaycanın milli təhlükəsizliyi təkcə bizim deyil, həm də bütövlükdə regionun hərtərəfli inkişafı üçün cəlbedici perspektivlər açır.

Bu təhlükəsizliyin uzunmüddətli və səmərəli olması üçün, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin, 12.04.2021-ci il tarixdə “Hərbi qənimətlər parkının” açılışında erməni revanşist qüvvələrinə ünvanladığı xəbərdarlığı xatırlatmaq yerinə düşərdi:- “... Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər, dəmir yumruq yerindədir, lazım olarsa, bunların başını elə əzərik və buna əbədi son qoyulacaq.” [5]

**Ədəbiyyat:**

1. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu.29.06.2004. №712-II Q
2. Nikolo Makiavelli. “Hökmdar”. http://dgk.nmr.az. Media. Files.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Yaponiyanın “Nikkei” qəzetinə müsahibəsi. https://president.az/articles/43836.

4. https://report.az/daxili-siyaset/prezident-ilham-eliyevin-cixisi/
5. https://president.az/articles/51067 Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin çıxışı.

**Салех Рустамов**

**Региональные интересы национальной безопасности**

**Аннотация**

С первых дней свой независимости, Молодое Азербайджанское государство оказавшиеся сначала лицом к лицу с угрозой национальной безопасности, а потом и вовсе с открытой вооруженной агрессией, в течении долгих лет вынуждена была обеспечивать свою безопасность на основе тяжелых реалий. Невыполнение Арменией 4-х известных резолюций ООН, а также непродуктивная деятельность Минской группы (США, Франция, Россия) создавала большие проблемы для решения таких вопросов, как: политические процессы в регионе, экономическое развитие, улучшение социального благосостояния боле одного миллиона вынужденных переселенцев, лишившихся своих исконных земель в результате захватнической политики Армении.

То что, Азербайджанское государство ни при каких условиях не смирится с фактом агрессии, было ясно для всех еще с первых дней конфликта. Но все попытки для решения конфликта мирным путем, с Армянской стороны воспринималось как военно-политическая слабость Азербайджанского государства. Непрерывное нарушение режима прекращения огня, эскалация напряженности на линии соприкосновения а также сумасшедшие заявления политического руководства Армении, в итоге привели к тому, что Азербайджанское государство вынуждено было решить эту проблему военным путем.

В статье повествуется о значимой роли освобождении захваченных земель не только для Азербайджана, но и для развития стран данного региона в целом.

**Saleh Rustamov**

**Regional interests national sekuriti**

**Abstract**

From the first days of independence, the national security of the azerbaijani state was threatened. Later, our country was openly subjected to armed agression. The azerbaijani state had to ensure its sekurity for a lonq time and in difficult conditions. Armenian s fulfillments of the reguirements of the UN resolutions and the in effektiveness of the Minsk Group, the political processes in region, economic development and the occupation policy of Armenia have deprived more than one million IDP-s of their ancestral lands.

The Azerbayjani state did not reconcile with the occupation under any circumstances. Thizs was clear from the first days of conflict. Havever the azerbayjani state tried to resolve the conflict peacefully Armenia understand this as a military-political weakness. The ceasefire was constantly violated, tensions had risen on the line of contact. The armenian political leadership made false statements azerbaijan had to solve the problem by military means. The article emphasires the important role of the liberation of the occupied territories not only for Azerbaijan but also for the development of the region as a whole.

УДК 343.

**ШАХИН ШУКЮРОВ**
**Доцент кафедры «Административной деятельности в ОВД» Академии Полиции МВД Азербайджанской Республики, доцент, доктор философии по праву, полковник полиции**
**shahin1967@mail.ru**

# НЕКОТОРЫЕ НАПРАВЛЕНИЯ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА НА ОСНОВЕ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ АКТОВ В БОРЬБЕ ПРОТИВ ТОРГОВЛИ ЛЮДЬМИ

**Açar sözlər:** beynəlxalq əməkdaşlıq, əməkdaşlığın istiqamətləri, insan alveri, beynəlxalq cinayəti, beynəlxalq cinayət hərəkəti, insan alverinə qarşı mübarizə.

**Ключевые слова:** международное сотрудничество, направления сотрудничества, торговля людьми, международное преступление, международное преступное явление, борьба с торговлей людьми.

**Key words:** international cooperation, directions of cooperation, human trafficking, international crime, international criminal phenomenon, combating human trafficking, prevention**.**

Торговля людьми представляет собой современную форму нарушения конституционных прав человека, которая является преступлением, как против личности человека, так и против государства. Торговля людьми является преступлением против безопасности государства. Торговля людьми является глобальной проблемой, которая не признает границ. Таким образом, она является международным преступлением и для борьбы с торговлей людьми требуются международные методы, использующие международное сотрудничество для оказания взаимной помощи для внутригосударственного уголовного права. Стремление развитых государств, сознательного мирового сообщества объединить свои возможности и усилия, определив общую цель собрать воедино интересы сформировать задачи по борьбе с преступностью. В научной статье на тему «Некоторые направления международного сотрудничества на основе международно-правовых актов в борьбе против торговли людьми» обосновывается актуальность выбранной темы, определятся цель исследования, излагается материал исследования, используя ряд научных методов, в заключение приводится ряд предложений по совершенствованию данной области и список использованной литературы. В статье наблюдается попытка обращения к некоторым направлениям международного сотрудничества в борьбе против торговли людьми на основе международно-правовых актов в этой области. Обосновывая актуальность научной статьи, хотелось бы указать о том, что сильно поднялся интерес к международному сотрудничеству в борьбе с преступностью, в особенности борьбе с торговлей людьми. Международное сотрудничество является одним из основных условий обеспечения успеха в противодействии торговле людьми, для усиления борьбы на преступность со стороны правоох-

ранительных органов, где в помощь к усилиям на внутригосударственном уровне, необходимы многосторонние соглашения.

Обосновать направления международного сотрудничества, как из эффективных в борьбе с торговлей людьми, обратиться к историческим аспектам развития и формирования международно-правовых основ направленных на борьбу с торговлей людьми, рассмотреть подходы к исследованию проблем торговли людьми, взаимосвязь на различных уровнях и предложить ряд предложений по деятельности в борьбе с торговлей людьми.

Нормативно-правовую основу научной статьи составило: декларация, соглашение, международные конвенции, принятые в целях борьбы с торговлей людьми. В ходе работы по теме научной статьи использовались как общий, диалектический метод, так и частнонаучные методы познания: исторический, логический, системно-структурный, сравнительно-правовой.

Существует ряд направлений взаимосвязи и взаимного сотрудничества между государствами, внутри государства, государственными структурами и институтами гражданского общества. На современном этапе институт международного сотрудничества сильно и глубоко эффективно наблюдается во всех отраслях нашей жизни, в особенности в борьбе с преступностью, в зависимости от ее актуальности, опасности для мирового сообщества и человечности, необходимости предотвращения и предупреждения тяжести последствий. Международное сотрудничество в борьбе с преступностью, в особенности по борьбе с торговлей людьми по полномочиям относительности все более близко и компетентно к правоохранительным органам.

Международное сотрудничество является одним из основных условий успеха любых мер по борьбе с торговлей людьми. Рост числа двусторонних, региональных и глобальных соглашений отражает осознание того факта, что эффективно вести борьбу с транснациональной преступностью можно на основе сотрудничества правоохранительных и судебных органов. [4,с.25]

Уместно обратиться к историческим аспектам международного сотрудничества по борьбе с преступностью.

Сотрудничество на международном и межгосударственном уровне по противодействию преступности не является новой тенденцией общества, оно возникло еще в 1296 г. до нашей эры в виде договора между Рамсесом II и Хаттушилем III. Данные направления сотрудничества формировались и сопровождались расширением видов преступлений, с которыми различные государства достигали определенного успеха, в том числе в виде подписания договоров или конвенций. [3,с.17]

Приоритетным и фундаментальным для дальнейшего развития отношений в этой сфере предопределяют узы, связи между государствами, которые устанавливают дальнейшие установки.

Международное сотрудничество в борьбе с преступностью видится правомерным рассматривать как совокупность отношений, устанавливаемых между государствами в целях борьбы с преступлениями, затрагивающими интересы двух или более государств, либо расследование которых требует участие иных, кроме места совершения преступления, государств. Международное сотрудничество в борьбе с преступностью – это отношения между государствами и международными организациями, основанные на нормах международного права, по предупреждению, выявлению, пресечению, расследованию, судебному рассмотрению преступлений и исполнению наказаний за них.[3,с.152]

Международное сотрудничество является одним из основных условий для достижения успеха в противодействии торговле людьми. Различные виды противозаконной торговли, включая торговлю людьми, осуществляются с пересечением национальных границ, и с ними невозможно бороться без объединения международных усилий и международного сотрудничества.

Увеличение числа соответствующих региональных и глобальных соглашений отражает осознание того факта, что борьба с трансна-

циональной преступностью должна вестись посредством международного сотрудничества. Поскольку преступные группы оперируют, пересекая государственные границы, точно так же должны действовать и системы судебных органов.

Ряд конвенций Организации Объединенных Наций и региональных документов образуют международно-правовую основу, на базе которой государства должны формулировать собственные законы, для того чтобы эффективно решать проблему торговли людьми. Эти правовые документы, кроме того, обеспечивают инструментарий для государств, желающих сотрудничать друг с другом по различным аспектам борьбы с торговлей людьми. Самое непосредственное отношение к этим вопросам имеют:

• Конвенция против организованной преступности;

• Протокол о торговле людьми;

• Протокол против незаконного ввоза мигрантов.

На современном этапе среди преступлений в борьбе, с которыми определяются наиболее тесные взаимоотношения между государственными и неправительственными структурами особенно наблюдается торговля людьми.

Торговля людьми осуществляется во многих различных формах. Она динамична, способна к адаптации и, подобно многим другим формам преступной деятельности, постоянно меняется, чтобы противодействовать усилиям правоохранительных органов по ее предотвращению. Международное сотрудничество, имеющее столь важное значение для успешной реализации большинства мер борьбы с торговлей людьми, набирает новую силу. Разрабатываются также новые механизмы сотрудничества.

Торговля людьми– это сложная проблема, вызванная взаимозависимыми экономическими, социальными, политическими и личными факторами. Она включает в себя эксплуатацию людей путем силы, принуждения, похищения, обмана, превышения полномочий или использования уязвимости, и может включать в себя действия, которые квалифицируются как нарушение прав человека. Торговлю людьми называют современным рабством, а также серьезным нарушением прав человека. Согласно Организации Объединенных Наций, торговля людьми является глобальным преступным бизнесом, который касается каждой страны в мире. [7,с.21]

История создания норм международного права, направленных на борьбу с торговлей людьми, уходит своими корнями во времена, когда рабство и работорговля существовали как социальное явление. Распад рабовладельческой общественно-экономической формации не привел автоматически упразднению рабства. [8,с.59]

Проблема торговли людьми в прошлом неоднократно привлекала внимание международного сообщества и отдельных государств. Законодательство о противодействии торговле людьми представлено рядом международных конвенций и деклараций, направленных на объединение усилий всех государств на борьбу с торговлей людьми, рабством и его проявлениями. В фокусе таких документов были в первую очередь женщины и дети, которые часто становятся объектами насилия и торговли людьми, в том числе с целью сексуальной эксплуатации. С начала XX века принято несколько международных правовых актов по данной проблеме, в том числе, Конвенция 1904г. "О торговле белыми рабынями" и Конвенция ООН 1949г. "О борьбе с торговлей людьми и эксплуатацией проституции третьими лицами" (СССР присоединился к последней Конвенции в 1953г. с известной оговоркой, что в Советском Союзе устранены социальные условия, порождающие проституцию, но он поддерживает усилия мирового сообщества по борьбе с данными преступлениями).[9, с. 12]

Основополагающим документом по вопросам борьбы с торговлей людьми является принятая Генеральной Ассамблей ООН 21 марта 1950 года Конвенция о борьбе с торговлей людьми и эксплуатацией проституции третьими лицами. Данная Конвенция закрепляет

необходимость рассматривать торговлю людьми как преступление, влекущее за собой выдачу, и на него распространяется любой договор о выдаче преступников, который был или будет заключен между любыми сторонами данной Конвенции. Конвенция усмотрела механизм сотрудничества государств посредством судебных властей, между министрами юстиции государств, а также посредством дипломатических и консульских представителей.[8,с.60]

Активная борьба с рабством и подневольным состоянием людей развернулась после Второй Мировой войны с принятием Всеобщей Декларации прав человека («Никто не должен содержаться в рабстве или подневольном состоянии; рабство и работорговля запрещаются во всех их видах»), дополнительной Конвенции 1956 года об упразднении рабства, работорговли и институтов и обычаев, сходных с рабством, и других международно-правовых документов.[1,с.10-11]

На протяжении последнего десятилетия международные организации, неправительственные организации и правительства осознали, что борьба с растущей тенденцией торговли людьми требует общего и всестороннего подхода с упором, как на уголовный, так и на гуманитарный аспект преступления. Приверженность такому подходу отражена в различных инструментах и документах по соблюдению прав человека, среди которых следует отметить Протокол ООН о предупреждении и пресечении торговли людьми, особенно женщинами и детьми, и наказании за нее от 2000 года, дополняющий Конвенцию ООН против транснациональной организованной преступности и Конвенцию Совета Европы о противодействии торговле людьми от 2005 года.[5,с.9]

Торговля людьми представляет собой сложное международное преступное явление, борьба с которым требует высокого профессионализма, квалификации и информированности. Подходы к исследованию проблем торговли людьми могут рассматриваться с точки зрения борьбы с организованной преступностью, решения проблем легальной и нелегальной миграции, как социально-экономической и моральной проблемы, как проблемы, связанной с проституцией, и проблемы нарушения прав человека.

В последние годы существенно активизировалось сотрудничество стран Содружества Независимых Государств в борьбе с торговлей людьми. Нормативно-правовой основой такого сотрудничества стало Соглашение о сотрудничестве государств-участников Содружества Независимых Государств в борьбе с торговлей людьми, органами и тканями человека, утвержденное главами государств-участников Содружества 25 ноября 2005 г. [2,с.32]

Торговля людьми является международным преступлением, которое требует активного противодействия со всех сторон. Страны мира должны развернуть широко дисциплинарные и многоуровневые стратегии для борьбы против сетей организованной преступности, действующих в глобальном масштабе. Государственные органы и неправительственные организации должны сотрудничать для того, чтобы торговцы людьми нигде и никогда не смогли найти убежище от правосудия. Без таких согласованных и скоординированных действий торговля людьми никогда не прекратится и даже не уменьшит своих масштабов. [6,с.18]

Торговля людьми считается сложной, непростой для расследования, а также растущей глобальной преступной деятельностью. Правоохранительные органы играют ключевую роль в предотвращении этой преступной деятельности и борьбе с ней.[7,с.14]

В своей практической деятельности по противодействию торговле людьми правоохранительные органы России руководствуются рекомендациями, разработанными международными организациями и принятыми в ходе различных форумов (Европейским союзом, ОБСЕ, Советом Европы, Будапештского процесса, Советом государств Балтийского моря, ЧЭС). [2,с.21]

В стране создана разветвленная сеть учре-

ждений социального обслуживания населения, среди которых особое место занимают учреждения социального обслуживания семьи и детей, находящиеся в ведении органов исполнительной власти субъектов Российской Федерации.

Отдельным важным вкладом в противодействие торговле людьми является сотрудничество с международными и неправительственными организациями, а также общественными центрами по оказанию помощи жертвам торговли людьми, (например, Центром помощи пострадавшим от сексуального насилия «Сестры» и Коалицией «Ангел» (г. Москва), Центром против насилия и торговли людьми (г. Пермь), Байкальским центром правовых реформ (Иркутская область). [2,с.22]

В настоящее время в мировом сообществе сложилась определенная система международного сотрудничества по борьбе с преступностью. При этом в сферу международного сотрудничества включен широкий круг вопросов: от предупреждения преступлений до исполнения уголовного наказания, а также обеспечения прав и свобод лиц, привлекаемых к уголовной ответственности. [3,с.150]

Следует отметить, что в международном сотрудничестве по борьбе с преступностью, наряду с государственными полицейскими органами, участвуют неправительственные организации, которые выполняют вспомогательную функцию и позволяют формировать научную и правовую основу данного направления международной деятельности.

Принимая во внимание, что право – это система норм, выраженных в законах, иных нормативных правовых актах, в международном сотрудничестве по борьбе с преступностью следует выделить такой важный момент: эта сфера отношений регулируется, кроме норм международного права, национальными законами и иными нормативными правовыми актами. [3,с.151]

Подытоживая, научную статью для достижения положительных результатов в этой области и совместной деятельности в борьбе с торговлей людьми хотелось бы выдвинуть ряд предложений:

- создание централизованного органа в рамках СНГ по вопросам организации противодействия торговле людьми;
- проведение совместных научно-организационных мероприятий направленных на противодействие торговле людьми;
- создание центров для подготовки специалистов по противодействию с торговлей людьми;
- совершенствование и развитие международных и внутренне государственных правовых основ по противодействию и борьбы с торговлей людьми.

**Список использованной литературы:**


1. Глотов С.А., Сальников С.В. Противодействие торговле людьми: правовое регулирование, зарубежная и отечественная практика.— М.: Международный юридический институт, 2009. 232 стр. http://www.spbredcross.org/images/docs/Counteraction-to-human-trafficking.pdf
2. Материалы Международной конференции «Совершенствование международного сотрудничества в противодействии торговле людьми» – М.: Либра-К, Москва, 2009 г. Опубликовано Бюро Международной организации по миграции (МОМ) в Москве, Российская Федерация. www.legislationline.org
3. Международное сотрудничество в сфере борьбы с преступностью// Сборник материалов международной научно-практической конференции–М.: Изд-во МЮИ, 2012. 336стр. http://lawacademy.ru/upload/iblock/b26/ioawktahqlkob%20ehyerkgnrkdgrc%20n%20foinc%20jjncku%20s%20vfgxkovoffvsw.pdf
4. Набор методических пособий по вопросам борьбы с торговлей людьми. Глобальная программа по борьбе с торговлей людьми. Управление Организации Объединенных Наций по

наркотикам и преступности. Вена. Организации Объединенных Наций. Нью-Йорк, 2006 год. Издание Организации Объединенных Наций. 252 стр. https://www.unodc.org/ documents/human-trafficking/HT-toolkit-ru.pdf
5. Обзор законодательства Республики Молдова в области борьбы с торговлей людьми. Варшава, 14 декабря 2011 года. 53 стр. www.legislationline.org
6. Стандартные правозащитные принципы обращения с лицами, пострадавшим от торговли людьми. Под ред. Ф.Л. Синицына. Пермь. ИД «Типография купца Тарасова», 2002, 32 стр. http://www.gaatw.org/books_pdf/HRS_Russian.pdf
7. Справочное руководство ОБСЕ по обучению полиции: Торговля людьми. Серия публикаций ДТУ/ОСВПД, том 12 ■ Организация по безопасности и сотрудничеству в Европе (ОБСЕ) Вена, июль 2013 г. © ОБСЕ, 2013/Секретариат ОБСЕ/ Департамент по транснациональным угрозам. Отдел стратегических вопросов полицейской деятельности. 209 стр. http://www.osce.org/spmu http://polis.osce.org
8. Тукубашева А.И. Торговля людьми: международно-правовой аспект: Вестник КРСУ. 2015. Том 15. № 1. Государство и право. 59-62 стр. https://e.lanbook.com/reader/journal Article/165434/#1
9. Торговля людьми в Российской Федерации. Обзор и анализ текущей ситуации по проблеме. Москва. 2006 год – Обзор текущей ситуации и ответных мер по противодействию торговле людьми в Российской Федерации. Доклад подготовлен Е.В. Тюрюкановой совместно с Фондом «Институт экономики города» для рабочей группы агентств ООН и Международной организации по миграции (МОМ) по проблемам торговли людьми. Москва. 2006 год. 161 стр.

**Sh.T.Shukurov**

## Some directions of international cooperation on the basis of international legal acts in the fight against trafficking in human beings

### Annotation

In a scientific article, the author substantiates the relevance and necessity of considering international cooperation as one of the main conditions in the fight against human trafficking.

The author examines the chronology of the development of international cooperation in the fight against crime, the goal of international cooperation in the fight against crime, refers to such principles as the importance and priority in relations between states and international organizations.

In a scientific article, the author considers human trafficking as a problem caused by such factors as gross violation of human rights.

The author pays attention to the history of the development of the international legal framework for combating human trafficking. It refers to the results of the rule-making activities of international organizations, documents of the UN General Assembly, the CIS and other organizations, as well as to the interaction of state and non-governmental organizations in the fight against human trafficking.

The scientific article points out about illegal acts arising from trafficking with people, about the complexity of combating this phenomenon and preventing this criminal activity.

In conclusion of the scientific article, a number of proposals and conclusions are proposed.

**Şahin T. Şükürov**

**İnsan alverinə qarşı mübarizədə beynəlxalq-hüquqi aktlar əsasında beynəlxalq əməkdaşlığın bəzi istiqamətləri**

**Xülasə**

Elmi məqalədə müəllif tərəfindən, insan alverinə qarşı mübarizədə əsas şərtlərdən biri olan beynəlxalq əməkdaşlığın baxılmasının aktuallığı və vacibliyi əsaslandırılır.

Müəllif məqalədə cinayətkarlıqla mübarizədə baynəlxalq əməkdaşlığın inkişaf xronologiyasını cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığın məqsədini araşdırır, dövlətlər və beynəlxalq təşkilatlar arası münasibətlərdə vaciblik, prioritetlik prinsiplərinə istinad edir.

Elmi məqalədə, müəllif tərəfindən insan alveri-insan hüquqlarının kobud pozuntusu faktoru kimi yaranan problem kimi baxılır.

Müəllif insan alveri mübarizəsində beynəlxalq-hüquqi əsaslarının inkişaf tarixinə xüsusi diqqət ayırır.

BMT-nin Baş Assambleyasının MDB-nin digər beynəlxalq təşkilatların, norma yaradıcılıq fəaliyyəti nəticəsində qəbul olunan sənədlərinə, həmçinin insan alverinə qarşı mübarizədə dövlət və qeyri hökümət təşkilatlarının fəaliyyətinə istinad olunur.

Elmi məqalədə insan alverindən irəli gələn hüquqazidd hərəkətləri bu əməllə mübarizənin mürəkkəbliyi və profilaktikası barəsində qeyd olunur.

Nəticədə bir necə təkliflər irəi sürülür.

**TELMAN ŞAHBAZOV**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının**
**Fakültə rəisi, polkovnik**
**shatelman@gmail.com**

# PEDAQOJİ TƏSİRİN GÜNÜN NİZAM QAYDALARI ÇƏRÇİVƏSİNDƏ REALLAŞMASI

**Açar sözlər:** pedaqoji təsir, proses, pedaqoji sahələr, günün nizam qaydaları, düşüncə, reallaşma, bilik və bacarıq, şəxsiyyət, peşə hazırlığı, vəzifələr, kursant, qanunauyğunluq.

**Keywords:** pedagogical influence, process, pedagogical areas, the daily routine, thinking, realization, knowledge and skills, personality, vocational training, tasks, cadets, regularity.

**Ключевые слова:** педагогическое влияние, процесс, педагогические области, распорядка дня, мышление, реализация, знания и навыки, личность, профессиональная подготовка, задачи, обучаемый, закономерность.

Kursantların günün nizam qaydalarının tələblərinə əməl etməsi həmişə bütün uğurlarda haqlı olaraq başlıca amil hesab edilir. Təcrübə və müşahidələrdən məlum olur ki, hərtərəfli inkişafa da nizam və intizam olan yerdə nail olmaq mümkündür. Geniş mənada sübut olunmuşdur ki, harada nizam və intizam varsa, mütləq orada ağıl və düşüncə, vəzifə və vətəndaşlıq borcuna məsuliyyət hissi mövcuddur. Kursantda günün nizam qaydalarına əməl etmək kimi müsbət bir keyfiyyətin formalaşması həmişə onu peşə hazırlığında səriştəli və peşəkar olmağa yönəldir. Bu həmişə belə olmuşdur, gələcəkdə də uğurlu olacağına şübhə yoxdur. Kursant üçün günün nizam qaydalarının vərdişə çevirməyin əsas yollarından biri onların təlim prosesində əməyini düzgün tənzimləyən iş rejimidir. İş rejimi hər bir kəsin tutduğu vəzifədə, çalışdığı sahədə gündəlik görülən işə görə məsuliyyəti və öz fəaliyyətinə şüurlu yanaşmanı nəzərdə tutan geniş anlayışdır. Hər kəs hərbi tərbiyə prosesində gördüyü işin əhəmiyyətini, onun dövlətə və xalqa verəcəyi faydanı yaxşı dərk etməlidir.

Hərbi tərbiyə - hərbi qulluqçunu Vətənin müdafiəsinə hazırlamaq üçün onun mənəvi və fiziki inkişafına göstərilən sistemli və məqsədyönlü pedaqoji təsir prosesini və Silahlı Qüvvələrin müasir inkişafı mərhələsində hərbi hissə və bölmələrdə hərbi qulluqçuların motivasiyasını gücləndirən və peşəkarlığını artıran müvafiq şəraitin yaradılmasını nəzərdə tutur. Əvvəllər əldə edilmiş “mülki” tərbiyə əhəmiyyətli dərəcədə hərbi-peşəkar cəhətdən təkmilləşdirilir.

Hərbi xidmət müddətində hərbi tərbiyənin əsas vəzifəsi mənəvi-döyüş keyfiyyətlərini: hünərliliyi, şücaətliliyi, intizamlılığı, icraçılığı, zirəkliyi, əsgəri yoldaşlığı və dostluğu formalaşdırıb inkişaf etdirməkdir. Bu prosesdə başlıca amil günün nizam qaydalarına əməl edilməsinin tərbiyə olunmasıdır.

Hərbi tərbiyədə praktiki xarakterli forma, üsul və vasitələr: təlimlər, döyüş hazırlığı üzrə məşğələlər, məşqlər, çalışmalar hərbi xidmətkeçmənin və ümumqoşun nizamnamələrinin tələblərinə əsasən təşkil olunur.

Günün nizam qaydaları ilə ahəngdarlıq təşkil edən hərbi tərbiyənin əsas istiqamətlərinə daxildir: hərbi qulluqçularla vahid və ayrılmaz təlim və tərbiyə prosesinin həyata keçirilməsi; hərbi hissələrdə (bölmələrdə) qoşun xidmətinin və hərbi qulluqçuların məişət şəraitlərinin təşkilində nizamnamə qaydalarına ciddi riayət olunması; təhlükəsiz hərbi xidmətin və hərbi fəaliyyətin təmin edilməsində hərbi qulluqçuların mənəvi-psixoloji dəstəklənməsi; müasir və real döyüş şəraitinin modelləşdirilməsi və təlim prosesi zamanı tətbiqi;

bütün kateqoriyalı vəzifəli şəxslərin şəxsi nümunələrinin yayılması; Silahlı Qüvvələrdə mövcud olan hərbi ənənələrdən istifadə edilməsi. (1.s15)

Silahlı Qüvvələrdə tətbiq edilən texniki yeniliklər, müxtəlif təkmilləşmələr hərbi-pedaqoji prosesdə tərbiyə işinin dinamik inkişafına səbəb olur.

Son vaxtlar Azərbaycan ordusunda özünü göstərən hərbi-texniki tərəqqi ordu quruculuğunda irəliləyişlərə səbəb olmuşdur. Ordunun yeni texnika və silahlarla komplektləşdirilməsi ordunun struktur quruluşuna və idarə olunmasına müsbət təsir göstərmişdir. Şübhəsiz ki, bütün bunlar təlim-tərbiyənin prinsip, metod və üsullarında mühüm dəyişikliklərə gətirib çıxarmışdır.

Yeni hərbi silahların və texnikanın mürəkkəbliyi müxtəlif hərbi ixtisaslar sahəsində nəzəri biliklərin rolunun birdən-birə yüksəlməsinə, kadr hazırlığında yenidənqurmaya səbəb olmuşdur. Müasir şəraitdə hərbi texnikaya və silahlara tam yüyələnmək üçün təkcə nəzəri biliklərə sahib olmaq kifayət deyildir. Həm də bu silahların elmi-texniki əsaslarını mənimsəmək və istismarını bilmək lazımdır.

Müasir şəraitdə hərbi silah, cihaz və aparatların fiziki əsaslarını mükəmməl mənimsəmək onların texniki imkanlarından maksimum şəkildə bəhrələnməyə, uzunmüddətli istifadəyə imkanlar verir. Silahlara yüksək səviyyədə texniki xidmət onların istismar müddətini uzadır.

Hərbi-texniki əməliyyatların hansı ixtisas sahibi tərəfindən yerinə yetirilməsindən asılı olmayaraq, hərbi texnikaya qulluq göstərilməsində və ondan istifadə də nəzəri təhlilə üstünlük verilməsi çox vacibdir. Nəzəri biliklər hərbçinin fəaliyyətində əsas komponentdir.

Təcrübələr sübut edir ki, hərbi texnikadan istifadə zamanı meydana çıxan problemlər, hərbi texnikanın və silahların quruluşunu zəif bilməkdən deyil, daha çox hərbi texnikanın iş prinsipinin fiziki mahiyyətini lazımınca bilməmək, onun fəaliyyətinin nəticələri haqqında təsəvvürün düzgün formalaşmamasının nəticəsidir.

Bütün bunlara görə təlimin təşkilində və həyata keçirlməsində texniki hazırlığa, ixtisaslı hərbçilərin nəzəri hazırlığına geniş yer verilməlidir. Buna görə də ixtisaslı hərbçilərin yenidən hazırlanması və onların nəzəri hazırlığının daha da təkmilləşdirilməsi həyata keçirilməlidir.

Bu məqsədlə hərbi hissələrdə aidiyyəti üzrə şəxsi heyətin texniki hazırlıq işini daha da təkmilləşdirmək, texniki təbliğatı yeni əsaslar üzərində qurmaq lazımdır.

Şəxsi heyətin nəzəri hazırlığını artırmaq onların ixtisaslarına uyğun biliklərini daha da genişləndirməyi, müasir silahlara və hərbi texnikaya aid bilik və bacarıqların verilməsi metodikasının köklü surətdə təkmilləşdirilməsini tələb edir. Bunlar, həm hərbi ustalıqla, həm də hərbçilərin texniki təfəkkürü ilə bağlı məsələlərdir. Bu günün tələbləri, həm də ondan ibarətdir ki, ayrı-ayrı hərbi əməliyyatların yerinə yetirilməsinə, silahların və texnikanın idarə edilməsinə ayrılmış vaxt xeyli qısaldılmışdır ki, bunlar da müasir döyüşlərin xarakterindən irəli gəlir. Hazırda hərbi texnikanı və silahları idarə edərkən hərbçilərdən tələb edilir ki, onlar bir neçə taktiki və əməli fəaliyyəti eyni zamanda yerinə yetirməyi bacarsınlar. Belə ki, hərbi-texniki aparatların bir neçə göstərişi eyni zamanda başa düşülüb qeydə alınmalı, siqnallar qəbul edilərkən onlara dərhal lazımi cavablar verilməli və s.

Təlimin metodları tələb edir ki, bir tərəfdən hərbçilərin zehni fəallığı artırılsın, digər tərəfdən isə keçirilən məşğələlərin səmərəsi yüksəldilsin, hərbi ustalığa diqqətlə yanaşılsın.

Hərbi ustalığın səmərəliliyinə təsir göstərən amillərdən biri də hərbçilərin psixoloji hazırlığı ilə bağlıdır. Əlbəttə, burada diqqətin, hafizənin, kənar səslərə reaksiyaların və s. nəzərə alınması, eyni zamanda, diqqətin paylanması, hafizənin sürəti kimi şərtlərə əməl edilməsi vacibdir.

Hər bir insanın psixoloji və fizioloji imkanlarının sərhədi vardır. Əgər bu imkanları daha da genişləndirmək lazımdırsa, onda hərbçi özünə güvənməli, hissi və hərəkət reaksiyalarından istifadə etməyi bacarmalıdır. Bütün bunlara müxtəlif psixoloji vərdişlərin mükəmməlləşdirilməsi ilə nail olmaq mümkündür. Eyni zamanda, hisslərin inkişafına, reaksiyaların sürətinə, orqanizmin fiziki tarazlığına, yorğunluğun aradan qaldırılmasına diqqət yetirilməlidir.

Təlim prosesində təkcə qısa zaman kəsiyində texniki biliklərə yiyələnmək olmaz. Həm də xü-

susi psixoloji məşqlərin köməyilə hissi orqanların inkişafına nail olmaq mümkün və lazımdır.

Hazırda hərbi-texniki ixtisasların çeşidliliyi özlüyündə texniki ixtisaslar üzrə yüksək səviyyəli mütəxəssislərin daha çox hazırlanmasını tələb edir.

Silahların və hərbi texnikanın modernləşdirilməsi orduda hərbi ixtisaslar üzrə mütəxəssislərin ixtisaslarının daha da təkmilləşdirilməsini zərurətə çevirir. Bu çox çətin və məsuliyyətli bir işdir. Yeni hərbi texnika ilə təchizat tez baş verir, ancaq həmin texnikaya yiyələnmək işi müəyyən vaxt tələb edir. Buna görə də hərbçilərin yenidən hazırlanması xüsusi metodikanın işlənməsini, nəzəri təlim proqramlarının yeniləşdirilməsini ortaya çıxarır.

Yeni texnika ilə təchizat və modernləşdirmə ali hərbi məktəblərdə texniki kadrların hazırlanması sistemini yeniləşdirməyi zəruri edir. Bir çox hallarda bu işi sürətlə həyata keçirmək o qədər də asan olmur. Bununla belə, mürəkkəb hərbi texnikanın və silahların təcili öyrənilməsi kursantlar üçün psixoloji çətinliklər yaradır, onların idrak imkanlarını üstələyir ki, bu da yeni texnikanı səmərəli şəkildə mənimsəməyə mane olur. Buna görə də, texniki təlim prosesi təkcə texniki silah nümunələrinin öyrənilməsi və mənimsənilməsi üzərində qurulmamalıdır. Burada texniki təfəkkürə əsaslanmaqla səmərəli ola biləcək layihələrin öyrənilməsinə də üstünlük verilməlidir.

Müasir hərbi elmi-texniki yüksəliş daha mürəkkəb və heç də asan idarə olunmayan hərbi texnikanın yaradılmasına gətirib çıxarmışdır. Bu mürəkkəblik silahların tətbiqində və onlara xidmətdə kollektivçiliyi ön plana çəkir. Bu da özlüyündə həm ayrı-ayrı hərbçilərin, həm də hərbi kollektivlərin məsuliyyətini daha da artırır. Raket vasitəsilə müasir qırıcı təyyarənin məhv edilməsi təkcə bir neçə hərbçinin işi ola bilməz. Bu vəzifə kollektivin gücü və birliyi ilə yerinə yetirilir ki, bu da özlüyündə hərbçlərin kollektiv şəkildə hazırlığını zərurətə çevirir. Bunlar öz əksini gündəlik hərbi hazırlıq təlimlərində, hərbi növbətçilikdə, çöl təlimində və s.-də tapır. Şübhəsiz ki, belə fəaliyyət prosesində əsas yük hərbçilərin kollektiv fəaliyyətinin nəticəsi və qiymətləndirilməsi, döyüş zamanı onlar arasındakı hərbi birliyin gözlənilməsi, bir-birinə yaxın ixtisasların mənimsənilməsinin səviyyəsi, təcrübə mübadiləsinin aparılması və s.-nin üzərinə düşür.

Kollektivin təlim əməyi tələb edir ki, komandir və müəllim hərbi kollektivin psixoloji durumunu yaxşı bilsin, onların xarakterik xüsusiyyətləri hökmən nəzərə alınsın. Bu işə metodiki cəhətdən yanaşılaraq, həmin məqsədlə kollektivin qarşısında müəyyən təlim tapşırıqlarının qoyulması, nəticə, təklif, tənqid və özünütənqidin nəzərə alınması, daha vacib sualların müzakirəsi, hərbi texnika və silahların idarə olunması və hərbi qruplar üzərində kollektiv nəzarətin həyata keçirilməsi təmin olumalıdır.

Hər bir kollektiv üzvünün fərdi qabiliyyətlərini təlim prosesində düzgün qiymətləndirən komandir, qısa zamanda hərbi hazırlıq proqramının mənimsənilməsini təmin edə bilər, onlarda texniki və taktiki təfəkkürü inkişaf etdirməyi bacarar. Şübhəsiz ki, bu işdə texnikanın və silahların etibarlılığına, həmçinin, bizim silahlarımızın və hərbi texnikamızın düşmənin hərbi texnika və silahlarından üstünlüyünə olan inam da mühüm rol oynayır. (2.s19).

Mövzunun elmi cəhətdən obyektiv tədqiqi təsbit olunan anlayışların mahiyyətinin məntiqli şərhini vermək zərurətini yaradır. Məsələnin ardıcıllığını təmin etmək üçün şəxsiyyətin formalaşmasına təminat verən pedaqoji prosesin dərk olunmasına aydınlıq gətirək. Pedaqoji proses və onun səciyyəvi cəhətlərinə şəxsiyyətin tərbiyəsi, təhsili, təlimi və inkişafı ilə bağlı aparılan bütün məqsədyönlü, planlı və mütəşəkkil işlər daxildir. Pedaqoji prosesin ayrı-ayrı sahələrinin vəhdəti, obyekt və subyektin qarşılıqlı əlaqəsi, inkişafı, ümumi məqsədin, qanunauyğunluq və prinsiplərin, forma və metodların mövcudluğu onun səciyyəvi cəhətləri sayılır.

Tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı pedaqoji prosesin müxtəlif sahələri olub vəhdət təşkil edir və bir-birini tamamlayır. Təlim və təhsil şəxsiyyətin tərbiyəsinə, ümumi və psixi inkişafına güclü təsir göstərir. Tərbiyə və inkişaf prosesi isə, öz növbəsində, təlim və təhsil prosesinə öyrənənin zehni işdə daha səylə çalışmasına, fəallığına, borc və məsuliyyət hissinin güclənməsinə kömək edir.

Pedaqoji prosesin inkişaf dinamikası obyektlə subyekt arasında qarşılıqlı münasibətlərin xarakterindən asılıdır. Pedaqoji prosesin obyektini ayrı-ayrı fərdlər (fərdlər) və onların qrupları (tədris qrupu, təhsil müəssisəsinin kollektivi) təşkil edir. Pedaqoji prosesin subyekti kimi isə ayrı-ayrı şəxslər (komandir, müəllim, valideyn və b.), habelə kollektiv orqanlar (elmi şura, intizam şurası, pedaqoji kollektiv və b.) çıxış edir.

İntizamın təbiəti bütövlükdə cəmiyyətə və ya konkret sosial quruma, yaxud belə qurumun mütəşəkkil bir hissəsi üçün müəyyən edilmiş davranış qaydalarına tabe olmağı tələb edir. İntizamın xarakteri, onun mahiyyəti müəyyən edilmiş davranış və rəftar qaydalarına tabe olma motivləri və üsulları, intizama riayət edilməsindən irəli gələn əsas tələblərin məzmunu, sosial-iqtisadi quruluşun özünün mahiyyəti və məzmunu ilə müəyyən məna kəsb edir. Belə ki, intizam müəyyən sosial qurumların , konkret peşə və sənət sahəsinin işlək qüvvələrinin (məsələn, müəllimlərin, həkimlərin, hərbçilərin) özlərinə məxsus fəaliyyətləri prosesində mənəvi-əxlaqi və hüquqi tələbat kimi təzahür edir. Mənəvi paklıq, əxlaqi gözəllik, möhkəm əqidə birliyi, dərin hörmət və ehtiram olan yerdə həmişə intizam hökm sürür. Qarşıda duran məqsədlərə yalnız onun təsirləri altında nail olunur, qələbə və zəfərlər qazanılır.

İntizama əməl olunması ictimai münasibətlərin bütün sahələrində zəruridir. Buna görə də tənzimlənən ictimai münasibətlərin xarakterindən, müəyyən sosial qurumların vəzifə və funksiyalarının xüsusiyyətlərindən asılı olaraq intizamın müxtəlif formaları mövcuddur. Dövlət tərəfindən müəyyən edilən normalara əsaslanan və hüquqi təbiətə malik olan dövlət intizamı bu formalar içərisində mühüm əhəmiyyət kəsb edir. Həmin intizamın növlərindən biri dövlət, dövlət orqanları və buna müvəkkil edilmiş hərbi vəzifəli şəxslər tərəfindən normaları müəyyən edilən hərbi intizamdır. (1.s129).

Pedaqoji prosesin səciyyəvi cəhətlərindən biri onun inkişafı, mütəhərrikliyidir. Bunun da sayəsində öyrənənin tərbiyə, təhsil, təlim və inkişaf səviyyəsi yüksəlir, təkmilləşir. Pedaqoji prosesin daxili hərəkətverici qüvvəsini öyrənənlər qarşısında qoyulan tələblərlə onların bu tələbləri yerinə yetirmək üçün real imkanları arasındakı ziddiyyət təşkil edir. Bu ziddiyyət o zaman inkişafın mənbəyi olur ki, irəli sürülən tələblər öyrənənlərin imkanlarına müvafiq olsun.

Hərbi pedaqoji prosesi səciyyələndirən cəhətlərdən biri də ümumi məqsədin, qanunauyğunluq və prinsiplərin, forma və metodların olmasıdır. Pedaqoji prosesin qanunauyğunluqları bu fəaliyyətə xas olan zəruri, davamlı əlaqələrlə səbəb-nəticə asılılıqları ilə bağlıdır. Belə qanunauyğun əlaqələr çoxcəhətlidir: pedaqoji proseslə cəmiyyətin tələbatları, imkan və şəraiti arasında əlaqə; pedaqoji prosesin müxtəlif sahələri - tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı arasında əlaqə; şəxsiyyətin fəaliyyəti və ünsiyyəti ilə onun inkişafının nəticələri arasında əlaqə; pedaqoji prosesin subyekti və obyekti arasında əlaqə; kollektiv və şəxsiyyət arasında əlaqə; pedaqoji prosesin məqsədi, məzmunu, forma və metodları arasında əlaqə; şəxsiyyətin imkanları ilə ona pedaqoji təsirin xarakteri arasında əlaqə. Pedaqoji prosesin sahələri vahid məqsədə xidmət edib şəxsiyyətin hərtərəfli dünyagörüş qazanmasına yönəlir. Qeyd olunan sahələr üzrə kursantlar üçün pedaqoji təsirdə sistemli vasitə günün nizam qaydasına daxil olanlardır.

Pedaqoji təsir mürəkkəb proses olub özündə bir neçə cəhətlər üzrə fəaliyyəti birləşdirir. Bura müəllimin öyrənənlərin düşüncə, iradə və emosiyalarına təsiri; onlarda tələb olunan **keyfiyyətlərin formalaşdırılması**; qoyulmuş məqsədlərə müvəffəqiyyətlə çata bilmək kimi **bacarıqların yaranması** daxildir.

Uzun illərin pedaqoji təcrübəsi göstərir ki, xüsusi təyinatlı təhsil müəssisələrində günün nizam qaydaları kursantların ahəngdar inkişafında sanki kompas rolunu oynayır. Bu baxımdan günün nizam qaydaları təlim zamanı rellaşdırılan tərbiyə işinin nəticəsi olan zəruri bilik, bacarıq və vərdişlərin qazanılmasında pedaqoji təsir üçün əvəzolunmaz vasitədir. Mülki və xüsusi təyinatlı təhsil müəssisələrinin günün nizam qaydalarına görə fərqləndirilməsi məqsədə müvafiqdir. Aparılan tədqiqatdan aydın olur ki, bu prosesdə qarşılıqlı uyğunluq və ziddiyyət təşkil edə bilən pedaqoji təsir anlayışların əməli həllində günün nizam qaydalarının mənəvi dəyər kimi vasitə olması kur-

santların məqsədyönlü fəaliyyətini təmin edir. Pedaqoji təsirin elementləri təlimdə vasitə rolunu oynayan günün nizam qaydaları ilə tənzimlənir. Xüsusi təyinatlı təhsil müəssisəsində günün nizam qaydalarının tələbinə görə tədris müəyyən fasilələrlə beş akademik dərs saatı həcmində keçilir. Günün müəyyən zaman və məkan çərçivəsində pedaqoji təsirdə stabilliyin saxlanılması keyfiyyətin əldə olunmasında başlıca şərtdir.

İdarəetmədə günun nizam qaydaları ilə əlaqədar problemlərin həllində izlənilən yanaşma bu anlayışların necə aydın dərk edilməsi ilə bağlıdır. Buna görə anlayışların düzgün təyin olunması və başa düşülməsi vacibdir.

Günün nizam qaydaları pedaqoji təsirdə vasitə kimi tədrisdə kursantların davranışlarına müəllimin göstərdiyi səmərəni artırır. Pedaqoji təsirdə idarəetmə və nizam qaydası anlayışlarının bir-biri ilə xüsusi bir bağlılığı vardır.

Peşəkar müəllimlər kutsantlara, ilk növbədə, günün nizam qaydalarına əməl etməyi öyrədirlər. Kursant günün nizam qaydalarını öyrənməkdən əlavə, onların reallığını və nəticələrini də bilməlidir.

Pedaqoji təsirdə günün nizam qaydalarının vasitə olmasını təmin etmək üçün auditoriyada kursantların motivasiyasını artıracaq şəraiti və güvənilən bir mühiti yaratmaq və onlarda məsuliyyət hissini inkişaf etdirmək lazımdır.

Kursantların günün nizam qaydaları üzrə mədəniyyəti həmişə pedaqoji təsirdə vasitə olub peşə hazırlığında uğurların başlanğıcı hesab edilir. Hərtərəfli inkişafa günün nizam qaydalarına əməl edilən yerdə nail olmaq mümkündür. Təhlillərdən aydın olur ki, günün nizam qaydaları diqqət mərkəzində olduqda, mütləq orada ağıl və düşüncə, vəzifə və vətəndaşlıq borcuna məsuliyyət hissləri nəticəyönümlüdür. Kursantda günün nizam qaydalarına əməl etmək kimi müsbət bir keyfiyyətin formalaşması həmişə onu uğurlar qazanmağa sövq edir.

Günün nizam qaydalarının vərdişə çevirməyin əsas yollarından biri kursantın əməyini düzgün tənzimləyən gün rejimidir. Verilən məntiqli şərhdən aydın olur ki, günün nizam qaydaları kursantların peşə hazırlığında aktuallıq kəsb edir. Məhz bu cəhətdən kursanta pedaqoji təsirdə günün nizam qaydalarının vasitə olması qanunauyğun mahiyyət daşıyır. Pedaqoji təsirin xarakterizə olunduğu əsas anlayışlarla bağlı deklorativ bilik söyləmək məqsədəuyğun olardı.

**Pedaqoji düşüncə** müəllimin bütün fəaliyyətini və öyrənənlərə münasibətini bildirən bilik və bacarıqların məcmusu olub mütəxəssisin şəxsi və peşəkar fəaliyyəti nəticəsində formalaşır. Qazanılan bilik və bacarıqların möhkəmləndirilməsinə həmişə ehtiyac vardır. Təcrübə göstərir ki, kursantlar tədris materialını anlayıb və hətta dərk etdikdən sonra belə müəyyən unutqanlıq baş verir.

**Biliyin yaddan çıxması** təfəkkür prosesini, mühakiməni çətinləşdirir. Hafizəsində lazımınca bilik ehtiyatı olmayan öyrənənin fikri səthiliyi ilə fərqlənir. Möhkəmlətmə tədbirləri biliklərin hafizədə uzun müddət qalmasına və təfəkkürün zənginləşməsinə imkan verir. Öyrənilən biliklərin yaddaqalma müddəti möhkəmlətmə sayəsində xeyli artır və idrakın sonrakı mərhələsi üçün etibarlı zəminə çevrilir. Bütün bunlara görə də təlim zamanı bilik və bacarıqların möhkəmləndirilməsi zəruri olur.

Tədris materiallarının yenidən təhlil və təşkil edilməsi, onun şüurlu təkrarı, bəzi anlayışların, ümumiləşmələrin, əlaqələrin, isbatların, qaydaların, qanunların və s. müntəzəm yada salınması müəllimdən xüsusi diqqət tələb edir.

Təcrübədən aydın olur ki, təlim zamanı biliyin nəzəri olaraq möhkəmliyini, dərinliyini və şüurluluğunu təmin etməklə kifayətlənmək olmaz**.** Bilik fəaliyyət üçün əməli səciyyə daşımalıdır. Mövcud bilikdən təlimdə və ictimai-iqtisadi həyatda istifadə edilməlidir. Biliklər hafizədə toplanıb qaldıqda, ondan istifadə edilmədikdə əhəmiyyətini itirir, faydasız olur, didaktikanın məqsədi pozulur.

Didaktikanın əsas məqsədi pedaqoji təsir vasitələrinin köməyi ilə təlim prosesinin qanunauyğunluqları əsasında təhsilin məzmununun öyrənənlər tərəfindən maksimum səmərəli mənimsənilməsini, onların tərbiyə olunmasını və inkişafını təmin edən yolların və şərtlərin müəyyənləşdirilməsinə təminat verən bilik qazanılmasıdır. **Bilik** - insanın özünü əhatə edən aləm və onun amilləri haqqında məlumat toplusu kimi izah olunur. Bilik mühəndisliyi baxımından o formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və profes-

sional təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

Mənimsəmənin tamlığını təmin etmək üçün **öyrənilən biliyin tətbiqini təşkil etmək lazım gəlir.** Fənnin məzmunundan və tədris mövzusunun xarakterindən asılı olaraq bilik və bacarıqlar müxtəlif formalarda tətbiq edilir.

**Dərsin məqsədi kursantda koqnitiv bacarıq formalaşdırmaqdır**. Bilikdən hasil olan **bacarıq** pedaqoji elmlər sistemində ən geniş yayılmış anlayışlardandır. Onun quruluşu psixoloji məzmun kəsb etməklə özündə bir sıra proseslərin nəticələrini birləşdirir.

**Bacarıq** - insanın (subyektin-öyrənənin, müəllimin) hərəki və ya əqli **imkanlara** yiyələnməsi üçün icra etdiyi fəaliyyətin müvafiq qaydada yerinə yetirilməsidir. Bu zaman yeni bacarıqlar, biliklər, vərdişlər yaranır.

**Bacarıqlar** təlim prosesində yerinə yetirilən çalışma, tapşırıq, oyun, təmirin, test, layihə və s. **vasitəsi ilə formalaşır.**

**Bacarığın** daha bir izahı hərəkətlərin fəaliyyətin məqsədinə və şəraitinə uyğun əlverişli vasitələrlə yerinə **yetirilməsidir.**

Bacarıqların mənimsənilməsi və icrası hərəkətlərin səhvsiz, düzgün və ardıcıl yerinə yetirilməsindən asılıdır. Mənimsənilmiş bacarıqlar əsasında yeni bacarıqlar formalaşır.

**Bacarığın başlıca əlaməti** - insanın konkret situasiyada özünün **bilik və vərdişlərini** tətbiq edə bilməsidir. Müvafiq bacarıqlar **qeyd olunan anlayışlar üzrə yaranır:** dərketmə (koqnitiv), ümumi təlim və ya əmək, konstruktiv, təşkilati, texnoloji, kommunikativ.

Hərbi pedaqoji təsir tələbləri öyrənənlərin düşüncə, iradə və emosiyalarına təsir, onlarda tələb olunan keyfiyyətlərin formalaşdırılmasıdır. Qoyulmuş məqsədlərə müvəffəqiyyətlə çata bilmək kimi bacarıqların yaranmasının pedaqoji təsirlə reallaşması müəllimdən günün nizam qaydalarından vasitə kimi istifadə etməkdə səriştə və peşəkarlıq tələb edir.

Dərsin planının düzgün qurulması, həyati olması, kursantların real biliklərinə əsaslanması ilə yanaşı onun necə yerinə yetirilməsi də əsas şərtlərdən biridir. Planlaşdırmanı başlayarkən müəllim dörd əsas suala cavab verməlidir: Nə öyrədilməli? Necə öyrədilməli? Hansı şəraitdə? Nəticələri necə qiymətləndirmək olar?

Planlaşdırma təlimin məqsədlərinin müəyyənləşdirilməsindən başlanırsa, zaman və məkan baxımından günün nizam qaydalarında təsbit olunur. Dərsin keyfiyyətini və səmərəliliyini təmin edən başlıca və mühum amil təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsidir.

Təlim məqsədlərinin təsnifatına daxildir: müəllim fəaliyyətinin xarakteri üzrə öyrədici, inkişafetdirici, tərbiyəvi; idrak sahəsində əldə olunan nəticələrin səviyyəsi üzrə (Blum taksanomiyası); idrak prosesinin səviyyəsi üzrə hafizə və təfəkkürün müxtəlif növləri (məntiqi, tənqidi və yaradıcı).

Aparılan müşahidələr göstərir ki, tez-tez rast gəlinən səhvlərdən biri təlimin məqsədi kimi yalnız öyrədici məqsədlərin müəyyən edilməsidir. İnkişafetdirici və tərbiyəvi məqsədlər isə kölgədə qalır və müəllimin fəaliyyətini istiqamətləndirmir. Dərsin öyrədici məqsədini, adətən, dərsin mövzusundan müəyyən edirlər, inkişafetdirici və tərbiyəvi məqsədlər isə çox zaman bu mənbələrdən aşkar olunmur. Bu məqsədləri müəyyən etmək istiqamətində kursantların tərbiyəsi və inkişafı üçün lazım olan bacarıq və keyfiyyətləri təyin olunmalıdır. Yeni təhsil proqramında verilən məzmun standartları müəllimə təlim məqsədlərini düzgün müəyyənləşdirməkdə istiqamət verir. Dərsdə kursantların fəaliyyətinə nəzarət dedikdə onların təlim fəaliyyətinə cəlb etmək və bütün dərs boyu fəaliyyətlərini istiqamətləndirə bilmək bacarığı nəzərdə tutulur. Müəllimin təşkilati fəaliyyəti və şəxsi keyfiyyətlərinə yönəlmiş tələblər müasir dərsin, təlim-tərbiyə prosesinin səmərəliliyinin artırılmasını təmin edir.

Müasir həyatımızda kompüter texnologiyalarından istifadə etmədən keçinmək mümkün deyil. Bu baxımdan fənninin tədrisi zamanı kompüter texnologiyalarından istifadə keyfiyyət və dərsin maraqlı olması üçün geniş imkanlar yaradır. Kursantı dərsi oxumağa məcbur etmək deyil, onda maraq oyatmaqla, şəxsiyyət kimi yanaşmaq lazımdır.

Təlimin stimullaşdırılmasında, kursantların fə-

allığının təmin edilməsində, nəzərdə tutulan məzmunun ətraflı mənimsədilməsində inteqrasiyanın rolunun böyüklüyü pedaqoji təsirdə günün nizam qaydalarından vasitə kimi sinxron istifadə ilə mütənasibdir.

Pedaqoji təsir komponentinə aid olan düşüncə anlayışının mahiyyətinə aydınlıq **gətirməklə günün nizam qaydaları ilə inteqrativ yanaşmanın kursantın peşə hazırlığında rolunu aydın dərk etmək olar.** Müqayisələr etmə, ayırma, birləşdirmə nəticəsində başa düşülən anlam düşüncə adlanır. İnsanın digər canlılardan əsaslı fərqi düşüncədədir.

Düşüncə müəyyən problemləri hazırlayır, onu fikirlərlə ifadə edir. Düşünməyə əsaslanan şərhlər ağıla dəlalətdir. Düşüncənin bu pedaqoji təsirdə ağılı kamilləşdirməkdə müəyyən vəzifələri vardır.

**Təyin etmə -** daha çox açıqlayıcı və höcətləşən izahat formalarında istifadə edilən bir düşüncəni inkişaf etdirmə yoludur.

**Nümunə -** düşüncəni konkret edəcəyi üçün onun həm daha asan başa düşülməsini, həm də inandırıcılıq qazanmasını təmin edir. Nümunə olaraq verilən şey, izahı konkretləşdirəcək xüsusiyyətdə ümumi və bilinən bir şey olmalıdır. Müqayisə obyektlər, vəziyyətlər arasındakı bənzərlik və ya fərqlərin ifadə olunub gətirilməsidır.

**Bənzətmə** - bir vəziyyəti və qavramı açıqlayarkən aralarında bənzərlik əlaqəsi qurula bilən iki anlayışdan zəif olanın güclü olana bənzədilməsi ilə edilir. Əlaqə yaratmaq ortaya qoyulan düşüncənin açıqlanması üçün hər hansı bir vəziyyətin, ya da hadisənin ortaya çıxışını açıqlamaqdır.

Hərbi pedaqoji təsirdə yer alan düşüncənin kursantın kamilləşməsinə xidmət etməsində məhz günün nizam qaydalarının vasitəçiliyi başlıca şərtdir. Əgər tərbiyə olunanlar pedaqoji prosesdə mövcud olan ən zəruri elementləri, davranışla bağlı olan mənəvi keyfiyyətləri öncə duyur, sonra qavrayırsa, deməli bu keyfiyyətlə bağlı olanları onlar hafizədə saxlamaqla təxəyyül və təfəkkür süzgəcindən keçirdikdən sonra hər hansı bir nəticəni hasil edirlər. Psixologiya elmi bütün bunları aşağıdakı şəkildə ifadə edir:

**Duyğu -** insanı əhatə edən maddi qıcıqlandırıcıların müvafiq reseptorlara bilavasitə təsiri nəticəsində, maddi aləmin cisim və hadisələrdən ayrı-ayrı xassələrinin, eləcə də insan orqanizminin daxili vəziyyətinin əks olunması kimi psixi prosesdir.

**Qavrayış** - maddi aləmin cisim və hadisələrinin insanın hiss üzvlərinə bilavasitə təsiri nəticəsində onların şürundakı inikasıdır.

**Hafizə -** şəxsin (fərdin) öz təcrübəsini yadda saxlamasına, bütövlükdə hifz etməsinə və sonradan yada salması kimi psixi prosesdir.

**Təxəyyül** - əmək məhsulu surətlərinin yaradılmasında ifadə olunan, eləcə də problem situasiyanın qeyri müəyyənliklə xarakterizə olunduğu hallarda davranış və qavrayış proqramının yaradılmasını təmin edən yaradıcı fəaliyyətin zəruri elementidir.

**Təfəkkür -** yeni, mühüm əlamət, xassə və qanunauyğunluqların axtarışına və kəşf edilməsinə yönəldilmiş, sosial cəhətin şərti kimi özünü biruzə verən, nitq ilə ayrılmaz olan psixi prosesdir.

Qeyd olunan anlayışlar arasında bağlılıq vardır. Biri digərini tamamlayır. Tərbiyə olunan fərd onu əhatə edən mühitin təsirini duyub qavradıqdan sonra öz hafizəsində saxlayır. Onun hafizəsindəkilər yalnız xarakterinə görə təfəkkür və ya təxəyyül süzgəcindən keçir. Əgər fərdin hafizəsindəkilər bədii yaradıcılıq qabiliyyətinin məhsuludursa, təxəyyül süzgəcindən keçərək özününküləşir. Qabiliyyətlər yalnız fəaliyyətin nəticəsində özünü biruzə verir. Çünki **qabiliyyətlər** fəaliyyətin müvəffəqiyyətli icrasının şərti olub onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasında ifadə olunur. Əslində **fəaliyyət** - insanın dərk edilmiş məqsədlə tənzimlənən psixi (daxili) və fiziki (xarici) fəallığıdır.

**Tələbat** - insanın fəaliyyətinin bünövrəsidir. İnsanın fəaliyyətinin müəyyən tələbatlarla təmin olunması müvafiq iş motivini üzə çıxarır. Deməli, tələbatlardan yaranan təhrikedici amillər motivlərin ortaya çıxmasına səbəb olur. Ona görə **tələbat** - insan fəaliyyətinin bünövrəsi, **motiv** - fəaliyyətin müəyyən təlabatlarla təmin olunması ilə bağlı təhriklərdir. Bütün bunlara rəğmən tərbiyəedici pedaqoji prosesdə psixoloji qüvvələrin inkişaf etdirilməsini bir prinsip olaraq qəbul etməlidir. (3.s 375).

XXI əsrin vacib tendensiyası yüksək texnolo-

giyaların inkişafı, elmi nailiyyətlərin real həyata geniş tətbiqi, cəmiyyətin informasiyalaşdırılmasıdır. Cəmiyyətdə informasiya texnologiyalarının rolu çox genişdir. Hazırda cəmiyyətin intellektuallaşması prosesində, təhsil sisteminin və mədəniyyətin inkişafında onlar mərkəzi yer tutur. İnsan fəaliyyətinin müxtəlif sahələrinə tətbiqi informasiya texnologiyaları ilə tanışlığın zəruriliyini diktə edir. Təhsil və elm cəmiyyətin informasiyalaşdırılması prosesinin obyektlərindəndir. İnformasiya texnologiyalarının təhsilə tətbiqi onların düzgün seçilməsini tələb edir. İnformasiya kommunikasiya texnologiyasının təhsil sahəsində aktiv tətbiqi mütəxəssis hazırlığının səviyyə və keyfiyyətlərinin artırılmasına yönəldilmişdir. İKT-nin təhsilə tətbiqi müəyyən məsələlərin reallaşmasını müəllimin qarşısına məqsəd qoymuşdur: kursantların düşüncə tərzinin inkişaf etdirilməsi; bilik, bacarıq və vərdişlərin əldə edilməsi fəaliyyəti onun bütün növ dərketmə fəaliyyətini inkişafına kömək edir; dərs prosesinin fərdiləşməsi prinsipinin reallaşdırılması. İKT-nin təhsilə tətbiqi sahəsindəki bütün nailiyyətlər, telekommunikasiya şəbəkəsinin yaradılması və orada informasiya selini təmin edir. Verilənlər və bilik bazasının yaradılması və müşayiət edilməsi, hamısı bir məqsədə İKT-nin təhsil sahəsinə tətbiqinin metodoloji əsasının işlənilməsinə xidmət etməlidir.

Hal-hazırda cəmiyyət qarşısında bir məsələ durur öyrədənin bələdçiliyi ilə kompüterin təhsil sahəsində düzgün, optimal və ziyansız istifadəsi.

Kompüter texnologiyaları təlimi informatika prinsipinə əsaslanan və kompyuterlərlə reallaşan təlimdir. İKT-in ənənəvi təlimdən fərqi kompüterin dinamik inkişaf edən təlim vasitəsi kimi istifadə edilməsidir. Elektron təhsil sistemi bir çox informasiya texnologiyalarını birləşdirir. Bunlara kompüter şəbəkələri, noutbuklar, interaktiv sinif lövhələri, planşet kompüterlər, internet və s. aiddir. Kompüter təhsilin keyfiyyətini yüksəltməyə və materialın mənimsəmə sürətini artırmağa, həmçinin kollektiv tərbiyə işi və münasibət üçün yaxşı mühitdir. Kompüter vasitəsilə kursantlar tərbiyə prosesində ümumi tapşırıqları yerinə yetirmək, həmçinin müəllimlərdən kömək ala bilərlər.

Avropada artıq çoxdandır ki, informasiya texnologiyalarına gənclərin təhsilinin keyfiyyətini artırmaq üçün effektiv vasitə kimi baxırlar.Yeni texnologiyalar düzgün istifadə olunduqda kursantların peşə təhsilinin səviyyəsini yüksəltməyə və intellektual cəmiyyətin formalaşmasını sürətləndirməyə qadirdir. (4.s 100).

**Nəticə** olaraq, kursantın peşə hazırlığında günün nizam qaydaları hərbi tərbiyə işi ilə bağlı pedaqoji və psixoloji amillərin bağlılığı, İKT-nin səmərəli nəticə verməsi müasir tələblərə uyğun kadrların hazırlığını rellaşdırır.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı:**

1. Elçin Qasımov. Silahlı Qüvvələrdə tərbiyə işinin əsasları. Bakı-2016.853 səh.
2. Aydın Həsənov. Hərbi pedaqogika. Bakı-2018. 156 səh.
3. Fərahim Sadıqov. Ümumi pedaqogika. Bakı, Gənclik, 2018. 842 səh.
4. Şahrza Ağayev və.b. Dərs:ənənə və müasirlik. Bakı, 2020, ”MM-S”, 200 səh.

**Telman Shahbazov**

**Implementation of pedagogical influence within the daily routine**

**Summary**

The article deals with the integration of upbringing, education, training and personal development in various areas of the pedagogical process; the connection of the laws of the pedagogical process with the necessary, continuous connections inherent in this activity - cause-and-effect relationships; inclusion of the day as a systematic tool of pedagogical influence on cadets in the fields; pedagogical influ-

ence is a complex process and includes a combination of activities in several directions, influence on the thinking, will and emotions of cadets, the formation of the necessary qualities in them, the emergence of such skills as the successful achievement of goals; the daily routine is an invaluable means of pedagogical influence on the acquisition of the necessary knowledge, skills and habits as a result of educational work carried out during training; the presence in the classroom of conditions for increasing the motivation of cadets to ensure that the daily routine is a means of pedagogical influence; when the daily routine is in the spotlight, it is definitely the result of intelligence and thinking, a sense of responsibility for one's duty and civic duty; the formation of such positive qualities in a cadet, as following the daily routine, always motivates him to succeed; the legitimacy of the daily routine as a means of pedagogical influence on the cadet; express declarative knowledge about the basic concepts characterized by pedagogical influence; important issues were clarified, such as the fact that pedagogical thinking is the content of knowledge and skills that express all the activities of the teacher and his attitude towards students.

**Тельман Шахбазов**

**Осуществление педагогического воздействия в рамках распорядка дня**

**Резюме**

В статье рассматривается интеграция воспитания, образования, обучения и личностного развития в различные области педагогического процесса; связь закономерностей педагогического процесса с необходимыми, непрерывными связями, присущими этой деятельности - причинно-следственными отношениями; включение распорядка дня в качестве систематического инструмента педагогического воздействия на курсантов на полях; педагогическое воздействие представляет собой сложный процесс и включает в себя сочетание деятельности по нескольким направлениям, воздействие на мышление, волю и эмоции курсантов, формирование у них необходимых качеств, появление таких навыков, как успешное достижение поставленных целей; распорядок дня являются неоценимым средством педагогического воздействия на приобретение необходимых знаний, навыков и привычек в результате воспитательной работы, проводимой во время обучения; наличие на занятиях условий для повышения мотивации курсантов к тому, чтобы распорядки дня были средством педагогического воздействия; когда в центре внимания распорядка дня, это определенно результат ума и мышления, чувства ответственности за свой долг и гражданственности; формирование у курсанта таких положительных качеств, как следование распорядка дня, всегда мотивирует его на успех; правомерность того, что распорядок дня является средством педагогического воздействия на курсанта; выражать декларативные знания об основных понятиях, характеризующихся педагогическим воздействием; были прояснены важные вопросы, такие как тот факт, что педагогическое мышление - это содержание знаний и умений, которые выражают всю деятельность учителя и его отношение к ученикам.

**GÜNAY HACIYEVA**
**Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin**
**"İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müəllimi**
**agamirova-gadjiyeva@mail.ru**

# MƏHKUM QADINLARIN ŞƏXSİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ VƏ CƏZANIN İCRASININ FƏRDİLƏŞDİRİLMƏSİNƏ TƏSİRİ

**Açar sözlər:** azadlıqdan məhrum etmə; məhkum qadınlar; penitensiar praktika; məhkum qadının ailə vəziyyəti; məhkum qadınların xarakteristikası.

**Key words:** deprivation of Liberty; convicted women; Penitentiary practice; marital status of a convicted woman; characteristics of convicted women.

**Ключевые слова**: лишение свободы; осужденные женщины; пенитенциарная практика; семейное положение осужденной женщины; характеристика осужденных женщин.

Penitensiar elmlə məhkum qadınların əksəriyyətinə xas olan xarakter xüsusiyyətləri müəyyən edilmişdir. Belə ki, J. Kenmbel aşağıdakıları vurğulayır: impulsivlik, narahatlıq, emosional yaralıq, onların arxasında zəifləmiş nəzarət ilə bağlı davranış nümayişkarana davranış. J. Sellen qeyd edir ki, məhkum olunmuş qadınlar kişilərdən daha çox depressiyaya, apatiyaya, məhkumluq hissinə, şüursuz səviyyədə təlqin etməyə meyllidirlər [8, s. 144–157]. Çox vaxt məhkum qadınlar barədə bir qədər mənfi rəy bildirilir, onlar gizli, qapalı, ixtiraçı, yalançı və eqoist qadınlar kimi xarakterizə edilir. Buna V. Braun da öz tədqiqatlarında işarə edirdi. O yazırdı ki,"cinayətkarların xüsusilə xarakterik xüsusiyyəti, və əsasən anadangəlmə, qeyri-adi inadkarlıqdır ki, onlar ən aşkar dəlillərə baxmayaraq öz günahlarını inkar edirlər " [6, s. 77–101]. Təəccüblüdür ki, "qadın həmişə haqlıdır" ifadəsi öz aktuallığını itirməyib.

Məhkum qadınların sosial-psixoloji xarakteristikalarını tədqiq edən J. Peters, A. Volper belə qənaətə gəldilər ki, bu kateqoriyadan olan şəxslərin öz taleyində maraqlı olmama, ehtiyatsızlıq, konsentrasiya, məyusluq, apatiya, qətiyyətsizlik və s. kimi xüsusiyyətləri vardır [9, s. 384]. Yuxarıda sadalananların əsasında qadın-məhkumun müəyyən portretini yaratmaq olar. Lakin belə bir mənzərə tamamilə başadüşüləndir. Bu, ilk növbədə, Qərbi Avropa cinayət siyasətinin humanistləşdirilməsi, şərti məhkum etmənin geniş tətbiqi, cəza çəkməkdən azad etmə və azadlıqdan məhrum etmə növündə cəzanın təyinatının azaldılması üzrə ümumi kursla bağlıdır. Bunun nəticəsində islah koloniyalarına əsasən məhkumluğu olmuş anti-icmai baxışlı qadınlar düşür. Bundan başqa, azadlıqdan məhrumetmə yerlərində olma ilə bağlı mənfi məqamları da nəzərə almamaq olmaz. Bütün bunlar məhkumlarla tərbiyə işinin aparılmasının, onlara psixoloji yardımın göstərilməsinin zəruriliyini bir daha təsdiq edir.

Eyni zamanda, cəzanın icrasının fərdiləşdirilməsinin stimullaşdırıcı imkanlarından da istifadə etmək məqsədəuyğundur [1, s. 491]. Belə ki, məsələn, impulsiv, emosional hərəkətlərə görə, əksər hallarda düşünülməmiş, mümkünsə, ciddi tənbeh tədbirləri tətbiq edilməməlidir. Depressiyaya, qətiyyətsizliyə, məhkumluğa, öz qüvvələrində inamsızlığa qarşı mübarizədə həvəsləndirmə tədbirlərinin tətbiqi kömək edə bilər. Amma bunun üçün məhkumun bu və ya digər davranışının səbəblərini dəqiq müəyyənləşdirmək lazımdır. Şübhəsiz ki, məhkum qadınların əksəriyyətinə xas

olan ümumi xarakter xüsusiyyətlərini düzəltmənin effektiv prosesini təşkil etmək üçün bilmək lazımdır. Eyni zamanda, tipik əlamətlər olduqda, məhkumların davranışında fərqləri müəyyən edən fərdi xüsusiyyətlər də mövcuddur. Məhkumun şəxsiyyətini əks etdirən və azadlıqdan məhrum etmə növündə cəzanın icrasını fərdiləşdirmək üçün əhəmiyyətli olan ayrı-ayrı sosial-demoqrafik xarakteristikaların üzərində dayanaq. Hamıya məlumdur ki, yaş xeyli dərəcədə insanı xarakterizə edir, bu, o cümlədən məhkum qadınlara aiddir. Həyat təcrübəsi, sağlamlıq vəziyyəti, maraq dairəsi və s. məhz ondan asılıdır. Buna görə də, yaş meyarları ümumi davranışına böyük təsir göstərir və təsir tədbirlərini tətbiq edərkən şübhəsiz ki, onu nəzərə almaq lazımdır.

Yaş meyarına görə iki qrup ayrılır – gənc və yaşlılar. İ. Uvarov yazırdı ki, qadınlar üçün" onların tam təcrübəsizliyinin yaşı ən təhlükəlidir, nə vaxt ki, onlar özgə təsirinə uyurlar, və ya cinayət keçmişi ilə zəngin olan kamillikdir"[13, s.189–194]. Həqiqətən də, praktika göstərir ki, çox vaxt cinayətkar fəaliyyətə yetkin yaşda qadınlar cəlb olunurlar. Bu, müxtəlif səbəblərlə bağlıdır. Məsələn, uşaqların doğulması ilə məşğul olan qadınların əksəriyyəti daha sonra fəal əmək fəaliyyətinə başlayır və müvafiq olaraq sonradan onunla bağlı cinayətlər edirlər. Qanun pozuntusunun törədilməsini müəyyənləşdirən digər amil ailənin parçalanmasıdır. Bundan başqa, N. Kasterinanın fikrincə, bu fakt daha da dərinləşdirilir ki, məhz yetkin yaşda olan qadınlar "şəxsi həyatın qeyri-sabitliyini, ailənin və digər sosial faydalı əlaqələrin parçalanmasını və ya olmamasını" [11, s. 115–120] dərk edir və bu hallara dözməli olurlar. Bütün bunlar qadının ümumi ruhi vəziyyətinə mənfi təsir göstərir, aqressiv hərəkətlərə nəticə ola biləcək psixoloji gərginliyə səbəb olur.

Bununla yanaşı, penitensiar praktika göstərir ki, azadlıqdan məhrumetmə yerlərində əks vəziyyət müşahidə olunur: yetkin qadınlar cəza çəkilmə rejiminə vicdanla riayət edirlər, münaqişəli vəziyyətləri başlamırlar və kişilərdən fərqli olaraq, məhkumlar arasında lider olmağa çalışmırlar [3, s. 113]. Bu xüsusilə yaşlı qadınlara aiddir. Buna görə də, cəzanın icrasını fərdiləşdirərkən, onların potensial müsbət yönümünü nəzərə almaq və mümkün qədər stimullaşdırmaq lazımdır. Lakin islah koloniyalarında yetkin və yaşlı qadınlar gənclərdən daha azdır. Təcrübənin təhlili göstərir ki, müəyyən edilmiş cəza qaydalarının pozulması gənc yaşlı məhkumların payına xeyli miqdarda düşür. Bu fakt cinayət-icra hüququ elminə çoxdan məlumdur və kifayət qədər əsaslandırılmış izahat almışdır. Gənc qadınlar müstəqil həyatın ilkin mərhələsindədir, penitensiar adaptasiyanın mürəkkəb prosesini yaşayırlar, bunun nəticəsində onlara eqoizm, insanlara və cəmiyyətə etinasızlıq, qanuna, cəza çəkmə rejiminə biganə münasibət xasdır.

Bununla yanaşı, belə qadınlara "kifayət qədər inkişaf etmiş məsuliyyət hissi, avantürizm, həyata keçirilən hərəkətlərin mümkün nəticələrinin zəif təhlili, impulsivlik xasdır. Ona görə də azadlıqdan məhrumetmə yerlərində onlar çox vaxt özlərini intizamlı aparmırlar, həbsxana subkulturasının "romantikasını" mənimsəyirlər. Bununla əlaqədar, fikrimicə, qadını öz davranışı və onun nəticələri barədə düşünməyə məcbur etmək üçün göstərilən xüsusiyyətlərin ilk təzahürləri zamanı azadlıqdan məhrum etmə növündə cəzanın sərtliyini nümayiş etdirmək və gələcək pozuntuların perspektivi kimi ciddi təsir tədbirlərini göstərmək lazımdır.

Məhkum-qadının az əhəmiyyət kəsb etməyən xarakteristikası onun təhsil səviyyəsidir. Ali təhsilli şəxslər daha az cinayət törədirlər. Bu ali təhsilin nəinki peşəkar bilik və bacarıqların əldə edilməsini nəzərdə tutması, həm də ümumbəşəri dəyərlər haqqında təsəvvür yaratması, insanın dünyagörüşünü genişləndirir, onun mənəvi və estetik hisslərini tərbiyə edir və s. Bütün bunlar, şübhəsiz ki, həmin insanın anti-icmai həyat tərzinin aparılmasına mane olur. Eyni zamanda aydındır ki, azadlıqdan məhrumetmə yerlərində artıq cinayət etmiş şəxslər var. Yüksək təhsil səviyyəsinə malik qadınlar əsasən müsbət xarakterizə olunur. Bəzi tədqiqatçılar bunu onunla izah edirlər ki, "kifayət qədər yüksək təhsil səviyyəsinə malik olan şəxs daha çox sosial və hüquqi normaların pozulmasının nəticələrini qabaqcadan görə, dərk edə bilər. Bununla yanaşı, aşağı təhsil səviyyəsinə malik şəxslərin digər insanlara etinasızlığı, hisslərin kobudluğu, xarici mühitin təsirlərinə re-

aksiyaların qeyri-adekvatlığı müşahidə olunur" [7]. Əlbəttə ki, təhsil həlledici amil deyil, ancaq, eyni zamanda, məhkum-qadından nə gözlənilməsini proqnozlaşdıra bilər, buna görə də cəzanın icrasını fərdiləşdirərkən bu amil nəzərə alınmalıdır.

Məhkumun davranışına onun ailə vəziyyəti böyük təsir göstərir. Qərbi Avropada aparılan araşdırmalara əsasən, rəyi soruşulan məhkum qadınların əksəriyyəti (55 %) nikahda deyil, ailəlidir – 23%, boşanma şəraitində – 17%, 0,5% - i isə cəza çəkdikləri dövrdə nikahı bağlayıb və ləğv edib. Rəsmi qeydiyyatdan keçmiş əlaqələrin olmaması qadınların uşaq sahibi olmasına mane olmur (60 %). Lakin 15% valideynlik hüquqlarından məhrumdur, onlardan dörddə biri cəza çəkərkən bu hüquqdan məhrum edilib. Rəyi soruşulan qadınların 67% - i azadlıqdan məhrumetmə yerlərindən azad edildikdən sonra öz uşaqları ilə yaşayacaqlarını bildirir. Qeyd olunan məlumatlar məhkum qadınların islah edilməsi və sosial adaptasiyası işində uşaqlarla münasibətlərdən istifadənin aktuallığını, həmçinin ailə-nigah dəyərlərinin aşılanması üzrə tərbiyəvi işin təşkilinin zəruriliyini təsdiq edir. Bu cür tədbirlər hüquqi ədəbiyyatda artıq işıqlandırılmışdır.

Aydındır ki, ailə həyatı müxtəlif cür inkişaf edir. Tez-tez həyat yoldaşları və uşaqları ilə sevgidən məhrum olan əlaqələr var. Lakin əksər hallarda ailə məhkum-qadını hüquqazidd davranışdan çəkindirir. Qadınlar doğmaları və yaxınları ilə, xüsusilə də uşaqlarla görüşməyə çalışırlar və mümkün qədər bunu tez-tez edirlər. Ailə məhkum-qadına mənəvi və maddi dəstək verir. Bu, təcrid şəraitdə xüsusilə əhəmiyyətlidir. Beləliklə, məhkum-qadının şəxsiyyətinin xarakterizə olunmasında ailə vəziyyəti mühüm rol oynayır. Bu baxımdan, ailənin parçalanmasına xüsusi diqqət yetirmək lazımdır, çünki bu, qadının ümumi vəziyyətinə mənfi təsir göstərir. Ailənin itirilməsi ləyaqət, özünə hörmət və inam hissini azaldır. Belə qadınlar asosial meyllərin, vərdişlərin aradan qaldırılmasında passivlik ilə xarakterizə olunur, əməyə vicdansızcasına yanaşmağa, təhsildən imtina etməyə başlayırlar. Qadın-məhkumların tərbiyəsinə cavabdeh olan islah müəssisəsinin əməkdaşlarını nəzərdən qaçırmaq olmaz. Fərdi tərbiyə işinə və psixoloji yardıma böyük diqqət yetirilməlidir, eyni zamanda həvəsləndirmə və tənbeh tədbirləri də mühüm rol oynaya bilər ki, bunların da köməyi ilə bəzi hallarda qanuna tabe olmağı stimullaşdırmaq olar, bəzilərində isə məhkumun dövriyyədə olan təcavüzünün qarşısını almaq olar. Yuxarıda göstərilən tədbirlərin hər birini fərdi olaraq və qadının şəxsiyyətinin və davranışının bütün xüsusiyyətlərini nəzərə alaraq tətbiq etsək, bu, müsbət nəticələrə səbəb ola bilər.

Cəzanın icrasının fərdiləşdirilməsi zamanı nəzərə alına biləcək şəxsiyyətin bəzi xüsusiyyətləri törədilmiş hüquqpozmada özünü göstərir. Aydındır ki, hər bir cinayət əməlinə cinayətkarın müəyyən xüsusiyyətləri, onun bacarıq və vərdişləri, intellektual inkişafı, cinayətin törədilməsindən əvvəlki hadisələr və s.uyğun gəlir. D. Bouen dediyi kimi, "Biz, ümumiyyətlə, o cümlədən cinayətkarların hansısa hərəkətlərin təsadüfi xarakterə malik ola biləcəyini düşünmürük. Bu cür hərəkətlər həyatın qanunauyğun yekunudur, müəyyən şəxsi xüsusiyyətlərdən irəli gəlir, yəni subyektiv olaraq şərtlənir və daxilən məqsədəuyğundur" [5, s. 452–457]. Buna görə də törədilmiş cinayətdən irəli gələrək məhkum qadınların ayrı-ayrı fərdi xüsusiyyətlərini müəyyən etmək olar. Əlbəttə ki, islah müəssisələri orada olan şəxslərə təsir göstərir, lakin bütün əvvəlki həyat ərzində formalaşmış şəxsiyyətin dərin xüsusiyyətlərini dəyişmək kifayət qədər çətindir. Bu bağlılıqda S. Abasova yazır ki, "cinayət bütövlükdə şəxsiyyətin əhəmiyyətli bir təzahürüdür, onun xaricində məhkumun şəxsiyyəti barədə ümumiyyətlə danışmaq olmaz. O, bir növ, məhkum-qadının şəxsiyyətinə qiymət verir, onun ictimai təhlükəliliyini və cəmiyyətin əleyhinə davranış meyillərini göstərir, həmçinin onun marağını, tələbatını, motivlərini, məqsədlərini və dəyər istiqamətlərini göstərir" [10, s.195]. Deməli, əgər şəxsiyyətin xüsusiyyətləri törədilmiş cinayətdə özünü göstərirsə və azadlıqdan məhrumetmə yerlərində qadının davranışını müəyyən edirsə, deməli, cinayət məhkumun davranışının hazırdakı və gələcək göstəricisidir.

Qərəzli və zorakı cinayətlər törətmiş qadın-məhkumlar daha çox fərqlənirlər. Belə ki, V. P. Revin və E. V. Kuns iddia edirlər ki, "zorakı cinayətlərə görə məhkum olunmuş qadınların əksəriyyəti norma daxilində müxtəlif psixoloji qüsurlar-

dan əziyyət çəkirlər. Onlara aqressivlik, yüksəldilmiş emosional həyəcanlılıq, böyük daxili həyəcan xasdır. Şişirdilmiş iddialar tez-tez münaqişələrin səbəbi olur" [12, s. 30-33]. Bundan əlavə bu qadınlar çılğın, gücsüzdürlər, hazırda üstünlük təşkil edən emosiyaların təsiri altında hərəkət etməyə meyllidirlər. Bununla yanaşı, onlar böyük eqoizm, ümumi qəbul edilmiş normalara etinasızlıq ilə xarakterizə olunur. Tamahkar cinayətlərə görə məhkum olunmuş qadınlar müəyyən dərəcədə ziddiyyətli xarakterə malikdirlər. Bu cür şəxslər daha az emosiyalı olur, lakin eyni zamanda daha davamlı antisosyal qurğulara malik olduqlarını, törətdikəri cinayətlərə görə günah və tövbə hissi duymurlar. Bununla yanaşı, bu qadınlar zorakı cinayətkarlarla müqayisədə daha sosial adaptasiya edilmiş, daha az aqressiv və impulsivdirlər, onlarda sosial vəziyyətlə bağlı narahatlıq və uğursuzluqlar daha az ifadə olunur. Beləliklə, ümumiləşdirmək olar ki, zorakı cinayətlərə görə məhkumlardan cəzanın çəkilməsinin müəyyən edilmiş qaydasının tez – tez pozulmasını, tamahkar cinayətkarlardan daha sakit davranılmasını gözləmək olar ki, bu da onların islah edilməsinə işarə vermir. Bu xarakteristikalar nəzərə alınmaqla məhkumun davranışını proqnozlaşdırmaq, tərbiyə işini aparmaq və azadlıqdan məhrum etmə növündə cəzanın icrasını fərdiləşdirmək lazımdır. Məhkum qadınların fərqləndiyi növbəti əlamət cinayətlərin təkrarlanmasıdır. O, cinayət məsuliyyətinin fərqləndirilməsi və fərdiləşdirilməsi zamanı mühüm rol oynayır ki, bu da məhkumun şəxsiyyətinin və onun davranışının öyrənilməsində onun əhəmiyyətini təsdiqləyir. Şübhəsiz ki, ilk dəfə olaraq məhkum olunmuş və əvvəllər cəza çəkmiş şəxslər cəzaya münasibəti, dəyər istiqamətləri, həyat ideallları və onların düzəldilməsi prosesinə təsir edən digər xüsusiyyətləri ilə əhəmiyyətli dərəcədə fərqlənirlər. Buna görə də, təkrarlanma meyarı cəzanın icrası mərhələsində nəzərə alınmalıdır.

İlk dəfə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş qadınlar üçün təcrid olunma şəraiti neqativ təsir edir. Bu, xüsusilə uşaqları, ailəsi olanlara aiddir, çünki, qadınlar daim onların yardımlarına və dəstəyinə güvənməyə alışkandılar. Onlar azadlıqdan məhrumetmə yerlərinə düşərkən təklik və ümidsizlik hiss edirlər. Şəxsi məkanın olmaması, təklik üçün yer və kənarlarla, tanımadığları insanlarla birlikdə yaşamaq zəruriliyi ilə üzləşirlər. Z. Əliyev haqlı olaraq vurğuladığı kimi, bu kateqoriyadan olan qadınlar daha çox narahatlıq, stress, depressiya, məyusluq kimi psixi vəziyyətləri qeyd edirlər. Azadlıqdan məhrum etmə, onlar üçün emosional zərbəni təmsil edir [2, s. 225]. Tamamilə aydındır ki, bütün sadalanan xüsusiyyətlər cəzanın çəkilməsinin ilkin dövründə daha qabarıq şəkildə özünü göstərir. Onlar islah koloniyasındakı həyat şəraitinə tədricən öyrəşirlər və hər hansı bir neqativ psixi vəziyyətlər onlarda daha az təzahür edirlər, amma əvvəlcə qadınlar məyusluq hissinin qurbanı olurlar. Məhz bu dövrdə məhkumun şəxsiyyətini öyrənmək və müvafiq tədbirlər görmək lazımdır. Sonradan müsbət səciyyələndirilən qadınların əksəriyyəti cəzanın çəkilməsinin birinci dövründə əzmkar vəziyyət yaşadılar. Sonradan rejimin pozulmasına yol verən qadınlar arasında isə əksəriyyət azğınlıq vəziyyətində idi. Bu, başa düşüləndir. Qərəzsizlik, təyin edilmiş cəza ilə razı olmama qaçılmaz olaraq rejimin pozulmasına, təcavüz və yaranmış vəziyyətlə barışmaq istəməmənin ifadəsi formasına gətirib çıxarır. Depressiya isə apatiyaya yaxın olan bir vəziyyətdir və buna görə də aktiv hərəkətlər, xüsusilə də münaqişəli hərəkətlər nəzərdə tutmur. Bu halda, qadına kimin kömək edəcəyi vacibdir - mənfi əhval-ruhiyyəli və ya islah müəssisələrinin əməkdaşları tərəfindən müsbət xarakterizə olunan məhkumlar. Buna görə də ilk dəfə olaraq məhkum edilmiş qadınlara cəza çəkmənin ilkin mərhələsində xüsusi diqqət yetirilməlidir və şəxsi dəyişikliklər nümayiş etdirildikdə, cəzanın icrasını fərdiləşdirmək lazımdır.

Daha əvvəl azadlıqdan məhrum edilmiş qadınların xüsusiyyətlərini araşdıraraq, xüsusilə təhlükəli təkrarlanma zamanı cinayət törətmiş şəxslərin üzərində ayrıca dayanaq. Onların əksəriyyətində tez-tez rast gəlinən xüsusiyyətləri seçək. Bu cür məhkum-qadınlarda əxlaqsızlıq, vəzifə hissinin olmaması, mənəvi ehtiyacların üstünlük təşkil etməsi, öz şəxsiyyətinin əhəmiyyətinin şişirdilməsi və s. kimi xüsusiyyətlər əks olunur. Onlarda güclü sosial dezadaptasiya müşahidə olunur ki, bu da kişilərlə müqaisədə daha yüksək göstəricini əks etdirir. Eyni zamanda, yetkin və yaşlı qadın-

lar xüsusilə təhlükəli residivistlər sırasında olurlar. Buna görə də, onlardan tez-tez rejimin pozulmasını gözləmək lazım deyil. Təcrübə göstərir ki, belə məhkumlar daha intizamlı olurlar.Hazırda əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkən qadınlar ümumi rejimin ayrı-ayrı islah koloniyalarında saxlanılırlar. Təəccüblüdür ki, ilk dəfə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş qadınlar da ümumi rejimin islah koloniyalarında saxlanılırlar. Cəzanın icrasının fərdiləşdirilməsi prinsipinin pozulduğu göz önündədir. Əvvəllər ciddi rejimli cəzaçəkmə müəssisələrində yalnız cinayətlərin xüsusilə təhlükəli residivində məhkum olunmuş qadınlar saxlanıldıqda, azsaylı olduğuna görə bu müəssisələrin ləğvi əsaslı idi. Lakin bu gün əvvəllər azadlıqdan məhrum etməmiş, ayrı-ayrı müəssisələrdə, lakin eyni rejimli cəzaçəkmə müəssisələrində çalışan qadınların ayrılıqda saxlanılması ilə əlaqədar təkrar məhkum olunmuş şəxslər üçün ciddi rejimli islah koloniyalarının reanimasiya edilməsi məsələsi gündəmə gəlir. Fikrimcə, bu təklif azadlıqdan məhrum etmə növündə cəzanın icrasının fərdiləşdirilməsini gücləndirəcək. Məhkum qadınların xarakterik cəhətlərinə baxarkən, şübhəsiz ki, onların şəxsiyyətinin daha ətraflı öyrənilməsinə kömək edəcək, psixi pozuntuları olan şəxslərin xüsusiyyətlərini qeyd etmək lazımdır. Bu məhkumlar kifayət qədər aydın səbəblərə görə digər kateqoriyalardan əhəmiyyətli dərəcədə fərqlənirlər. İslah koloniyalarında şizofreniya, psixopatiya, narkomaniya, alkoqolizm, nevrotik xəstəliklər və s. əziyyət çəkən məhkumlara rast gəlinir.

Onların xarakteristikası üçün N. Kasterinanın bu məsələnin tədqiqinin nəticələrini qeyd etmək maraqlı olardı. O hesab edir ki, şizofreniya xəstələri daha az emosional ünsiyyətcilliyi ilə fərqlənirlər, tək olmağa üstünlük verirlər, nadir hallarda törətdikləri cinayəti gizlədirlər. Nevrotik xəstəliklər zamanı qeyri-formal ünsiyyət çətinləşir, münaqişələr yalnız narazılıq hissini gücləndirir, narahatlığı artırır. Alkoqolizmdən əziyyət çəkən qadınlar tərslik, aqressivlik ilə birləşərək xarakterizə olunur. Lakin islah müəssisəsində qalmağın birinci dövrü ilə bağlı narahatlıqlar son dərəcə zəif ifadə olunub. Nəhayət, narkotikdən asılı məhkumlar baxış və inanc sisteminə sahibdirlər, davranışlarının uyğunsuzluğu, yaxşı işlər görmək qabiliyyətlərinin həddən artıq qiymətləndirilməsi ilə xarakterizə olunurlar. Diqqət çəkən bir məqam odur ki, bu cür qadınlar bu cür qadınları cəzanın icrasını təxirə salmaqla minimal baxış keçirməyə məcbur etmək mümkündür. Bütün bunlar məhkumları mövcud xəstəliklərdən asılı olaraq xarakterizə edir. Eyni zamanda, belə qadınlara xas olan ümumi xüsusiyyətləri ayırmaq olar. Beləliklə, M. Berg yazır ki, məhkum qadınlara ehtiyatlılıq, ümidsizlik, məyusluq, həsrət, yorğunluq və ya əksinə, həyəcan xasdır [4, s.117-120]. Avropa tədqiqatçıları hesab edirlər ki, bu məhkumlar həddindən artıq gərginlik, həyəcan, həddindən artıq inhibitor reaksiyalarla fərqlənir ki, bu da həyat vəziyyətlərinin, öz hərəkətlərinin qeyri-adekvat qiymətləndirilməsinə və rəhbərliyin tələblərinə səhv cavab verilməsinə səbəb olur. Müvafiq olaraq, demək olar ki, psixi pozuntular tətbiq edilən təsir tədbirlərinin qavranılmasına müəyyən təsir göstərir. Bu faktı cəzanın icrasının fərdiləşdirilməsi zamanı da nəzərə almaq lazımdır.

Beləliklə, demək olar ki, məhkumun şəxsiyyəti haqqında müəyyən təsəvvür yaradan ayrı-ayrı xarakteristikalar aşkar edilmişdir. Bizim fikrimizcə, onlar fərdi xüsusiyyətləri öyrənərkən nəzərə alınmalıdır, çünki onlar azadlıqdan məhrumetmə yerlərində qadınların davranışını izah edə və ya proqnozlaşdıra bilərlər. Belə ki, məsələn, az təhsil səviyyəsinə malik və uşaqları olmayan zorakı cinayətlərə görə məhkum olunmuş gənc yaşda olan şəxslərdən cəzanın çəkilməsinin müəyyən edilmiş qaydasının tez-tez pozulmasını gözləmək olar. Bütün bu hallar cəzanın icrasının fərdiləşdirilməsi və islah təsiri tədbirlərinin tətbiqi zamanı nəzərə alınmalıdır.

**Ədəbiyyat**

1. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 491 s.

2. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı: “AZSEA” nəşriyyatı, 2012, 225 s.
3. Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin Ümumi Tövsiyələrinin Seçmə Toplusu. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı, Bakı, 2018, 113 s.
4. American Psychiatric Association. Diagnostic and statistical manual of mental disorders (4th ed., text rev.). Washington, DC: Author. Berg, M. T., & Huebner. Reentry and the ties that bind: An examination of ocial ties, employment, and recidivism. Justice Quarterly, 2000, p. 382–410.
5. Bowen, D. J., Kreuter, M., Spring, B., Cofta-Woerpel, L., Linnan, L., Weiner, D. Fernandez, M. How we design feasibility studies. American Journal of Preventive Medicine, 2009, p. 452–457.
6. Braun, V., & Clarke, V. Using thematic analysis in psychology. Qualitative Research in Psychology, 2006, p. 77–101.
7. By the phrases “female criminality” and “women’s criminality,” I mean only the legal violations committed by women that were legally defined and sanctioned in penal codes. The concept thus refers to the entire spectrum of the punishable acts of women and does not refer to “woman-specific” or “woman-like” crimes.
8. Campbell, J., Sellen, J., & McMurran, M. Personal aspirations and concerns Inventory for offenders: Developments in the measurement of offenders’ motivation. Criminal Behaviour and Mental Health, 2010, p. 144–157.
9. J.S.Peters, Andrea Wolper. Women's Rights, Human Rights: International Feminist Perspectives. 1st Edition, Routledge, 1994, p. 384.
10. Абасова С. А. Проблемы исполнения наказания в исправительной колонии общего режима для осужденных к лишению свободы женщин : дис. канд. юрид. наук. Махачкала, 2003. 195 с.
11. Кастерина Н. В. Женщины с психическими отклонениями в местах лишения свободы // Человек. 2007. № 2. С. 115–120.
12. Ревин В. П., Кунц Е. В. Женщины в исправительных учреждениях: проблемы воспитательной работы // Закон и право. 2005. № 10. С. 30–33.
13. Уваров И. А. Причины преступного поведения осужденных женщин в пенитенциарных учреждениях // Пенитенциарный опыт Англии и возможности его реализации в уголовно-исполнительном законодательстве России и Белоруссии. Рязань, 2004. С. 189–194.

**Gunay Hajiyeva**

**Characteristics of the personality of convicted women and its impact on the individualization of the execution of punishment**

**Summary**

Convicted women are a special category of persons held in places of deprivation of liberty. They have specific social, psychological, biological, and other characteristics. This requires a special approach to the study of the personality of convicted women, and also explains their behavior differently than that of men. In this regard, when individualizing the execution of sentences against women, it is necessary to have a full understanding of the data of convicts, while it is unacceptable not to take into account seemingly insignificant features. When studying the personality of a woman, various methods should be used to determine certain qualities. At the same time, there are some signs or patterns that give a general idea of the convicted person. Of course, there are exceptions to every rule, but in any case, it becomes possible to create a certain portrait of a convicted woman. These features must be taken into account when individualizing the execution of a sentence of imprisonment.

**Гюнай Гаджиева**

**Характеристика личности осужденных женщин и ее влияние на индивидуализацию исполнения наказания**

**Резюме**

Осужденные женщины-это особая категория лиц, содержащихся в местах лишения свободы. Они имеют специфические социальные, психологические, биологические и другие особенности. Это требует особого подхода к изучению личности осужденных женщин, а также объясняет их поведение иначе, чем у мужчин. В связи с этим при индивидуализации исполнения наказания в отношении женщин необходимо иметь полное представление о данных осужденных, при этом недопустимо не учитывать несущественные на первый взгляд особенности. При исследовании личности женщины следует использовать различные методики определения тех или иных качеств. В то же время существуют некоторые признаки или закономерности, которые дают общее представление об осужденном. Конечно, из каждого правила есть исключения, но в любом случае становится возможным создать определенный портрет осужденной женщины. Эти особенности необходимо учитывать при индивидуализации исполнения наказания в виде лишения свободы.

**SƏİDƏ HƏSƏNZADƏ**
**hüquq elmləri doktoru,**
**AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi**
**saidahasan@gmail.com**

# QADIN HÜQUQLARI: BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQİ TƏHLİL

**Açar sözlər:** qadın, ailə, uşaq, hüquq və azadlıqlar, hüquqi vəzifələr, beynəlxalq hüquq, dövlətdaxili hüquq, nikah hüququ, təhsil hüququ, konvensiyalar, qanunvericilik

**Ключевые слова:** женщина, семья, дети, права и свободы человека, правовые обязательства, международное право, национальное законодательство, право на вступление в брак, право на образование, конвенции, законодательство.

**Key words:** woman, family, child, human rights and freedoms, legal obligations, international law, national legislation, the right to marry, the right to education, conventions, legislation.

Tarixi faktlar və tədqiqatlar göstərir ki, insan hüquqlarının və azadlıqlarının tərkib hissəsi olan qadın hüquqları uğrunda əsrlərlə mübarizə aparılmış, tədqiqat əsərləri yazılmış, normativ-hüquqi aktların layihələri işlənib hazırlanmış və bütün bunlar öz tarixi rolunu oynamışdır. Hələ XVIII əsrdə fransız mütəfəkkiri S.A.Kondersenin "Vətəndaş hüquqlarına qadınların yaxın buraxılması", İngiltərədə M.Uolltsounkrofun "Qadının tabeçiliyi haqqında", Almaniyada T.F.Gilnelin "Qadının vətəndaş vəziyyətini yaxşılaşdırılması haqqında" və sair bu kimi əsərlər böyük marağa səbəb olsa da, lakin qadın hüquqlarına münasibətin dəyişməsində yadda qalan hadisəyə çevrilmədi. Bununla belə, on səkkizinci əsrin sonlarından başlayaraq cəmiyyətdə qadının rolununun və hüquqlarının artırılması istiqamətində müxtəlif hərəkatlar və təlimlər formalaşmağa başladı. Bu proses on doqquzuncu əsrdə və iyirminci əsrin birinci yarımilliyində daha da gücləndi və müxtəlif hüquqi sənədlərdə öz əksini tapmağa başladı. Təsadüfi deyil ki, qul alverinə qarşı beynəlxalq miqyasda "Afrika qulları ilə alverə son qoyulması haqqında" 1890-ci Brüssel Bəyannaməsi, "Quruda və dənizdə qul alverini ləğv etmək haqqında" 1919-cu il Sen-Jermen Konvensiyası, Millətlər Cəmiyyəti Şurasının "Köləlik haqqında" 25 sentyabr 1926-cı il Cenevre Konvensiyası və bu qərara dəyişiklik edilməsi haqqında 23 oktyabr 1953-cü il tarixli Protokolun qəbul edilməsi hələ qədim dövrlərdən qalmış qul ticarətinə qarşı böyük və aparıcı dövlətlərin birgə səyi ilə qarşısının almağa yönəldilmiş dəyərli təşəbbüslər kimi əhəmiyyətli idi. Bu normativ-hüquqi aktlar qadın hüquqları ilə sıx bağlı olmuşdur. Lakin bu sahədə əsaslı dəyişiklik 26 iyun 1945-ci ildə San-Fransisko konfransında BMT-nin Nizamnaməsinin qəbul edilməsindən sonra başlandı. (1, 8-19) Həmin Nizamnamənin 55-ci maddəsinin "c" bəndi "irqinə, cinsinə, dilinə və dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquqlarına və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət olunmasına dəstək vermək" vəzifəsini qarşıya mühüm bir vəzifə kimi qoyurdu. (1, 20-21) Beləliklə, 26 iyun 1945-ci il tarixli BMT-nin Nizamnaməsinin imzalanması və 24 oktyabr 1945-ci ildən qüvvəyə minməsi qadın hüquqları sahəsində mühüm tarixi hadisə kimi dəyərləndirilə bilər. 1946-cı ildə "Qadının siyasi, iqtisadı və sosial hüquqlarının" təmin olunmasına kömək sahəsində Komissiya"nın yaradılması mühüm tarixi əhəmiyyət daşıdı. Bu komissiyanın yaradılması dünyada qadın hüquqları və azadlıqları sahəsində ciddi problemlərin mövcud olmasına beynəlxalq birliyin reaksiyası kimi dəyərləndirilə

bilər. 10 dekabr 1948-ci ildə "Ümumdünya insan hüquqları Bəyanməsi"nin qəbul edilməsi bəşəriyyət tarixində insan hüquqlarının formalaşdırılması və təşəkkülü sahəsində ən böyük hüquqi sənədlərdən biri kimi mühüm əhəmiyyətə malik oldu. Bu sənəd insan hüquqları və azadlıqları uğrunda əsrlərlə davam edən "ölüm-dirim" mübarizəsinin nəticəsi idi. San - Fransisko Konfransı "İnsan hüquqları haqqında Beynəlxalq Bill"in hazırlanmasını vacib hesab etdi. 16 fevral 1946-cı il tarixdə isə İqtisadi və Sosial Şura özünün İnsan hüquqları üzrə Komissiya yaratdı. (2, 31-42) BMT Nizamnaməsinin və "Ümumdünya insan hüquqları Bəyannaməsi"nin qəbul edilməsi beynəlxalq hüququn tənzimləmə funksiyası sahəsində yeni keyfiyyət dəyişikliklərinin başlanğıc mərhələsi kimi qiymətləndirilə bilər. Sonrakı dövrlərdə beynəlxalq hüquq yaradıcılığı məhz BMT-nin, onun Baş Assambleyasının, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın, Hamilik Şurasının, Haaqa Beynəlxalq Məhkəməsinin, eləcə də BMT-nin on yeddi ixtisaslaşmış təşkilatının və digər qurumlarının fəaliyyəti beynəlxalq hüquq sahəsində misilsiz xidmətlər kimi tarixə çevrilmişdir. Bu sənəd insan və vətəndaş hüquq və azadlıqlarının, o cümlədən qadın hüquqlarının və azadlıqlarının təkmilləşdirilməsi, müdafiəsi və mühafizəsi sahəsində mühüm əhəmiyyətə malik oldu. Eləcə də 16 dekabr 1966-cı ildə qəbul edilmiş "Mülki və siyasi hüquqlar haqqında" beynəlxalq Pakt, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq Pakt, "Uşaq hüquqlarına dair" Konvensiya, "Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqlarını dəstəkləmək və müdafiə etmək haqqında hüquq və məsuliyyət haqqında" BMT Bəyannaməsi mühüm əhəmiyyət kəsb edir. BMT Baş Məclisinin 1970-ci il Bəyamnaməsində göstərilirdi ki, hər bir dövlət insan hüquqlarına və əsas azadlıqlarına ümumi hörmət və riayət edilməsinə birgə və müstəqil təsir göstərmək yolu ilə kömək etməlidir. (3) Bu baxımdan BMT-nin "Mülki və siyasi hüquqlar" haqqında 16 dekabr 1966-cı il tarixli beynəlxalq paktı, elə həmin tarixdə qəbul edilmiş İqtisadi və Sosial Pakt mühüm tarixi əhəmiyyətə malik olmuşdur. Beynəlxalq miqyasda insan hüquqları və azadlıqalrı sahəsində qəbul edilmiş bu normativ-hüquqi aktlar məişətdə, ictimai - siyasi həyatda, siyasi proseslərdə ardıcıl və sistemli şəkildə, eyni zamanda qadın hüquqlarının məhdudlaşdırılması, irqi və cinsi ayrı-seçkilik prosesləri dünya dövlətlərinin səylərini səfərbər edərək beynəlxalq əhəmiyyətli bir çox normativ-hüquqi aktların qəbul edilməsi ilə nəticələndi. Belə ki, Birləşmiş Millətlər Təşkilatının, digər beynəlxalq və regional qurumların birgə səyi ilə qadın hüquqlarının və azadlıqlarının tənzimlənməsi, həyata keçirilməsi və müdafiəsi istiqamətində beynəlxalq standartların əsas meyarlarının formalaşdırılması ardıcıl və sistemli şəkildə həyata keçirildi. Belə ki, 2 dekabr 1948-ci ildə BMT-nin "İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı Konvensiya"sının, "İnsanlarla ticarətə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" 02 dekabr 1949-cu il tarixli Konvensiyasının, "Köləliyin qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında" 30 aprel 1950-ci il tarixli Konvensiyasının, 20 dekabr 1952-ci ildə "Qadınların siyasi hüquqları haqqında Konvensiya"nın, "Vətəndaşlığın azaldılması haqqında" 4 dekabr 1954-cü il tarixli Konvensiyanın, "Ərli qadının vətəndaşlığı haqqında" 29 yanvar 1957-ci il tarixli Konvensiyasının, "Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında" 07 noyabr 1962-ci il tarixli Konvensiyası, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 20 dekabr 1965-ci il tarixli Konvensiya, "Ölkə daxilində yerini dəyişmiş  şəxslərin məsələləri üzrə müddəa"ya dair sənəd, "Qadın və uşaqların fövqəladə hallarda, silahlı münasiqələr dövründə müdafiəsi haqqında" 14 iyun 1977-ci tarixli Bəyannamə, "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" 18 dekabr 1979-cu il Konvensiyası, "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" 10 dekabr 1984-cü il tarixli Konvensiyası, "Yetkinlik yaşına çatmayanlar barəsində Ədalət mühakiməsinin həyata keçirilməsinə aid" 29 noyabr 1985-ci il tarixli Standart Qaydaları" və onlarla digər beynəlxalq konvensiyaların, sazişlərin, paktların, bəyannamələrin, bəyanatların qəbul edilməsi bəşəriyyətin qadın hüquqlarına və azad-

lıqlarına verdiyi böyük önəmin bariz nümunəsi kimi səciyyələndirilə bilər. (4,34-36)

"Ümumdünya insan hüquqları Bəyannaməsi" qadınların azad və bərabər doğulmaqla, onların irqi, cinsi, dili, dini, siyasi, milli, sosial, silki bərabərlik və siyasi statusuna görə kişilərlə eyni hüquqlu olduğunu bəyan edir. Bu Bəyannamə insanların kölə və asılı vəziyyətdə saxlanılmasını, işgəncələrə və qeyri insanı rəftara məruz qalmasını qadağan edir. İnsanların yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, qanun qarşısında bərabərlik, sərbəst hərəkət və yaşayış yeri seçmək, nigah və ailə münasibətlərinə girmək, əmlaka sahib olmaq, dövlətin idarə olunmasında iştirak etmək, seçmək və seçilmək, işləmək, əmək haqqı almaq, məzuniyyətə çıxmaq, təhsil almaq, layiqli yaşamaq və sağlam olmaq, sosial təminat hüququndan istifadə etmək, hüquqlarının qorunması üçün məhkəməyə müraciət etmək, vicdan, din, düşüncə və ifadə azadlığına sahib olmaq, pozulmuş hüquq və azadlıqlar barədə istədiyi müdafiəçi vasitəsilə məhkəmədə hüquqlarını müdafiə etmək, qərəzsiz, açıq və ədalətli məhkəmə tələb etmək və sair bu kimi kompleks hüquqları olduğu təsbit olunur.

BMT-nin 16 dekabr 1966-cı ildə qəbul edilmiş iki paktı - "Mülki və siyasi hüquqlar haqqında", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" paktları, habelə "Uşaq hüquqlarına dair" Konvensiya, "Hamı tərəfindən tanınan insan hüquqlarını və əsas azadlıqlarını dəstəkləmək və müdafiə etmək haqqında hüquq və məsuliyyət haqqında" BMT Bəyannaməsi, 20 dekabr 1952-ci ildə qəbul edilmiş "Qadınların siyasi hüquqları haqqında" Konvensiya, 18 dekabr 1965-ci il tarixdə qəbul edilmiş "Qadınların münasibətdə ayrı-seçkiliyi bütün formalarının aradan qaldırılması haqqında" Konvensiya, 21 dekabr 1965-ci il tarixdə qəbul edilmiş "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiya və yüzlərlə digər sənədlər insan və vətəndaş hüquq və azadlıqlarının təkamülündə müstəsna rol oynamışdır. Belə ki, BMT-nin 16 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hquqlar haqqında" Paktı millətlərə və xalqlara öz müqəddaratını təyin etmək, eləcə də hər bir fərdin sosial, iqisadi və mədəni inkişafının təmin olunmasına çalışmaq, ədalətli əmək haqqı almaq, qadın və kişilərin bərabərliyi əsasında qənaətbəxş yaşayış, normal iş şəraiti və istirahət hüququna malik olmaq, həmkərlar təşkilatlarında birləşmək, təhsil almaq, o cümlədən pulsuz ibtidai təhsil almaq, mədəni və elmi həyatda iştirak etmək, yaradıcılıq azadlığına sahib olmaq, aclıqdan müdafiə olunmaq, fiziki və psixi sağlamlığını qorumaq, sağlam ətraf mühitdə yaşamaq və sair bu kimi hüquqları nəzərdə tutmuşdur. Pakt hüquq və azadlıqların yalnız qanun çərçivəsində məhdudlaşdırılmasını mümkün hesab etməklə hüquq və azadlıqların azaldılmasını yolverilməz hesab etmişdir. (4, 58-69)

BMT-nin "Mülki və siyasi hüquqlar haqqında" 16 dekabr 1966-cı il tarixli Paktı millətlərin öz müqəddaratını təyin etmək hüququnu tanımaqla, insanların irqi, rəngi, cinsi və sair fərqə görə, habelə ümumiyyətlə insan hüquqlarının məhdudlaşdırılmasının qadağan edilməsini vacib hesab edir. Pakt kişi və qadınların mülki və siyasi hüquqlarının təmin olunmasını, fövqəladə vəziyyət şəraitlərində insan hüquqlarının qorunmasını vacib hesab edir və işgəncələri, insanın kölə halında saxlanılmasını, məcburi əməyə cəlb edilməsini, borca görə azadlıqdan məhrum edilməsini, müharibə təbliğatını, zorakılığı və dini nifrəti, dil, din, cins və digər fərqlərə görə ayrı seçkiliyi qadağan edir. Bu sənəddə yaşamaq hüququnun insanın ayrılmaz hüququ olduğu bəyan edilir və ölüm hökmünün ləğv edilməsi arzu olunur. İnsanın öz mahiyyəti və təbiəti etibarı ilə azadlıq və şəxsi toxunulmaz hüququnun qorunması, onun insanı rəftara və hörmətə layiq olması hüququnun qorunması, davranışlarında azad və sərbəst olmaqla ölkədən çıxarılmanın yalnız qanunlar əsasında həyata keçirilməsinin mümkünlüyü, təqsirsizlik preziumpsiyası, məhkəmə qarşısında bərabərlik və müdafiə hüququnun təmin olunması, şəxsi və ailə həyatının toxunulmazlığının, düşüncə, fikir, vicdan, din və söz azadlığının qorunması, ailənin müdafiəsi, nigah hüququ, qanun qarşısında bərabərlik hüququ, etnik dini və dil azadlığı mükəmməl formada ifadə edilmişdir. (4, 69-89) Bu paktlara edilmiş fakultətiv protokollar onların hər birinin mükəmməl tətbiqi üçün əlverişli şəraiti təmin edir və bu sənədlərin inkişafını zamanın tələblərinə uyğunlaşdırır. Bu baxımdan qadın hüquqlarının və azadlıqlarının beynəlxalq hüquqi tənzimlənməsi

sahəsində BMT-nin Baş Assombleyasının 20 dekabr 1952-ci il tarixli 640 saylı Qətnaməsi ilə təsdiq edilmiş "Qadınların siyasi hüquqları haqqında", BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" 18 dekabr 1979-ci il tarixli Konvensiyalarının, BMT-nin 20 dekabr 1993-cü il tarixli 48/104 saylı Qətnaməsi ilə təsdiq edilmiş "Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında" Bəyannamənin və digər beynəlxalq hüquq normalarının mühüm tarixi rolu olmuşdur. Eləcə də bu və ya digər şəkildə qadın hüquqları və azadlıqları ilə bağlı olan BMT-nin 7 noyabr 1962-ci il tarixli "Nigaha daxil olmağa razılıq, minimal nigah yaşı və nigahların qeydə alınması haqqında" Konvensiya, BMT-nin 21 dekabr 1965-ci il tarixli "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiya, (5, 264-276) və digər çoxsaylı normativ-hüquqi aktlar qadınlara münasibətdə müxtəlif ictimai münasibətlərin beynəlxalq miqyasda tənzimlənməsini təmin edən sənədlər kimi olduqca əhəmiyyətlidir. Bu sənədlər bəşəri təfəkkürün və insan hüquqları uğrunda mübarizənin nəticəsi, hüquqi ifadə formasıdır. Belə ki, qadın hüquqları və azadlıqları uğrunda aparılan mübarizənin tarixi zəminləri BMT-nin hələ 1946-cı ildə dünya birliyində qadınların vəziyyətinə nəzarət etmək və qadınların hüquqlarının qorunmasına yardım etmək məqsədi ilə yaratdığı "Qadınların statusu üzrə Komissiya"nın apardığı uzun müddətli müşahidələrin və ümumiləşdirmələrin nəticəsi kimi, 18 dekabr 1979-cu ildə BMT-nin Baş Assambleyasının Qətnaməsi ilə "Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanı qəbul edilməsi ilə yekunlaşdı. Hazırda bu Konvensiya demək olar ki, dünyanın əksər ölkələri tərəfindən dəstəklənir. Mahiyyət etibarı ilə altı fəsli, otuz maddəni əhatə edən Konvensiyanın preambula hissəsində haqlı olaraq göstərilir ki, "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nin ayrı seçkiliyin yolverilməzliyi prinsipini qəbul etdiyi, bütün insanların azad, ləyaqət və hüquqi baxımdan bərabər doğulduğunu, cinsi fərqə görə ayrı seçkiliyin yolverilməzliyini bəyan etdiyi bir halda dünya dövlətləri tərəfindən kişilərlə qadınların bütün iqtisadi, sosial, mədəni vətəndaş və siyasi hüquqlardan istifadə etməkdə bərabərliyini təmin edən "Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın qəbul edilməsi olduqca vacibdir. (4, 705) Bu Konvensiya onu tanıyan və qəbul edən milli dövlətlərin hüquq normaları əsasında qadınların öz ölkəsinin bütün ictimai, siyasi və mədəni həyatında, dövlət idarəçiliyində, siyasi fəaliyyətdə, ailə münasibətlərində kişilərlə bərabər əsaslarda fəaliyyət göstərməsinin beynəlxalq hüquqi əsaslarını müəyyən etmiş oldu və cinsi fərqlərə görə ayrı seçkiliyin və fərq qoyulmasının yolverilməzliyini bəyan etdi. Bu müddəa Konvensiyanın birinci və ikinci maddələrində müfəssəl olaraq göstərilmişdir. (4, 706-707)

Konvensiyada qadın və kişi münasibətlərinin bərabərliyinin təsbit olunması ilə yanaşı qadın hüquqlarının müəyyən edilməsi, müdafiəsi və mühafizəsinin kompleks hüquqi və siyasi əsasları (I, II maddələr), qadın hüquqlarının təminatları (III maddə), cəmiyyətdə cinsi rolun eyniləşdirilməsi və mövhumatçı fikirlərin aradan qaldırılması (V maddə), qadın hüquqlarının pozulmasının, o cümlədən cinsi istismarın və fahişəliyin yolverilməzliyi (VI, XVII maddələr), qadınların ictimai və siyasi həyatda, dövlət idarəçiliyində, təhsildə, əmək fəaliyyətində, evlilik və ailə həyatında, iqtisadi və sosial mənfəətlərin bölüşdürülməsində və digər bu kimi vacib məsələlərin həllində nəinki kişilərlə bərabərləşdirilməsinin, habelə qadının rolunun artırılmasının vacibliyi barədə normalar nəzərdə tutulmuşdur. (4, 705-717)

Qadınlar üçün həyatı əhəmiyyət kəsb edən BMT-nin "Ərli qadının vətəndaşlığı haqqında" 29 yanvar 1957-ci il Konvensiyası, "Vətəndaşlığın azaldılması haqqında" 04 dekabr 1954-cü il tarixli Konvensiyası (4, 594-598, 620-628) və digər bu kimi Konvensiyalar mühüm rol oynamışdır. Dağlıq Qarabağ münaqişəsi kontekstində BMT-nin "Qadın və uşaqların fövqəladə hallarda silahlı münaqişələr dövründə müdafiəsi haqqında" 14 dekabr 1974-cü il tarixli Konvensiyası (4, 753-755) təəssüf ki, Ermənistanın işğalçı ordusu tərəfindən ən kobud formalarda pozulmaqda davam etməkdədir.

Avropanın beynəlxalq və regional əhəmiyyətli təşkilatları yarandığı ilk gündən başlayaraq, insan

hüquqları və azadlıqlarının tənzimlənməsinə, o cümlədən qadın hüquqlarının və azadlıqlarının qorunmasına dair Avropa Konvensiyasını qəbul etmiş və bu istiqamətdə müvafiq Komitələr yaradılmışdır. Belə ki, Avropa Şurası bu qitədə ən böyük regional təşkilatlardan biri olmaqla, 4 noyabr 1950-ci ildə Avropa Şurasının üzvləri tərəfindən "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" qəbul etdiyi Konvensiya 3 sentyabr 1953-cü ildən qüvvəyə mindi. Fərqli prosedur qaydada, yəni Amerikaarası Konfransda 20 noyabr 1969-cu ildə qəbul edilmiş insan hüquqları üzrə Amerika Konvensiyası 12 Latın Amerikası dövləti tərəfindən imzalanmışdır. Bu Konvensiya, eləcə də Afrika Xartiyası, Avropa Şurasının qəbul etdiyi "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiya məzmun etibarı ilə çox oxşar olsalar da, üzv dövlətlərin sayına və dairəsinə görə əhəmiyyətli dərəcədə fərqlənirlər. Bütün bu beynəlxalq və regional sənədlərdə qadın hüquqları və azadlıqları öz ifadəsini tapmış və qadın hüquqlarının məişətdə və ictimai həyatda intensiv formada inkişaf etdirilməsinə xüsusi önəm verilmişdir.

Qadınların və qızların cəmiyyətin maddi nemətlər istesalında mühüm roluna xüsusi önəm verən beynəlxalq əmək təşkilatları, həmkərlar ittifaqları Konfederasiyaları, digər humanitar təşkilatlar bu istiqamətdə bir çox standartları müəyyən etdi, konvensiyalar və digər normativ-hüquqi aktlar qəbul etdi. Bəşəriyyət tarixində müstəsna əhəmiyyət kəsb edən bu sənədlər zərif qadın əməyinin yalnız müəyyən standartlar daxilində tətbiqinə imkan verir, onların əməyinin, sağlamlığının, səhhətinin qorunması və mühafizəsi önə çəkilirdi. Belə ki, Beynəlxalq Əmək Təşkilatının "İcbari və ya məcburi əmək haqqında" Konvensiyası, "Hər cür şaxtalarda, yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında" 25 iyun 1935-ci il tarixli 45 nömrəli Konvensiyası, "Əmək haqqının düzgün ödənilməsi haqqında" 1951-ci il Konvensiyası, Bərabər dəyərli əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında 09 iyun 1951-ci il tarixli 100 nömrəli Konvensiya və 90 nömrəli Tövsiyə, Analığın mühafizəsi haqqında 28 iyun 1952-ci il tarixli 103 nömrəli Konvensiya və 95 nömrəli Tövsiyə, "Əmək və məşğulluq sahəsində ayrı seçkilik haqqında" 25 iyun 1958-ci il tarixli Konvensiya, "Ticarətdə və idarələrdə gigiyena haqqında" 09 iyun 1964-cu il tarixli 120 nömrəli Konvensiya, "Məşğulluq sahəsində siyasət haqqında" 1964-cü ul 122 nömrəli Konvensiya, "Ticarətdə və idarələrdə gigiyena haqqında" 17 iyun 1964-cu il tarixli 120 nömrəli Tövsiyə, "Ailə öhdlikləri olan işçilər haqqında" 1981-ci il Konvensiyası, "Məşğulluğa yardım və işsizlikdən müdafiə haqqında" 1991-ci il 168 saylı Konvensiyası, "Sosial təminatın minimum normaları haqqında" 122 nömrəli Konvensiya, "Sosial təminatın hüquqi bərabərliyi haqqında minimum normaları haqqında" 118 nömrəli Konvensiya, "İş yerlərində havanın çirklənməsi ilə, səslə və titrəyişlə yaranan peşə risklərindən müdafiə haqqında" 01 iyul 1979-cu il 148 nömrəli Konvensiya, "Əmək miqrasiyası və mühacir zəhmətkeşlərin sosial müdafiəsi sahəsində" Tövsiyə və onlarla digər beynəlxalq sənədlər, beynəlxalq birliyi və ayrı-ayrı dövlətləri ən müxtəlif dövlətlərdə, şəraitlərdə, qadın əməyinin və sağlamlığının etibarlı mühafizəsinə və qorunmasına zəruri imkan və şərait yaratdı.

İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında 04 noyabr 1950-ci ildə Romada qəbul edilmiş Avropa Konvensiyasının müddəaları insan hüquqlarına hörmət olunması öhdəliyini bəyan etməklə, insanların yaşamaq, azadlıq, toxunulmazlıq, fikir, vicdan, din, ailə, nigah hüquqlarını tanımış, köləliyi, məcburi əməyi, işgəncələri, qanunsuz cəzalandırmanı, ayrı-seçkiliyi qadağan etmişdir. Konvensiyada insanların ədalətli məhkəmə, səmərəli müdafiə hüququ vacib hesab edilmiş, insanların yığıncaq və birləşmək azadlığı, şəxsi və ailə həyatına hörmət hüququ tanınmaqla hüquqlardan sui-istifadənin qadağan edilməsi, əcnəbilərin siyasi fəaliyyətinin məhdudlaşdırılması öz ifadəsini tapmışdır. 20 mart 1952-ci il tarixli 01 saylı Protokolla mülkiyyətin müdafiəsi, təhsil hüququ, azad seçki hüququ, 16 oktyabr 1993-cü il tarixli 4 saylı Protokolla borca görə azadlıqdan məhrum etmənin qadağan edilməsi, hərəkət etmək azadlığı, vətəndaşın və əcnəbilərin kollektiv çıxarılmasının qarşısının alınması, 28 aprel 1983-cü il 6 saylı Protokolla ölüm cəzasının, o cümlədən müharibə zamanı ölüm cəzasının ləğv edil-

məsi, 22 noyabr 1984-cü il tarixli 7 saylı Protokolla əcnəbilərin çıxarılmasına dair prosessual təminatlar, cinayət işlərində şikayət vermək hüququ, məhkəmə səhvinə görə kompensasiya, eyni əmələ görə şəxsin iki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ, ər və arvadın hüquq bərabərliyi, 4 noyabr 2000-ci il tarixli 12 saylı Protokolla isə ayrı seçkiliyin ümumiyyətlə qadağan edilməsi qaydası müəyyən edilmişdir.

Avropa Şurasının məqsəd və vəzifələrinə uyğun olaraq 18 oktyabr 1961-ci ildə Turində Avropa Sosial Xartiyası və ona aid Protokol qəbul edilmişdir. Bu sənədə sonralar dəfələrlə əlavələr və zəruri düzəlişlər edilmiş və üzv dövlətlər hər bir insanın sərbəst şəkildə seçdiyi ixtisas üzrə öz zəhməti ilə yaşayış üçün qazanc əldə etmək, ədalətli, təhlükəsiz və sağlam iş şəraiti, özlərinin və ailələrinin normal həyat səviyyəsi üçün yetərli olan ədalətli mükafatlandırılma, iqtisadi və sosial maraqlarının müdafiəsi məqsədilə milli və ya beynəlxalq təşkilatlarda sərbəst birləşmək, kollektiv müqavilə bağlamaq, uşaqlar və yeniyetmələrin məruz qaldıqları fiziki və mənəvi ziyan təhlükəsindən xüsusi müdafiə, işləyən qadınların analıq dövründə xüsusi müdafiəsi, şəxsi qabiliyyət və maraqlarına uyğun olaraq peşə seçimi baxımından ona yardım göstərilməsi, peşə hazırlığı, səhhətini yaxşı səviyyədə saxlamaq, sosial təminat, sosial və tibbi yardım almaq, sosial rifah xidmətlərindən faydalanmaq, əlillərin müstəqillik, sosial inteqrasiya və ictimai həyatda iştirak etmək, cəmiyyətin əsas özəyi olan ailənin sosial, hüquqi və iqtisadi müdafiəsi, uşaqların və gənclərin müvafiq sosial, hüquqi və iqtisadi müdafiəsi, hər bir vətəndaşın bərabər əsaslarla, hər hansı bir gəlir gətirən fəaliyyətlə məşğul olmaq, işçi-miqrantlar və onların ailə üzvlərinin müdafiə və yardım, cinsi əlamətə görə ayrı-seçkiliyə məruz qalmamaq, müəssisə daxilində informasiya almaq və məsləhətləşmək, əmək şəraitini və istehsal mühitini yaxşılaşdırmaq, hər bir ahıl sosial müdafiə hüququndan istifadə etmək, məşğulluğun dayandırıldığı hallarda müdafiə hüququ, işəgötürənin ödəmə qabiliyyətsizliyi halında, onların iddialarının müdafiəsi hüququna malik olmaq, iş yerlərində insan ləyaqətini qorunmaq, işə girən və ya işə girmək istəyən, ailə öhdəlikləri olan hər bir şəxs heç bir ayrı-seçkiliyə məruz qalmadan və mümkün qədər öz işi ilə ailə öhdəlikləri arasında toqquşma yaratmadan bunu etmək hüququ, mənzil hüququ və sair bu kimi hüquqlara malik olduğu təsbit edilmişdir.

Müsəlman Şərqində, xüsusilə Azərbaycanda qadına bir ana kimi, bir bacı kimi, bir qız kimi, bir xanım kimi həmişə böyük hörmət və diqqət olmuşdur. Şərqdə ilk Demokratik Respublikanın elan olunduğu vaxtdan etibarən rəsmi şəkildə Azərbaycanda qadın və kişi hüquqlarının bərabərliyi elan edilmiş və onun real surətdə həyata keçirilməsi üçün əhəmiyyətli işlər görülmüşdür. 1921-ci ilin fevral ayında Azərbaycan hökumətinin başçısı Nəriman Nərimanovun rəhbərliyi ilə keçirilmiş Azərbaycanın bitərəf qadınlarının I Qurultayı Şərqdə qadın hərəkatının yüksəlişində misilsiz rol oynamışdır. (6, 11-12) Eləcə də Zaqafqaziya qadınlarının I Qurultayının 1922-ci ilin may ayında məhz Bakıda çağırılması və keçirilməsi Azərbaycan qadınlarının müsəlman Şərqinin həyatında əhəmiyyətli rol oynamasından xəbər verirdi. Bu istiqamətdə hələ 1923-cü ildən Bakıda "Şərq qadını" adlı jurnalın nəşrə başlaması qadın maarifçiliyinin və qadın hüquqlarının təbliğində tarixi bir rol oynamışdır. Bu ənənə SSRİ tərkibində olduğu illlərdə də Azərbaycanda davam etmiş, qadının rolu daim dinamik inkişafda olmuş, ictimai-siyasi həyatda onların rolu artırılmışdır. Azərbaycan SSR-nın fəaliyyət göstərdiyi dövrdə ölkənin əldə etdiyi bütün qələbələrdə qadınların əhəmiyyətli xidmətləri olmuş, onlar səhiyyədə, təhsildə, idmanda, elmdə, dövlət quruculuğunda və ümumiyyətlə ictimai-siyasi həyatda fəal iştirak etmişlər.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT-nin, Avropa Şurasının və digər beynəlxalq və regional təşkilatların sənədlərini tanımış və onları ratifikasiya etmişdir. Buna görə də Azərbaycan Respublikasının Müstəqillik Konstitusiyasında BMT-nin "Ümumdünya insan hüquqları Bəyannaməsi"ndə Avropa Şurasının müvafiq sənədlərində insan hüquq və azadlıqları üçün, o cümlədən qadınlar üçün nəzərdə tutulmuş hüquq və azadlıqları geniş mənada öz ifadəsini tapmışdır. Bu baxımdan qeyd edilməsi zəruridir ki, Azərbaycan Respublikası Konstitusi-

yasının müxtəlif maddələrində beynəlxalq hüquqa münasibətdə müəyyən yanaşmalar özünü göstərir. Konstitusiyanın 1-ci maddəsində hakimiyyətin mənbəyi olan Azərbaycan xalqına anlayış verilir və bu məsələdə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaların istisna edilmədiyi vurğulanır. (6, 5-6) Konstitusiyanın 7-ci maddəsində göstərilir ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi və unitar respublika olmakla, ölkədə dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. (6, 7)

Azərbaycan dövlətinin başçısı olan ölkə prezidenti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısı statusuna malikdir. Həmin sənədin 10-cu maddəsində isə göstərilir: "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş prinsiplər əsasında qurur". (6,8) Konstitusiyanın 12-ci maddəsində göstərilir ki, ölkəmizdə insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilir.

Azərbaycan öz dövlət müstəqilliyin bərpa etdikdən sonra yuxarıda qeyd edilən və edilməyən digər zəruri beynəlxalq sənədlərə qoşulmuş, qadın hüquqları və azadlıqları sahəsində dövlətdaxili hüquq sisteminin əsasını yaratmış və inkişaf etdirmişdir. Ölkədə qadın hüquqlarının etibarlı mühafizəsini təmin edən mexanizmlər yaradılmış, regional təşkilat kimi Avropa Şurasının digər beynəlxalq və regional qurumlarının qadın hüquqları ilə bağlı sənədləri milli qanunvericilikdə əsaslı surətdə nəzərə alınmışdır.

20 dekabr 1952-ci il tarixli 640 saylı Qətnamə ilə təsdiq edilmiş "Qadınların siyasi hüquqları haqqında" Konvensiya dünyanın müxtəlif ölkələrində əsrlərlə davam edən siyasi hüquqlar uğrunda qadın mübarizəsinin nəticəsi idi. Bu Konvensiya nəticə etibarı ilə qadınlara kişilərlə bərabər şərtlər əsasında bütün seçkilərdə səs vermək, açıq seçkilərdə tələb edilən idarələrə seçilə bilmək, ictimai dövlət xidmətində vəzifə tutmaq, ictimai dövlət funksiyalarını yerinə yetirmək hüquqları verirdi. (7, 101-105) Azərbaycan Respublikası 04 avqust 1992-ci ildə "Qadınların siyasi hüquqları haqqında" Konvensiyaya qoşuldu və üzərinə müvafiq öhdəliklər götürdü.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddənin II bəndinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi hesab olunur. (7, 79) Həmin sənədin 151-ci maddəsində isə konkret olaraq göstərilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. (6, 81) Bütün bunlar onu göstərir ki, Azərbaycanda beynəlxalq hüquq normalarının üstünlüyü tanınır, ölkənin qoşulduğu beynəlxalq müqavilələr, ölkə ərazisində üstünlük hüququna malik olmaqla tətbiq edilir. Bu baxımdan qadın hüquqlarına münasibətdə yuxarıda göstərilən və göstərilməyən, lakin Azərbaycanın qoşulduğu beynəlxalq və regional müqavilələr nəzərə alınmaqla insanların hüquq və azadlıqlarının geniş şəbəkəsi konstitusiyamızda təsbit olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğu, ölkədə insanların irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilmişdir. İnsan və vətəandaş hüquqlarının və azadlıqlarının irqi, milli, dini, dili, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağan edilmişdir. Bu mənada hüquq vəzifələri ilə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətdə qadın və kişinin qanun və məhkəmə qarşısında bərabərliyi təsbit olunmuşdur.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmizdə milli qanunların, o cümlədən qadın hüquq və azadlıqları ilə bağlı bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Belə ki, 29 iyun 1992-ci il "Əməyin mühafizəsi haqqında", 30 iyun 1995-ci ildə "Mülki şəxslərin müdafiəsi və hərbi əsrilərin hüquqlarının qorunması haqqında", 19 sentyabr 1995-ci ildə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", 13 mart 1996-ci ildə "Əcnəbilərin və vətəndaçlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqnda", 15 mart 1996-ci il tarixli "Siyasi represiya qurbanlarına bəraət verilməsi haqqında" və onlarla bu kimi normativ-hüquqi aktların qəbul edilməsi insan hüquqlarının, o cümlədən qadın hüquqlarının mühafizəsində əhəmiyyətli rol oynamışdır.

Ölkəmizdə qadın hüquqlarının qanunvericilikdə təsbit olunması və bu hüquqların real surətdə həyata keçirilməsi sahəsində dinamik və intensiv inkişafda Ulu Öndərimiz Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur. Belə ki, 14 iyul 1969-cu ildə Heydər Əliyevin Azərbaycan Komunist Partiyası Mərkəzi Komutəsinin birinci katibi vəzifəsinə seçilməsi dövlətin və cəmiyyətin həyatında qadının rolunun sürətlə artmasına təkan vermişdir. Bu illərdə minlərlə qadın dövlət vəzifələrinə - qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarında müxtəlif vəzifələrə irəli çəkilmiş, onların əməyi dövlət və hökumət tərəfindən ən yüksək mükafatlara layiq görülmüşdür. 1972-ci ildə respublika qadınlarının IV Qurultayı ölkənin həyatında böyük ictimai-siyasi hadisəyə çevrilmiş və qadınların rolu genişlənmişdir. Ümumiyyətlə, keçən əsrin 70-ci illərinin ortalarında – Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində işlədiyi dövrlərə dair statistik məlumatların təhlilindən görünür ki, bu illərdə Azərbaycan qadınlarının 32 nəfəri SSRİ Ali Sovetinin, 22 731 nəfəri yerli sovetlərin deputatı, 200 nəfərə qədər qadın isə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adın daşıyıcısı olmuşdur. (8, 26-27)

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda insan hüquqlarına və azadlıqlarına üstünlük verilməsinə, bu hüquqlara hörmət edilməsinə, o cümlədən qadın hüquqlarının və azadlıqlarının etibarlı şəkildə qorunmasına təminat verilmişdir. (9, 3-10) Qadın hüquqlarının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində ən böyük hüquqi akt isə 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası olmuşdur. Bu sənəddə Azərbaycanda demokratik, hüquqi, dünyəvi və unitar respublika qurulduğu elan edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətimizin ali məqsədi olduğu elan edilmişdir. (6, 7-9)

Konstitusiyanın ikinci bölməsinin üçüncü fəsli bütünlüklə "Əsas insan və vətəndaş hüquqları və azadlıqlarına" həsr olunmuş, kişinin və qadının eyni hüquqları və azadlıqları olduğu təsbit edilmişdir. Burada göstərilmişdir ki, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquqlarının və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilmişdir. Ümumiyyətlə, Konstitusiyada bir insan kimi qadının hüquqlarının və azadlıqlarının geniş təsbiti mükəmməl olaraq öz ifadəsini tapmışdır.

Müstəqillik illərində cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsinə götürülmüş insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq standartlara cavab verən müdafiə mexanizmlərinin, insan hüquqları üzrə müvəkkilin (Ombudsman), Konstitusiya məhkəməsinin, üçpilləli məhkəmə sisteminin, hüquq-mühafizə orqanlarının, vətəndaş cəmiyyətinin müxtəlif təsisatlarının təşəkkülü və inkişafı sahəsində bu vaxta qədər olmayan uğurlu nailiyyətlər əldə edilmişdir.

Ulu Öndər Heydər Əliyev 19 sentyabr 1994-cü ildə "Qadınların IV Ümumdünya Konfransına hazırlıq"la əlaqədar olaraq "Azərbaycan qadınlarının Milli Komitəsinin yaradıması haqqında" Fərman imzalamışdır. Məhz bu diqqətin nəticəsi ola-

raq 1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransında Azərbaycan qadınları geniş şəkildə təmsil olunmuş və konfransın işində fəal iştirak etmişlər. 30 iyun 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına qoşulmuş və öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. (5, 207) Eləcə də ölkədə qadın siyasətinin istiqamətlərini müəyyən etmək, bu sahədə sistemli iş aparmaq və problemləri uğurla həll etmək məqsədi ilə, habelə qadınların kişilərlə bərabərliyini, xüsusi ilə onların dövlət idarəçilik sistemində iştirakının təşkil və təmin olunmasını həyata keçirmək məqsədi ilə Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə ölkədə "Qadın problemləri üzrə Dövlət Komitəsi" yaradılmış, 14 yanvar 1998-ci il tarixdə isə "Azərbaycanda qadınların rolunun artırılması tədbirləri haqqında" 727 №-li Sərəncam imzalanmışdır. Bunun ardınca 25 sentyabr 1998-ci ildə Müstəqil Azərbaycan Respublikası qadınlarının ilk Qurultayı keçirilmiş və bu cəmiyyətdə qadınların rolunun əhəmiyyətli dərəcədə artmasına təkan vermişdir.

Nigah və ailə münasibətlərinin tənzim olunmasında Ulu Öndər Heydər Əliyev tərəfindən Milli Məclisə təqdim edilmiş və 28 dekabr 1999-cu il tarixli qanunla təsdiq edilmiş Ailə Məcəlləsinin böyük tarixi əhəmiyyəti olmuşdur. 6 mart 2000-ci ildə isə Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında "Dövlət Qadın Siyasətinin Həyata Keçirilməsi haqqında" Fərman imzalamışdır. Buna müvafiq olaraq elə həmin vaxt Azərbaycan Respublikası Nazirlər Kabinetinin 33 saylı Qərarı ilə "2000-2005-ci illər üçün Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Faliyyət Planı" təsdiq olunmuşdu. Belə fəaliyyət proqramının hazırlanması və qəbul edilməsi sonrakı illərdə də ənənə şəklini almışdır. Bu da qadın siyasəti sahəsində konkret vəzifələrin dəqiq müəyyən edilməsi, onların planlaşdırılması və həyata keçirilməsi sahəsində səmərəli fəaliyyətin uğurla başa çatdırılmasına imkan yaratmışdır.

2003-cü ilin sentyabr ayında Azərbaycan qadınlarının II Qurultayı keçirilmişdir. Ümumiyyətlə, Azərbaycan Respublikası dövlət müstəqillyini bərpa etdikdən sonra qadın hüquqları ilə bağlı zəruri olan bütün beynəlxalq Konvensiyalara qoşulmuş və Milli Qanunvericiliyin də beynəlxalq standarlara uyğunlaşdırılmasına şərait yaranmışdır. BMT Baş Məclisinin 20 dekabr 1952-ci il tarixli Qətnaməsi ilə təsdiq edilmiş "Qadınların siyasi hüquqları haqqında" Konvensiya 8 dekabr 1992-ci ildə, "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılması haqqında" 19 dekabr 1965-ci il tarixli Qətnamə 30 iyun 1995-ci ildə, "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" 21 dekabr 1965-ci il tarixli Konvensiya 31 may 1996-cı ildə, "İnsan alveri ilə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarı ilə mübarizə haqqında" 2 dekabr 1949-cu il tarixli Konvensiya 31 may 1996-cı ildə, "İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı mübarizə haqqında" 10 dekabr 1984-cü il tarixli Konvensiya 31 may 1996-cı ildə, "Ərdə olan qadının vətəndaşlığı haqqında" 29 yanvar 1957-ci il tarixlı Konvensiya 31 may 1996-cı ildə və digər bu kimi zəruri beynəlxalq sənədlərin ratifikasiyası Milli Məclis tərəfindən həyata keçirilmiş və Milli Qanunvericilikdə bu sənədlərin nəzərə alınması təmin edilmişdir. Eləcə də Avropa Şurasının, digər beynəlxalq və regional təşkilatların qadın hüquqları ilə bağlı sənədləri ölkəmizdə ratifikasiya edilmiş və milli qanunvericilikdə bütün bunların nəzərə alınması təmin edilmişdir.

Müstəqillik illərində qadın hüquqları yalnız Konstitusiya səviyyəsində deyil, digər normativ hüquqi aktların layihələrinin hazırlanmasında, müzakirəsində və qəbulunda da tam nəzərə alınmışdır. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Mülki Məcəllədə, Əmək Məcəlləsində, İnzibati - Xətalar Məcəlləsində, İnzibati - İcraat haqqında Məcəllədə, Cəzaların İcrası Məcəlləsində, sosial təminat hüququnun müxtəlif məsələlərinə dair qanunlarda və digər çoxsaylı normativ hüquqi aktlarda, hökumətin qəbul etdiyi qərarlarda qadın hüquqları ilə bağlı tənzimetmə məsələləri beynəlxalq standartlara tam cavab verə bilən bir səviyyədə həll edilmişdir. Qadın hüquqları ilə sıx bağlı olan yetkinlik yaşına çatmamışların və uşaqların hüquqlarının qorunması sahəsin-

də zəruri olan bir çox qanunlar da qəbul edilmişdir. Artıq xeyli müddətdir ki, "Repreduktiv sağlamlığın qorunması və ailə planlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanun Layihəsi müxtəlif təşkilatlar və mütəxəssislər tərəfindən geniş müzakirə edilmiş və bu müzakirələr ölkədə böyük marağa səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyev tərəfindən daha da inkişaf etdirilmiş qadın siyasəti və bu sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsi sahəsində kompleks tədbirlər sistemi cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Belə ki, 6 fevral 2006-cı ildə İlham Əliyevin Fərmanı ilə "Qadın problemləri üzrə Dövlət Komitəsi"nin statusu daha da təkmilləşdirilərək onun bazasında "Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi" yaradılmış, onun səlahiyyətləri, hüquqları və fəaliyyət dairəsi əhəmiyyətli dərəcədə genişləndirilmişdir. 10 oktyabr 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun qəbul edilmişdir. 22 iyun 2010-ci ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycanda ilk dəfə olaraq Qanun qəbul edilmişdir. Bu gün müstəqil Azərbaycanda qadınların sayı, dövlətin və cəmiyyətin həyatında onların rolu və təsiri sürətlə artmaqda və genişlənməkdədir. Belə bir mərhələdə qadın hüquqlarının və qadınlara münasibətdə ictimai münasibətlərin ədalətli tənzimlənməsi sahəsində səmərəli tədbirlər həyata keçirilir. Belə ki, ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının qanunvericilikdə təsbit olunması, bu hüquqların qorunması, mühafizəsi və qadın hüquqlarının daim inkişaf etdirilməsi ardıcıl, sistemli və kompleks şəkildə aparılması ilə səciyyəvidir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Demokratik, hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyəti formalaşdırmaq insan hüquqlarının qanunvericilik yolu ilə təsbit edilməsi və onun müdafiəsini təmin edən təsisatlar olmadan qeyri-mümkündür. Xalqın suveren iradəsi üzərində qurulan Azərbaycan dövlətinin başlıca məqsədi və fəaliyyət istiqamətləri milli maraqları qorumaqla yanaşı, eyni zamanda insan hüquq və azadlıqlarını etibarlı şəkildə təmin etməkdən ibarətdir.

Bəşəriyyətin tarixi insan hüquq və azadlıqları uğrunda mübarizə tarixidir. Xüsusilə II Dünya Müharibəsindən sonra dünya birliyi ölkələrinin birgə səyi ilə 10 dekabr 1948-ci ildə "Ümumdünya insan hüquqları Bəyannaməsi"nin qəbul edilməsi dünya tarixində bu istiqamətdə başlanılan böyük işlərin məntiqi nəticəsi və hüquqi qələbəsi kimi səciyyələndirilə bilər. BMT-nin, Avropa Şurasının, Avropa Birliyinin və digər beynəlxalq və regional qurumların aktları, «Mülki və siyasi hüquqlara dair Beynəlxalq Pakt», «Sosial-iqtisadi və mədəni hüquqlara dair Beynəlxalq Pakt» və digər beynəlxalq sənədlərin qəbul edilməsi, bu məsələlərə xüsusi önəm verilməsi nəzərə alınaraq, müstəqillik illərində Azərbaycan Respublikasının ilk Konstitusiyasında insan hüquq və azadlıqlarına dair normaların formalaşmasında əsas rol oynamışdır. Konstitusiyanın ikinci bölməsinin üçüncü fəsli «Əsas insan və vətəndaş hüquqları və azadlıqları»na həsr olunmuşdur. Bu fəsildə nəzərdə tutulan 48 normada insan üçün zəruri olan hüquq və azadlıqların bütün növləri beynəlxalq standartlara uyğun olaraq və hətta bir çox yerlərdə daha genişləndirilmiş formada öz ifadəsini tapmışdır. Həmin bölmənin dördüncü fəsli isə «Vətəndaşların əsas vəzifələri» məsələlərinə həsr edilməklə, burada 9 norma nəzərdə tutulmuşdur. Qeyd edilməsi zəruridir ki, bu normalara əməl etmək yeni müstəqillik qazanmış Azərbaycan Respublikasının ali məqsədi olmaqla yanaşı, eyni zamanda Konstitusiyada sadalanan insan hüquq və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsini də nəzərdə tutmuşdur.

Konstitusiyada mülkiyyətdən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, habelə şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilməsi qadağan edilmişdir. Bu hüquq və azadlıqlar deklorativ xarakter daşımır, realdır və təminatlıdır. Belə ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnun tanınması Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsində birbaşa nəzərdə tutulmuşdur. Eləcə də Azərbaycan dövləti hər kəsin hüquq və azadlıqlarının qorunmasına təminat vermişdir. Hüquq və vəzifələrlə bağlı qə-

rarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətdə hər kəsin hüquq bərabərliyinə təminat verilməsi vəzifəli şəxslərin məsuliyyətini daha da artırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin tələbinə görə insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Bu mənada insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdırıla bilməz. Hər kəsin hüquq və azadlıqları Azərbaycan Respublikasının Konstitusiyasında və digər müvafiq qanunlarında müəyyən edilmiş əsaslarda və hallarda məhdudlaşdırıla bilər. Belə məhdudlaşdırmaların qanuniliyinə və əsaslılığına dövlət tərəfindən ciddi nəzarət edilir. Eyni zamanda hüquqi dövlət prinsiplərinə uyğun olaraq qanunla qadağan edilməyən hər bir hərəkətin edilməsinə icazə verilir.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələr dövlətin yaratdığı məhkəmələr tərəfindən ədalət mühakiməsi qaydasında həll edilir.

Konstitusiya insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsiplərini dəqiq müəyyən etməklə, insanın təbii hüquqlarına əsaslanır. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğunu bəyan edir. Əsas qanunda göstərilir ki, təbii hüquqlardan istifadə, yaxud onların realizəsi başqalarının hüquq və azadlıqlarının pozulması ilə müşayət oluna bilməz. Konstitusiyanın tələbinə görə insan yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, təhlükəsiz yaşamaq, mənzil toxunulmazlığı, nigah, əmək, tətil, istirahət, sosial təminat, sağlamlıq, təhsil, mənzil, milli mənsubiyyət, şərəf və ləyaqətin müdafiəsi, fikir və söz azadlığı, vicdan azadlığı, seçilmək və seçmək, birləşmək, hüquqi yardım almaq, təqsirsizlik prezumpsiyası, siyasi sığınacaq almaq və digər zəruri hüquq və azadlıqlara malik olması ətraflı şəkildə göstərilmişdir..Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır. Hər bir fərd başqaları və bütövlükdə cəmiyyət, dövlət qarşısında öz məsuliyyətini dərk etməli, digərlərinin hüquq və azadlıqlara hörmətlə yanaşmalıdır.

İnsanın şəxsi hüquq və azadlıqları onun fiziki mövcudluğu və mənəvi inkişaf imkanları ilə sıx bağlıdır. Bu sırada hər bir şəxsin yaşamaq hüququnun toxunulmazlığını və həyatdan qanunsuz məhrumetmənin qadağan edildiyini elan etməklə müəyyən elementləri əhatə edir. Bu mənada ölüm cəzasının ləğv edilməsi, azadlıq hüququnun isə ciddi surətdə qorunması xüsusi qeyd edilməlidir. Qanunvericilik azadlıq hüququnun məhdudlaşdırılmasını ciddi surətdə reqlamentləşdirmişdir. Eyni xüsusatlar şəxsin toxunulmazlıq hüququna, təhlükəsiz yaşamaq hüququna və mənzil hüququna da aiddir. Belə ki, qanunvericilik hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyini, öz razılığı olmadan onun haqqında məlumatlar toplanmasını qadağan edir. Şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək, axtarış aparmaq və ya iradəsinin əleyhinə olaraq mənzilinə daxil olmaq cinayət məsuliyyətinə səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsi hər kəsin qanunla müəyyən edilmiş yaşa çatdıqda ailə qurmaq hüququ olduğunu təsbit edir. Belə nikah münasibətləri könüllü, yalnız razılıq əsasında bağlanıla bilər. Ər və arvadın hüquqları bərabər olmaqla, dövlət ailənin və uşaqların qorunmasına təminat verir. Qanunvericilik ailə ilə sıx bağlı olan milli mənsubiyyət hüququna, ana dilindən istifadə etmək hüququna, şərəf və ləyaqətin müdafiəsinə, fikir və söz azadlığına, vicdan azadlığına təminat verir. Hər kəsin dinə qarşı öz münasibətini müstəqil müəyyənləşdirmək hüququ, dini, yaxud əqidəni öz seçiminə müvafiq olaraq müstəqil şəkildə qəbul etmək, dəyişmək, təkbaşına və ya başqaları ilə bir yerdə istənilən dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, öz dini baxışlarını açıq şəkildə ifadə etmək, dini mərasimləri azad şəkildə yerinə yetirmək kimi mənəvi və əxlaqi dəyərlərin qorunmasına təminat verilir və bu hüquqların pozulması məsuliyyət yaradır.

Siyasi hüquq və azadlıqlar şəxsin subyektiv hüquq və azadlıqlarının mühüm tərkib hissəsi olmaqla, insanın dövlətin ictimai-siyasi həyatında və idarə olunmasında iştirak etmək imkanı kimi

başa düşülür. Siyasi hüquqlar bütün digər hüquqların həyata keçirilməsinin zəruri şərti olmaqla, demokratiyanın atributu kimi çıxış edir. Dövlətin və onun orqanlarının təşkili və fəaliyyətində nümayəndəli və birbaşa iştirak etmək hüququ insan hüquq və azadlıqlarının ən mühüm elementlərindən biridir. Bu eyni zamanda cəmiyyətin həyatında aktiv iştirak etmək hüququnun tərkib hissəsidir. Burada siyasi hüquq və azadlıqların məqsədi insanın muxtariyyətini təmin etməkdə deyil, siyasi prosesin aktiv iştirakçısı kimi təzahür etməni nəzərdə tutur. Bu da dövlətlə vətəndaş arasında münasibətlərin yaradılmasına və inkişafına xidmət edir. Mahiyyət etibarı ilə siyasi azadlıq şəxsi azadlığın mühüm ünsürlərindən biri kimi insanın şüurlu varlıq olduğunu, onun siyasi şüurun və siyasi iradənin daşıyıcısı, siyasi proseslərdə azad və müstəqil olaraq iştirak etməsi imkanlarını nəzərdə tutur. İnsan və vətəndaşın əsas siyasi hüquq və azadlıqları milli qanunlarla yanaşı, beynəlxalq hüquq normalarında da özünün ifadəsini tapır və onların həyata keçirilməsi yalnız effektiv mexanizm və prosedurların mövcud olduğu şəraitdə mümkündür. Buna görə də siyasi plüralizm və onun sərvətlərinin ictimai şüur və davranış yolu ilə həyata keçirilməsinin real imkanları müstəsna əhəmiyyət daşıyır. Belə vəziyyətdə siyasi hüquq və azadlıqların kütləvi ictimai şüur tərəfindən humanist sərvətlər kimi qəbul olunması və icrası müstəsna əhəmiyyətə malikdir.

İnsan və vətəndaşların sosial-iqtisadi və mədəni hüquq və azadlıqları fərdin sosial-iqtisadi həyat şəraitinin, onun iş və məişətinin, məşğulluq və həyat səviyyəsinin, sosial müdafiəsinin layiqli səviyyədə təmin olunmasının mühüm atributu olmaqla, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən, həm də dövlətin ali məqsədlərindən biri hesab olunur. Bazar münasibətlərinə keçid, mülkiyyət hüquqlarının qorunması, iqtisadiyyatın inkişafına və dövlətin qüdrətlənməsinə böyük şərait yaratmaqla yanaşı, həm də sahibkarlığın inkişafına şərait yaradır, inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bu da dövlətlə birlikdə insanın öz rifahının yüksəldilməsinə, onun sosial müdafiəsinə və ona layiqli həyat səviyyəsinin təmin olunmasına münbit şərait yaradır. Təsadüfi deyildir ki, dövlət cəmiyyətin özəyi kimi ailənin inkişafına, uşaq hüquqlarının mühafizəsinə təminat verməklə yanaşı, eyni zamanda vətəndaşların təhsilinin, sağlamlığının, layiqli həyat şəraitində yaşamasını, yaradıcılıq imkanlarının genişləndirilməsini, elmi, mədəni, tarixi və mənəvi səviyyəsinin inkişafına xüsusi qayğı göstərməlidir.

Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş hüquq və azadlıqların təşkilati-hüquqi baxımdan təmin olunması və müdafiəsi sahəsində də müəyyən mexanizmlər, üsul və vasitələr nəzərdə tutulmuşdur. Qeyd edildiyi kimi bunlar hər şeydən əvvəl özünü, hüquq və azadlıqların məhkəmə müdafiəsi, hüquqi yardım almaq hüququ və təkrar müraciət hüququnda göstərir. Eyni zamanda məhkəmə aidiyyatının dəyişməzliyi, təqsirsizlik prezumpsiyası, bir cinayətə görə təkrar məhkum etmənin yolverilməzliyi, qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi, tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilən şəxslərin hüquqları kimi prosessual əhəmiyyətli normalar hesab olunur. Bu hüquqların icrası və həyata keçirilməsi mexanizmləri cinayət, mülki, inzibati və konstitusiya icraatını tənzim edən prosessual məcəllələrlə həyata keçirilir.

İnsan hüquq və azadlıqlarının hüquqi təminatı mexanizmləri onun həyata keçirilməsinin mühüm amillərindən hesab olunur. Qanunvericilik belə təminatlar sistemində daim təkmilləşdirmələr aparır və onu daha çevik, daha səmərəli və daha təsirli mexanizmlərlə təmin etməyə üstünlük verir. Bu mexanizmlər sırasında insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi, icra hakimiyyəti orqanları vasitəsilə və beynəlxalq təşkilatların səyləri ilə həyata keçirilir. Hüquqi dövlətdə bu müdafiə mexanizmləri insan hüquq və azadlıqlarının üstünlüyü, müdafiə vasitələrinin alternativliyi, məqsədəmüvafiqliyi, müdafiə vasitələrində şəxsin sərbəstliyi və digər bu kimi geniş yayılmış prinsiplərə əsaslanır. Belə prinsiplərin əhəmiyyəti insan hüquqlarının daha etibarlı təminatının təşkilati-hüquqi əsaslarını təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasında göstərildiyi kimi insan hüquq və azadlıqları ilə bağlı konstitusion hüquq normaları vətəndaşların əsas vəzifələri ilə nisbətdə bərabər münasibətlərə

bərabər mənafelər kimi səciyyələndirilməklə haqqa və ədalətə əsaslanır. Geniş hüquqlar və azadlıqlar verilən Azərbaycan vətəndaşları eyni zamanda müəyyən vəzifələrə də cavabdehdirlər. Bu da dövlət və cəmiyyət qarşısında hər bir şəxsin onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıması ilə sıx bağlıdır. Belə vəzifələr içərisində vətənə sədaqət göstərmək, vətəni müdafiə etmək borcu, dövlət rəzmlərinə hörmət, tarix və mədəniyyət abidələrinin qorunmasında şəxsi məsuliyyət, ətraf mühitin qorunmasını öz borcu hesab etmək, Konstitusiya və qanunlara zidd vəzifələrin icrasına məcbur edilə bilməzlik, vergilərin və başqa dövlət ödənişlərinin tam həcmdə və vaxtında ödənilməsini təmin etmək kimi vəzifələr mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının hər bir vətəndaşı ölkəmizin Kosntitusiyasına və qanunlarına əməl etmək, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləmək, qanunla müəyyən eidlmiş digər vəzifələri yerinə yetirmək vəzifəsi daşıyır.

Qeyd edilməsi zəruridir ki, insan hüquq və azadlıqlarının müdafiəsi və qorunması qanunlarla qorunduğu kimi, vətəndaşların əsas vəzifələrinin icrası da müəyyən qanun normaları ilə mühafizə edilir. Məhz bu nöqteyi-nəzərdən Azərbaycan Respublikasının qanunvericiliyi – İnzibati və Cinayət Məcəlləsi, Vergi və Mülki Məcəllə, digər aidiyyatı məcəllələr vətəndaş vəzifələrinin yerinə yetirilməməsinə, sui-istifadə hallarına görə müəyyən məsuliyyət nəzərdə tutur. Məsələn, həddi-buluğa çatmış Azərbaycan Respublikasının vətəndaşı yaşı çatdığı və sağlamlığı imkan verdiyi hallarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmət keçməlidir. Qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırılması şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321-ci maddəsində nəzərdə tutulan məsuliyyəti daşımasına əsas verir. Yaxud Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlərə yol verilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 324-cü maddəsində nəzərdə tutulan məsuliyyəti yaradır. Belə faktların sayını artırmaq da olar. Lakin məsələnin mahiyyəti ondan ibarətdir ki, qanunla qorunan insan hüquq və azadlıqlarının pozulması məsuliyyət yaratdığı kimi, Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilmiş vətəndaşların əsas vəzifələrinin icra edilməməsi də məsuliyyət yaradır. Bütün bunlar onu göstərir ki, insan və vətəndaşların hüquq və azadlıqları ilə, habelə onların vəzifələri ilə bağlı normalar deklarativ xarakter daşımır və müəyyən qanunlarla onların mühafizəsinə və müdafiəsinə təminat verilir.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təşəkkülü və inkişafı bir institut kimi, bir fenomen kimi tarixi baxımdan müstəqillik illərində son dərəcə aktuallıq kəsb etsə də, bu sahədə böyük uğurlar əldə edilmişdir. Son illərin beynəlxalq təşkilatlarında mütəxəssislərin və müşahidəçilərin müsbət fikirləri belə inam yaradır ki, ölkəmizdə insan hüquq və azadlıqlarının daha da təkmilləşdirilməsi və müdafiə mexanizmlərinin səmərəliliyi daha da artırılacaq və ən yüksək səviyyədə təmin ediləcəkdir.

Müstəqillik illərində qadın hüquqlarının beynəlxalq normalar əsasında milli qanunvericiliyə gətirilməsi və milli mexanizmlərin yaradılması istiqamətində səmərəli fəaliyyət həyata keçirilmiş, ümumiyyətlə Azərbaycan Respublikasında qadın hüquqlarının və azadlıqlarının əsas dairəsini müəyyən edilməsi, bu hüquqların və azadlıqların qorunması, müdafiəsi və mühafizəsi sahəsində, habelə bu sahədə dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edilməsi sahəsində ardıcıl və kompleks tədbirlər görülmüşdür. Ölkəmizdə qadın hüquqlarının və azadlıqlarının və onlara layiqli həyat səviyyəsinin təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədi olduğu bəyan edilmişdir. Beynəlxalq hüquq sisteminin üstünlüyünü tanıyan ölkəmizdə insan hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi qaydası müəyyən edilmişdir. Eləcə də, ölkəmizdə hər bir qadının qanunla qadağan olunmayan üsullarla və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ təsbit edilmişdir. Bu da hər bir qadının doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqlarının və azadlıqlarının olması prinsipindən irəli gəlir. Başqa sözlə, ölkəmizdə qadın hüquqları və azadlıqları onların cəmiyyət və başqa şəxslər qar-

şısında məsuliyyətinin və vəzifələrinin məcmusunu əhatə etməklə biri digərini tamamlayır.

Qadına münasibətdə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, müdafiəsi və mühafizəsini təmin etmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Buna görə də qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç bir şəxs məhdudlaşdıra bilməz. Hər bir qadının hüquqları və azadlıqları Azərbaycan Respublikası Konstitusiyasında və digər normative-hüquqi aktlarında müəyyən edilməklə, onların digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşdırıla bilər. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti olaraq məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilməs qaydası nəzərdə tutulmuşdur.

Azərbaycan qadını heç bir halda din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bundan imtinaya görə təqsirləndirilə bilməz. Eləcə də Azərbaycan Respublikası Konstitusiyanın heç bir müddəasının qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəlmiş müddəa kimi təfsir edilməsi yolverilməz hesab olunur, çünki qadına münasibətdə insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikası ərazisində birbaşa hüquqi qüvvəyə malikdir. Heç bir qadın törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyətə cəlb edilə bilməz. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilməsi nəzərdə tutulur. Bununla belə qadın hüquqi dövlət prinsiplərinə uyğun olaraq qanunla qadağan olunmayan hərəkətləri etmək hüququna malikdir. Heç bir qadın qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

Qadına münasibətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar olan mübahisələrin məhkəmə qaydasında həll edilməsi qanunvericilikdə nəzərdə tutulmuşdur. Qadın hüquqlarının və azadlıqlarının ədalətli məhkəmə müdafiəsinə təminat verilir. Eləcə də qadın onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət qaydasında hər hansı ittiham irəli sürülərsə, belə halda qanuni əsaslarla yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müdafiə işinin ədalətli və açıq araşdırması hüququ təmin olunmalıdır. Buna görə də qadın dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət hüququna malikdir. Qadının yüksək keyfiyyətli hüquqi yardım almaq və səmərəli hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ qanunvericilikdə birbaşa öz ifadəsini tapmışdır. Bu zaman qadın nəzərdə tutulmuş hallarda hüquqi yardımı ödənişsiz və ya dövlət hesabına almaq hüququ vardır. Belə ki, hər bir qadının səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törətməkdə ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququndan yararlana bilər. Qadın onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququndan istifadə edə bilər və eyni zamanda qadının öz razılığı olmadan onun işinə başqa məhkəmədə baxılması yol verilməz hesab edilir.

Məhkəmənin məhkum etdiyi hər bir qadının haqqında çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır. Qadının bir cinayətə görə təkrarən məhkum edilə bilməsi yolverilməzdir. Eləcə də, qadının özünə, ərinə, övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilməsi qanunvericiliklə qadağan edilmişdir. Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində təqsirləndirdiyi hər bir qadına dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir. Cinayət törədilməsində təqsirləndirilən hər bir qadın məhkum edilməzdən əvvəl dinlənilməlidir. Cinayət, habelə ha-

kimiyyətdən sui-istifadə etmə nəticəsində zərər çəkmiş qadının hüquqları qanunla qorunur. Zərər çəkmiş qadının ədalət mühakiməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır. Hər bir qadının dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizlikləri nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsini tələb etmək hüququ vardır.

Beynəlxalq birlik qarşısında götürülmüş öhdəliklərə, hüquqi və sosial dövlət qurulması prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasında qadın hüquqlarının və azadlıqlarının qorunmasını, müdafiəsini və mühafizəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, ictimai birliklər, həmkarlar ittifaqları təşkilatları, fiziki və hüquqi şəxslər təmin etməyə borcludurlar. Azərbaycan Dövləti hər bir qadının rifahinin yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalma siyasətini həyata keçirir. Bu da ondan irəli gəlir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin - ərin və arvadın borcudur. Bu borcun yerinə yetirilməsinə və qadın hüquqlarının qorunmasına, müdafiəsinə və mühafizəsinə dövlət tərəfindən nəzarət edilir.

Ölkəmizdə qadının işgəncəyə, qeyri-insani, zorakı hərəkətlərə, belə təhdidlərə, ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalması, qadınını köləlikdə və ya asılılıqda saxlanılması, məcburi və ya icbari əməyə cəlb edilməsi qanunla qadağan edilmiş və belə əməllərin nəticəsindən, ictimai təhlükəliliyindən asılı olaraq müxtəlif məsuliyyət növləri nəzərdə tutulmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasında “Məişət zorakılığının qarşısının alınması haqqında” 22 iyun 2010-cu il tarixli qanun qəbul edilmiş və artıq fəaliyyətə başlamışdır. Hər bir qadın, Azərbaycan Respublikasının qüvvədə olan Əmək, Ailə, Mülki, Milki-Prossesual, Cinayət, Cinayət-Porsessual, İnzibati-Xətalar, İnzibati-İcraat, İnzibati-Prosessual Məcəllələri ilə, digər normativ hüquqi aktlarla, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquqlarından, azadlıqlarından sərbəst istifadə edir və vəzifələrini icra etməməyə görə məsuliyyət daşıyır.

“Təbii hüquq nəzəriyyəsi”nə görə insanın yaşamaq hüququ bütün digər hüquqlardan üstün hesab olunur, çünki insanın bütün digər hüquqlarının əsasında məhz insanın yaşamaq və var olmaq hüququ dayanır. “İnsan hüquqları haqqında ümumi Bəyannamə”nin 3-cü maddəsində “Mülki və siyasi hüquqlar haqqında” Paktın 6-cı maddəsində, Avropa Konvensiyasının 2-ci maddəsində nəzərdə tutulan yaşamaq hüququ müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində də nəzərdə tutulmuş və mükəmməl formada təsbit olunmuşdur. İnsanın yaşamaq hüququ ilə sıx bağlı olan təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, sağlam ətraf mühitdə yaşamaq, tibbi yardım almaq və sair bu kimi hüquqlar göstərilən beynəlxalq hüquqi sənədlərdə əks olunduğu kimi Azərbaycan Respublikası Konstitusiyasının müxtəlif maddələrində də nəzərdə tutulmuşdur. Belə ki, Konstitusiyanın 31-ci maddəsində təhlükəsiz yaşamaq hüququ, 32-ci maddəsində şəxsi toxunulmazlıq hüququ, 33-cü maddəsində mənzil toxunulmazlığı hüququ, 39-cu maddədə sağlam ətraf mühitdə yaşamaq hüququ, 41-ci maddədə sağlamlığın qorunması hüququ öz ifadəsini tapmışdır.

Yaşamaq hüququndan sonra insanın sərbəst hərəkət etmək, istədiyi yerə getmək, istədiyi yerdən qayıtmaq, özünə yaşayış yeri seçmək, bir sözlə qanuna zidd olmayan istənilən hərəkəti və hərəkətsizliyi etmək, ərazi və məkan meyarlarından asılı olmayaraq sərbəstlik mövqeyi və vəziyyəti, BMT-nin “Ümumdünya insan hüquqları Bəyannaməsi”nin 3-cü, 9-cu, 13-cü maddələrində, “Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt”ın 2-ci, 3-cü, 5-ci, 9-ci, 9-cu, 12-ci maddələrində, Avropa Konvensiyasının 5-ci, 15-ci maddələrində nəzərdə tutulmuşdur. Bütün bunlara müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi insanın azadlıq hüququna həsr edilmişdir.

Bütün bunlar onu göstərir ki, hər bir qadının yaşamaq hüququ olmaqla, o toxunulmazdır və qanunla qorunur. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və qanunla nəzərdə tutulmuş digər xüsusi hallar istisna olmaqla, hər bir

qadının yaşamaq hüququ toxunulmazdır. Müstəsna cəza tədbiri kimi ömürlük azadlıqdan məhrumetmə cəzası bir qayda olaraq qadınlara tətbiq edilmir. Eyni zamanda qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, qadına qarşı silah işlədilməsinə yol verilmir. Əcnəbi və vətəndaşlığı olmayan qadınlar da Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə, başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilərlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbi və vətəndaşlığı olmayan qadının hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Hər bir qadının sağlam ətraf mühitdə yaşamaq, ətraf mühitin əsil vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar olaraq onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır. Bununla belə qadın ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törətmək və ya zərər vurmaqda haqlı hesab oluna bilməz.

Qadının təhlükəsiz yaşamaq və şəxsi toxunulmazlıq hüququ qanunvericiliklə müəyyən edilmişdir. Buna görə də qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə qadının həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qanunvericiliklə qadağan edilmiş və belə əməllərin məsuliyyət yaradacağı nəzərdə tutulmuşdur.

Qadının şəxsi və ailə həyatı barədə sirrlərini gizlətmək, saxlamaq, qorumaq, onun mənzilinə və yazışma sirrinə müdaxilə etmək qanunvericiliklə mühafizə edilir və bu qaydaların pozulması məsuliyyətə səbəb olur. Buna görə də öz razılığı olmadan qadının şəxsi həyatı haqqında məlumatların toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Eləcə də, qadının yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatlarının sirri dövlət tərəfindən mühafizə edilir və buna real təminatlar nəzərdə tutulmuşdur. Bu hüquq cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü müstəsna hallarda səlahiyyətli orqanlar tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş qaydada məhdudlaşdırıla bilər. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, qadın onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu kimi hərəkətlərə məruz qalması yolverilməzdir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər bir qadın onun haqqında toplanmış məlumatlarla tanış olmaq hüququna malikdir. Belə tanışlığın nəticəsindən asılı olaraq o, haqqında toplanılmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını ləğv etmək hüququna malikdir. Bütün bunlar qadın şəxsiyyətinə və qadın ləyaqətinə olan böyük hörmətin bariz nümunəsi kimi səciyyələndirilə bilər.

Qadının cəmiyyətdə ən şərəfli vəzifələrindən biri analıq, dünyaya uşaq gətirmək, onu doğub tərbiyə etmək və cəmiyyət üçün faydalı şəxsiyyət kimi yetişdirməkdən ibarətdir. Eyni zamanda cəmiyyətin bir üzvü kimi maddi nemətlər istehsalçısı kimi qadının sağlam olması müstəsna əhəmiyyət kəsb edir. Buna görə də qadının sağlamlığının qorunması və tibbi yardım göstərilməsi sahəsində geniş hüquqları və azadlıqları müəyəyn edilmişdir. BMT-nin "İqtisadi, sosial, mədəni hüquqlar haqqında Paktının 25-ci maddəsinə tam cavab verən bu hüquq müstəqillik illərində Azərbaycan Respublikası Konstitusiyasının 39-cu və 41-ci maddələrində, eləcə də 10 noyabr 1992-ci il tarixli "Sanitariya epidemioloji salamatlıq haqqında", 26 iyun 1997-ci il tarixli "Əhalinin sağlamlığının qorunması haqqında", 28 oktyabr 1997-ci il tarixli "Tibbi sığorta haqqında" və digər normativ-hüquqi aktlarda geniş təsbit edilmişdir. Eləcə də ana və uşaqların sağlamlığının qorunması, hamiləliyə və uşağı saxlamağa görə əlavə müavinətlərin və ödənişlərin verilməsi, bu sahədə həmkarlar təşkilatının vəzifələri mükəmməl müəyyən edilmişdir. Buna görə də dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növ-

lərinin inkişafı üçün zəruri tədbirlər görmüş, sanitariya-epidemiologiya salamatlığına təminat verilmiş, tibbi sığortanın müxtəlif növlərinin inkişafı üçün təşkilatı-hüquqi tədbirlər müəyyənləşdirilmişdir. Bu kompleks tədbirlər Avropa Sosial Xartiyasının tələblərinə tamamilə cavab verir.

"İnsan hüquqları haqqında Ümumi Bəyannamə"nin 16-cı, "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt"ın 23-cü maddələri, BMT-nin 7 noyabr 1962-ci il tarixli "Nigaha daxil olmağa razılıq, minimum nigah yaşı və nigahların qeydə alınması haqqında" Konvensiyaya müvafiq olaraq Azərbaycan qadının analıq və nigaha girmək hüququ Azərbaycan Repsublikası Konstitusiyasının 34-cü və sosial təminat hüququnu tənzim edən 38-ci maddələrində təsbit olunmuşdur. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Ailə Məcəlləsi hər bir qadının qanunla nəzərdə tutulmuş yaşı çatdıqda ailə qurmaq və nigah münasibətlərinə girmək hüququnu nəzərdə tutulmuşdur. Qadın əri ilə bərabər hüquqlara sahib olmaqla yanaşı onların yaratdığı ailə dövlətin himayəsindədir. Buna görə də qadının və ailənin inkişafı üçün dövlət geniş tədbirlər kompleksi müəyyən etmiş, sosial dövlət olaraq qadının, ailənin və uşağın sosial problemlərinin həlli sahəsində ardıcıl və səmərəli tədbirlər görülmüşdür.

Azərbaycan ailəsində qadının, ailənin və uşağın beynəlxalq əmək təşkilatının müəyyən etdiyi bütün güzəştlərdən, standartlardan və şərtlərdən istifadə edilməsi üçün zəruri şərait yaradılmışdır.

Təhlillər göstərir ki, bəşəriyyət tarixində qadın hüquqları uğrunda mübarizə sahəsində ardıcıl, sistemli və gərgin mübarizə aparılmışdır. Bu sahədə II Dünya müharibəsindən sonra müəyyən dönüş əldə etmək mümkün olmuşdur. Beynəlxalq səviyyədə xüsusi ilə ABŞ, Böyük Britaniya, Fransa, keçmiş SSRİ və başqa ölkələrdə qadınların milli təşkilatları, "Azadlıq uğrunda hərəkat", "Beynəlxalq feminist təşkilatların birləşmiş daimi Komitəsi", "Beynəlxalq qadın təşkilatlarının əlaqə Komitəsi", BMT-nin "Qadınların statusu üzrə Komissiyası" və sair bu kimi təşkilatlar yaradılmış və müasir günlərimizdə belə təşkilatların sayı daha da artmışdır. Ümumiyyətlə, aparılan qətiyyətli və ardıcıl mübarizə nəticəsində Avstraliyada 1902-ci ildə, Finlandiyada 1906-cı ildə, Danimarkada 1915-ci ildə, İngiltərədə 1918-ci ildə, ABŞ-da 1919-cu ildə, Almaniyada 1928-ci ildə qadınlara seçki hüququ verildi. Azərbaycan qadınlarına isə belə bir hüquq 1919-cu ildə Demokratik Cümhuriyyət tərəfindən verilmiş, qadınların və kişilərin bərabərlik hüququ tanınmışdır. Sonralar SSRİ-nin və Azərbaycan SSR-nin müxtəlif qanunvericlik aktlarında qadınların və kişilərin hüquq bərabərliyi tanınmış, onlara seçmək və seçilmək hüququ verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 54-cü maddəsində cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, 55-ci maddəsində dövlətin idarə olunmasında iştirak etmək hüququ, 56-cı maddəsində seçki hüququ kişilərlə bərabər şəraitdə, həm də qadınlara verilmişdir.

Beynəlxalq Konvensiyalara, xüsusilə BMT-nin müvafiq konvensiyalarına Avropa Şurasının konvensiyalarına müvafiq olaraq Azərbaycan Respublikasında qadınlar üçün zəruri hesab edilən başqa hüquqlar və azadlıqlar da verilmiş və bütün bunlar konstitusiyada təsbit olunmuşdur. Belə ki, konstitusiyamızın 35-ci maddəsində əmək hüququ, 36-cı maddəsində tətil hüququ, 37-ci maddəsində istirahət hüququ, 38-ci maddəsində sosial təminat hüququ, 40-cı maddəsində mədəniyyət hüququ, 42-ci maddəsində təhsil hüququ, 48-ci maddəsində vicdan azadlığı, 51-ci maddəsində yaradıcılıq azadlığı və sair bu kimi hüquqlar bütün Azərbaycan Respublikasının vətəndaşlarına aid olduğu kimi Azərbaycan qadınlarına da şamil edilir.

Son illər insan hüquq və azadlıqlarının, o cümlədən qadın hüquqlarının tənzimlənməsi sahəsində sistemli olaraq normativ-hüquqi aktlar hazırlanıb qəbul edilmişdir. 1998-ci ildə, 2006-cı ildə və 2011-ci ildə "İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə üç milli fəaliyyət Proqramı"nın qəbul edilməsi mühüm irəliləyişə səbəb olmuşdur. (10) Eləcə də, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" 29 dekabr 1998-ci il tarixli Qanunu, "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" 11 itun

1999-cu il Qanunu, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 24 dekabr 2002-ci il tarixli Qanunu, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" 10 oktyabr 2006-cı il tarixli Qanunu, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 22 may 2012-ci il tarixli Qanunu, "Məişət zorakılığının qarşısının alınması haqqında" 22 iyun 2012-ci il tarixli Qanunu və sairə bu kimi normativ-hüquqi aktlar, eyni zamanda qadın hüquqlarının tənzimlənməsi və qorunması sahəsində mühüm dəyişikliklərə səbəb olmuşdur. Ölkənin Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi qadın hüquqlarının mühafizəsi sahəsində sistemli tədbirlər həyata keçirməkdədir. Dövlət və cəmiyyə həyatında beynəlxalq standartlara cavab verən əsaslı dəyişikliklər aparılmış və qadınların rolu əhəmiyyətli dərəcədə artırılmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild
2. Мовчан А.П. Международная защита прав человека, М., 1958
3. www/president.az Azərbaycan Respublikası Prezidentinin Sərəncamları və Fərmanları
4. Beynəlxalq sənədlər toplusu, Bakı, 2005, I cild
5. Beynəlxalq sənədlər toplusu, Bakı, 2008, I cild, "Qanun" nəşriyyatı
6. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2009, "Hüquq ədəbiyyatı"
7. Bərabər hüquqlar, bərabər imkanlar, Bakı, 2002
8. Camalova D., Ömərova M., Gəncəli S. Qadın hərəkatının ön cərgələrində, Bakı, 2004
9. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1994
10. American Journal of International Law (далее - AJIL), 1972, April, Vol.66. No.2


**Саида Гасанзаде**

**Права женщин: международно и национально-правовой анализ**

**Аннотация**

После восстановление государственной независимости в стране боли внедрены в жизнь комплексные мероприятия в области свободы и прав человека, имплементация международных правовых норм в национальные правовые нормы. Референдуму была принята Конституция Азербайджанское Республики, права и свобода человека были закреплении в нормативно правовых актах. Преобразование внутри государственной правовой системы и формирования защитных механизма продолжается по сей день. Видятся планированная работа по внедрению в национальные правовые нормы в соответствии с международными нормами прав и свободы женщин. В работе ссылаясь на международные нормативно-правовые акты дано характеристика женским правам и комментируется его характерные свойств. До сих бор это проблема не нашло своего решение и остается не ДОСтаточно изученным. Именно поэтому в стати были указано ключевое в элементы этого законно проекта и были предоставлены экспертам во время разработки проектом. В статье были разъяснены актуальные проблемы пол правом женщин и предложение в решении этой проблемы. Можно с уверенностью сказать что работа является вкладом в научно практический разработки этой проблемы.

**Saida Hasanzadeh**

**The international and national law analysis**

**Summary**

Systematical and complex measures have been implemented in the determining of the wide system of the rights and freedoms of man, in the implementation of the normses of international law to national legal norms after restoring the state independence of Azerbaijan. The Azerbaijan Republic Constitution have been accepted by referendum way, the rights and freedoms have been reflected in law documents. The creation of the national law system anew and forming of the mechanisms of defence continue today. In the system of this law has been carrying out the systematic work for being reflected the rights and freedoms of women in the national legislation according to international law. In the article have been refered to the documents and to the investigation work. For the first time the typical features of the rights of women have been shown in the article. The investigation of this problem proves that this problem has not been researched in the deep scientific level. In the article have been shown basic elements of the project of law about woman rights and the project of law have been presented to the experts. In the article have been clarified the urgent problems of the rights of women in the international and national law and the offers have been given. It is possible to say by assurance the article is important as the investigation of the woman rights and freedoms.

**Polis Akademiyasının Elmi Xəbərləri jurnalına**
**məqalələrin təqdim olunmasına dair tələblər**

Məqalənin mətni Microsoft Office Word proqramında, Times New Roman şriftində (şriftin ölçüsü 12), 1 intervalda, yuxarı və aşağıda 25 mm, soldan və sağdan 20 mm boş yer saxlamaqla yığılmalıdır.

**Məqalənin strukturunda aşağıdakı informasiya təqdim edilməlidir:**

- UOT (universal onluq təsnifat);
- məqalənin adı, müəllifin adı, soyadı, elmi dərəcəsi, işlədiyi qurumun adı və vəzifəsi, elektron poçt ünvanı və mobil telefon nömrəsi;
- açar sözlər (Azərbaycan, rus və ingilis dillərində – 5-7 söz);
- annotasiya (məqalənin adı, müəllifin adı və soyadı verilməklə azərbaycan, ingilis və rus dillərində – 4-5 sətir);
- istifadə edilmiş ədəbiyyat siyahısı əlifba sırası ilə yazılmalı və nömrələnməlidir;
- mətndəki istinaddan sonra istifadə edilmiş ədəbiyyatın sıra nömrəsi və müvafiq səhifələr kvadrat mötərizədə göstərilir. Məsələn: [15, s.120-122]. Mətnin altında sətiraltı istinadlar verilməməlidir.
- Məqalənin həcmi 5-10 səhifə olmaqla Azərbaycan, rus və ingilis dillərində təqdim oluna bilər.

Məqalələrin göndərilməsi üçün elektron ünvan: **ehg69@mail.ru**
Əlaqə telefonu: +994 50-210-48-80

---

**Общие требования к оформлению научной статьи для публикации в журнале**
**«Научный вестник Академии Полиции МВД Азербайджанской Республики»**

Текст статьи должен быть набран в текстовом редакторе Word, шрифт Times New Roman, размер шрифта – 14, межстрочный интервал – 1,5, поля 2,5 см со всех сторон.

**В статье должна быть представлена следующая информация об ее авторе:**

- УДК (Универсальная Десятичная Классификация);
- фамилия, имя, отчество авторов и соавторов;
- ученая степень, ученое звание;
- должность, место работы (если таковое имеется);
- контактная информация (контактный номер телефона, e-mail);
- название статьи (на русском и английском языке);
- аннотация (4-5 строк) (на русском и английском языке);
- литература. В тексте ссылки нумеруются в квадратных скобках, номер указывает на источник в списке литературы. Сноски оформляются в []. Пример – [1, с.44]
- Представляемые статьи должны соответствовать тематике журнала, быть оригинальными, не опубликованными ранее в других печатных или электронных изданиях.
- Объем статьи не должен превышать 5-10 страниц.

Электронный адрес для направления научных статей: **ehg69@mail.ru**
Контактный телефон: +994 50-210-48-80

---

***Dərc olunan məqalələrin məzmununa görə redaksiya heyəti məsuliyyət daşımır!***
***Редакция не несет ответственности за содержание публикуемых статей!***

## DÜZƏLİŞLƏR

**Əvvəlki nömrələrin mətnləri üçün:**